Beynəlxalq iqtisadiyyat

1.) Qloballaşmanın beynəlxalq iqtisadiyyatın inkişafına təsiri

Geniş mənada qloballaşma – hərtərəfli bəşəri cəmiyyətin formalaşması prosesidir. Müxtəlif mənbələrdə qloballaşma müxtəlif cür izah olunur: müasir dünyanın qarşılıqlı asılılığı, inteqrasiyası və bütövlüyünün yeni səviyyəsi kimi; transmilli proseslərin və transfenomenlərin təzahürü kimi; dövlətlərdən kənar məkanların, sahələrin, infrastrukturun formalaşması kimi; insanlığın tədricən ümumi mənsubiyyət şüurunu qazanması kimi. Qloballaşmanın mahiyyəti internasionallaşma, liberallaşma, universallaşma və vesternizasiya (Qərb dəyərlərinin yayılması) kimi qiymətləndirilir.

Qloballaşmanın başlanğıcı kimi insanlığın yaranmasından tutmuş, təxminən 5 min il əvvəlki neolit inqilabı, Yeni dövrün başlanğıcı, Modern dövrü (təqribən 500 il əvvəl), XIX əsrin ortaları, XX əsrin ortaları və XX əsrin sonu göstərilir. Əksər alimlər XXI əsrin əvvəlində qloballaşmanın sürətləndiyini qəbul edir. Bu, aşağıdakı amillərlə əlaqəlidir:

İnternetin və kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində dünyanın vahid kommunikasiya məkanına çevrilməsi;

Sosialist iqtisadi sisteminin dağılmasından sonra bütün ölkələrin bazar iqtisadiyyatı modelinə keçməsi və siyasi təşkilatlanmada demokratik modelə yaxınlaşması;

Qlobal səviyyədə insanlığı təhdid edən problemlərin artması;

Qlobal problemlərin həlli üçün beynəlxalq və dövlətlərüstü koordinasiya və idarəetmə mexanizmlərinə olan ehtiyacın artması.

Qloballaşmanın üç dalğasını fərqləndirirlər:

1. Birinci dalğa 1870-ci ildən 1920-ci illərə qədər olan dövrü əhatə edir. Bu dövrdə nəqliyyat vasitələrinin inkişafı başladı və proteksionist tədbirlər azaldı.
2. İkinci dalğa 1950-ci ildən 1980-ci illərə qədər davam etdi. Bu dövrdə Avropa, Şimali Amerika və Yaponiya arasında fəal iqtisadi inteqrasiya baş verdi və bu regionlar arasında ticarət daha da gücləndi.
3. Üçüncü dalğa 1980-ci illərdə başladı və bu günə qədər davam edir. Bu dalğanı ölkələr arasında texnologiyaların ötürülməsi, eləcə də inkişaf etməkdə olan dövlətlərin transmilli korporasiyaların iri kapital yatırımlarını cəlb etməyə yönəlmiş fəaliyyəti xarakterizə edir.

Qlobal dünya iqtisadiyyatının qloballaşması, dünya iqtisadiyyatının müxtəlif sahələrinin və proseslərinin qarşılıqlı asılılığının və qarşılıqlı təsirinin güclənməsi kimi xarakterizə edilə bilər. Bu proses dünya təsərrüfatının tədricən vahid bazara – yəni malların, xidmətlərin, kapitalın, işçi qüvvəsinin və biliklərin vahid bazarına çevrilməsini ifadə edir

Müasir dövrdə dünya iqtisadiyyatının qloballaşması aşağıdakı proseslərdə təzahür edir:
– Əvvəllər olduğu kimi sadəcə mübadilə deyil, istehsalın beynəlmiləlləşməsinin dərinləşməsi

Kapitalın beynəlmiləlləşməsinin dərinləşməsi – bu, ölkələr arasında kapitalın, xüsusən birbaşa investisiyalar formasında hərəkətinin artmasında ifadə olunur.

İstehsal qüvvələrinin qloballaşması – istehsal vasitələri və elmi-texniki, texnoloji biliklərin mübadiləsi vasitəsilə həyata keçirilir

Qlobal maddi, informasiya, təşkilati-iqtisadi infrastrukturun formalaşdırılması , hansı ki, beynəlxalq əməkdaşlığın reallaşdırılmasını təmin edir.

– Əmtəə mübadiləsinin beynəlmiləlləşməsinin güclənməsi

Beynəlxalq əmək miqrasiyası miqyaslarının genişlənməsi. Nisbətən kasıb ölkələrdən olan insanlar inkişaf etmiş ölkələrdə qeyri-ixtisaslı və ya az ixtisaslı işçi qüvvəsi kimi istifadə olunur.

2) Beynəlxalq ticarətin strukturunun dəyişən dinamikasını təhlil edin.

Beynəlxalq ticarətin strukturunun dəyişən dinamikası, qlobal iqtisadiyyatda baş verən köklü dəyişikliklərlə əlaqədardır. Müasir dövrdə beynəlxalq ticarət yalnız əmtəə və xammalın mübadiləsi deyil, həm də xidmətlərin və rəqəmsal məhsulların əhatə etdiyi geniş bir sektora çevrilmişdir. Bu dəyişikliklər ticarət həcminin artırılması ilə yanaşı, ticarətin tərkibini və ölkələr arasında paylanmasını da dəyişib.Əvvəllər beynəlxalq ticarət əsasən sənaye və kənd təsərrüfatı məhsullarının mübadiləsindən ibarət idisə, bu gün rəqəmsal və xidmət sektoru məhsullarının artan rolu müşahidə olunur. Xidmətlərin payının artması, qlobal istehsal zəncirlərində dəyişikliklər və texnologiya məhsullarına olan tələbin artması beynəlxalq ticarətin strukturunda ciddi dəyişikliklərə səbəb olub. Daha əvvəl ənənəvi enerji məhsullarına (məsələn, neft və qaz) əsaslanan ticarət, bu gün yaşıl texnologiyalar və bərpa olunan enerji mənbələri ətrafında inkişaf edir. Bərpa olunan enerji, elektrik avtomobilləri və nadir metallar kimi yeni sahələr ticarət strukturunda yeni təmayüllər formalaşdırır. Bütün bu dəyişikliklər, ölkələrin iqtisadi siyasətlərinə və beynəlxalq ticarət sazişlərinə də təsir edir. Qloballaşma prosesində ticarətin artması və ölkələrin bir-birinə daha çox bağlı olması qlobal iqtisadiyyatda yeni əlaqələr yaradır.

Beynəlxalq ticarət hərəkətdə olan hədəfdir. Beynəlxalq ticarətin istiqaməti və tərkibi bir nəsil öncəkindən çox fərqli, bir əsr öncəki ilə müqayisədə isə daha çoxfərqlidir. Gəlin bir sıra əsas meyillərə baxaq.

Dünya kiçilibmi?

Dünya iqtisadiyyatı ilə bağlı əsas müzakirələrdə müasir nəqliyyat və kommunika- siya vasitələrinin məsafəni aradan qaldırdığı və dünyanın kiçik bir yerə çevrildiyi barədə fikirlərə rast gəlmək olur. Sözsüz ki, bu çıxışlarda müəyyən həqiqət var: İnternet minlərlə mil uzaqda olan insanlar arasında anında və demək olar ki, ödənişsiz əlaqəni, hava nəqliyyatı isə qısa müddətdə dünyanın hər bir yerinə fiziki çıxışı təmin edir. Digər tərəfdən, cazibə modelləri məsafə və beynəlxalq ticarət arasında tərs əlaqənin olduğunu göstərməkdə davam edir. Bəs bu təsirlər zaman keçdikcə zəifləmişdirmi? Nəqliyyat və kommunikasiya vasitələrinin inkişafı dünyanı daha kiçik etmişdirmi?

Cavab “bəli”dir. Lakin tarix həmçinin göstərir ki, siyasi qüvvələr texnologiyanın təsirini üstələyə bilər. Dünya 1840 – 1914-cü illərdə kiçildi, lakin 20-ci əsrin qalan dövründə yenidən böyüdü.

İqtisadi tarixçilərin sözlərinə görə, hətta bir-birindən uzaq məsafədə yerləşən xalqlar arasında da güclü iqtisadi əlaqələrə malik qlobal iqtisadiyyat heç də yenilik deyil. Qloballaşmanın iki nəhəng dalğası baş vermişdir. İlk dalğa hava nəqliyyatı və İnternetə deyil, dəmir yolu, paroxodlar və teleqrafa əsaslanırdı. 1919-cu ildə böyük iqtisadçı Con Maynard Keyns qloballaşmanın sürətlənməsinin nəticələrini belə təsvir edirdi:

> İnsanın iqtisadi inkişafında qeyri-adi bir dövr 1914-cü ilin avqust ayında sona çatdı. London sakinləri yataqda səhər çayını içərək bütün dünyadan müxtəlif məhsulları istədikləri miqdarda və evlərinə kimi çatdırılmanı da əhatə edən sifarişləri telefonla edə bilirdilər.

Diqqət etsəniz, C. Keyns bu dövrün 1914-cü ildə "başaçatdı"ğını qeyd edir. Əslində, bu dövrdən sonrakı II dünya müharibəsi, 1930-cu illərin Böyük Böhranı və geniş yayılmış proteksionizm beynəlxalq ticarəti zəiflədən əsas amillər oldu.

Şəkil 2.5 beynəlxalq ticarətin bir ölçüsünü, istehsal olunmuş əmtəələrin ixracı indeksinin dünya üzrə sənaye istehsalı indeksinə nisbətini göstərir. Beynəlxalq ticarət Birinci Dünya müharibəsinə qədər olan onilliklərdə sürətlə böyüdü, lakin müharibədən sonra əhəmiyyətli dərəcədə azaldı. Şəkildən göründüyü kimi, qloballaşmanın bu göstəricisi Birinci Dünya müharibəsindən əvvəlki səviyyəsinə yalnız 1970-ci illərin əvvəllərində çatdı.

Bu dövrdən sonra beynəlxalq ticarət dünya üzrə istehsalın hissəsi kimi görünməmiş zirvələrə çatdı. Beynəlxalq ticarətin dəyərinin bu artımının əsas səbəblərindən biri istehsalın "şaquli dezinteqrasiyası" idi: Əmtəə istehlakçılara çatana qədər müxtəlif ölkələrdə bir çox istehsal mərhələsindən keçir. Məsələn, elektronika məhsulları – mobil telefonlar, iPod-lar və s. – adətən, Çin kimi ucuz işçi qüvvəsinin olduğu ölkələrdə yığılır, hissələri isə Yaponiya kimi yüksək əməkhaqqı olan ölkələrdə istehsal olunur. Hissələrin geniş şəkildə çarpaz daşınması olduğuüçün 100 ABŞ dolları dəyərindəki əmtəə 200 və ya 300 ABŞ dolları dəyərində beynəlxalq ticarət axınlarına səbəb ola bilər.

3) Beynəlxalq iqtisadiyyatın predmeti: qarşılıqlı iqtisadi əlaqələrdən ortaya çıxan məsələlərin qısa xülasəsini verin.

Beynəlxalq İqtisadiyyat kursunun əsas vəzifələrindən biri ölkələr arasındakı ticarət əlaqələrini öyrənmək, ticarət nəzəriyyələrinin müqayisəsini və izahını təqdim etməkdir. Bugün dünyada ölkələrin hamısı bir-birilə sıx iqtisadi əlaqələr qururlar, mal və xidmətlərin ticarətini həyata keçirirlər, bir-birinə məhsul ixrac edib, bir-birindən məhsul idxal edirlər, tez-tez öz aralarında istehsal faktorlarının ticarətini həyata keçirirlər. Və hər il bu ikili münasibətlər yeni mərhələlərə keçir və ümumilikdə inkişaf edirlər.

Əgər ölkə olaraq analiz etsək, o zaman görərik ki, istifadə etdiyimiz məhsulların, malların əksəriyyəti xarici ölkələrdə istehsal edilmiş və ölkəmizə idxal edilmişdir. İstifadə etdiyimiz məhsulların bəziləri isə yerli istehsal məhsulları olsalar da, onların da əksəriyyətinin tərkibində bəzi elementlər var ki, onlar xaricdən idxal hesabına alınır və istehsalda istifadə olunurlar. Bütün bunlar ölkələr arasında ticarətin mövcud vəziyyətini əks etdirir. Bəllidir ki, 1980-ci illərin sonlarından başlayaraq, artıq dünyada qloballaşma prossesi aktiv fəaliyyət almışdır. Qloballaşma nəticəsində ölkələr artıq bir-birilə daha çox ticarət əlaqələri qururlar, böyük

şirkətlər istehsallarını və ticarət həcmlərini ildən ilə artırırlar.

Beynəlxalq Ticarət kursu ümumilikdə dünya iqtisadiyyatındakı beynəlxalq ticarət münasibətlərinin nəzəriyyələrini, modelləri, mövcud vəziyyətini, beynəlxalq maliyyə münasibətlərini, dünyadakı valyuta bazarlarını, valyuta məzənnələrini, tənzimləmə siyasətlərini, monetar və fiskal siyasəti və s. öyərnir. Hazırda dünyada mövcud olan ölkələrin mütləq əksəriyyəti bir-birindən fərqli olsalar da, müxtəlif iqtisadi gücə, quruluşa, müxtəlif inkişaf səviyyələrinə sahib olsalar da, bu ölkələrin böyük qismi bir-birilə daima yaxın əlaqədə, strateji əməkdaşlıqdadırlar. Beynəlxalq İqtisadiyyat kursu dünyadakı ölkələrin bir-birilə arasında olan iqtisadi əlaqələri öyrənir, tətqiq edir. Yəni ki, Beynəlxalq İqtisadiyyat kursunun əsas vəzifəsi, dünyanın müstəqil ölkələri arasındakı bütün iqtisadi əlaqələri araşdırmaq və öyrənməkdir. Beynəlxalq iqtisadiyyatda hazırda iqtisadi əlaqələrin əsas təməli də məhz mal və xidmətlərin mübadiləsi və ticarətidir. Məhsulların mübadiləsi çox qədim zamanlardan bu yana aparılasa da, bugün artıq texnologiyanın inkişafı, daşınma, çatdırılma və digər bu kimi xidmətlərin inkişaf etməsi, ölkələr arasında gömrük birliklərinin qurulması və gömrük tariflərinin aşağı endirilməsi, ikitərəfli və çoxtərəfli ticarət müqavilələrinin imzalanması mal və xidmət transferini, ticarətini sürətləndirmişdir. Xüsusilə də son 50-60 ildə dünya ticarət həcmi dünyanın ümumi istehsalından daha sürətlə artmağa başlamışdır.

4.) Cazibə modeli. Cazibə modelində istisnalar.

Beynəlxalq ticarətə ümumilikdə nəzər saldıqdan sonra iqtisadçılar hər hansı iki ölkə arasında ticarətin həcmini kifayət qədər dəqiqliklə müəyyən etməyə imkan verən aşağıdakı düsturu təyin etmişlər,

$$T_{ij} = A * Y_i * Y_j / D_{ij}$$

Burada A- sabit rəqəm,

T_{ij} - i ölkəsi ilə j ölkəsi arasında ticarətin dəyəri,

Y_i -i ölkəsinin ÜDM-i,

Y_j- isə j ölkəsinin ÜDM-i,

D_{ij}- iki ölkə arasındakı məsafədir. Bu o deməkdir ki, digər şərtlər dəyişilməz qaldığı halda, iki ölkə arasındakı ticarətin dəyəri bu ölkələrin ÜDM-lərinin hasilinə mütənasib, ölkələr arasındakı məsafəyə isə tərs mütənasibdir.

Bu düstur (2.1) beynəlxalq ticarətin cazibə modeli kimi tanınır. Düstura bu adın verilməsinin səbəbi Nyutonun cazibə qanunu ilə oxşarlığıdır: hər hansı iki obyekt arasındakı cazibə bu obyektlərin çəkilərinin hasilinə mütənasib, bu obyektlərin aralarındakı məsafəyə isə tərs mütənasib olduğu kimi, hər hansı iki ölkə arasındakı ticarət, digər şərtlər dəyişilməz qaldığı halda, bu ölkələrin ÜDM-nin hasilinə mütənasib və bu ölkələr arasındakı məsafəyə tərs mütənasibdir.

Cazibə modelinin işlək olmasının səbəbi nədir? Ümumilikdə, böyük gəlirlərə malik olduqları üçün böyük iqtisadiyyatlar idxala böyük məbləğlər xərcləyirlər. Bu ölkələr həm də digər ölkələrin xərcləmələrinin böyük hissəsini özlərinə cəlb edirlər, çünki özləri də

geniş çeşiddə məhsullar istehsal edirlər. Beləliklə, digər şərtlər dəyişilməz qaldığı halda, iki iqtisadiyyat arasında ticarət bu iqtisadiyyatların ölçülərindən asılıdır – daha böyük iqtisadiyyat daha böyük ticarət deməkdir.

Dəyişilməz qalmayan şərtlər hansılardır? Qeyd etdiyimiz kimi, təcrübədə ölkələr öz gəlirlərinin böyük hissəsini öz ölkələrində xərcləyirlər. Amerika Birləşmiş Ştatları və Avropa İttifaqının hər biri dünya ÜDM-in təxminən 25%-ni özlərində cəmləşdirir, lakin digər ölkələrin xərcləmələrinin cəmi 2%-ni özlərinə cəlb edirlər. Real ticarət axınlarını anlamaq üçün biz beynəlxalq ticarəti məhdudlaşdıran amilləri nəzərə almalıyıq. Buna başlamazdan öncə, gəlin cazibə modelinin nə üçün faydalı olduğunun vacib səbəbini nəzərdən keçirək.

Cazibə modelindən istifadə: Anomaliyalar axtarışında

Şəkil 2.2-dən aydın olduğu kimi, cazibə modeli ABŞ-ın Avropa ölkələri ilə ticarətinə əsaslanan məlumatlara kifayət qədər uyğun olsa da, tam uyğun deyil. Əslində, cazibə modelinin əsas istifadə məqsədlərindən biri də ticarətdə anomaliyaların müəyyən edilməsidir. Həqiqətən də, iki ölkə arasında ticarət cazibə modelinin proqnozlaşdırdığı səviyyədən xeyli artıq və ya xeyli az olduqda iqtisadçılar bunun izahını axtarırlar.

Şəkil 2.2-yə yenidən baxdıqda Hollandiya, Belçika və İrlandiyanın cazibə mod- elinin proqnozlaşdırdığı səviyyədən daha artıq ticarət etdiklərinin şahidi oluruq. Bunun səbəbi nədir?


İrlandiya üçün cavab qismən mədəni yaxınlıqla izah olunur: İrlandiya ABŞ-la təkcə eyni dili paylaşmır, həm də on milyonlarla amerikalı irland mühacirlərin törəmələridir. Bundan başqa, İrlandiyanın bir çox ABŞ şirkətinə ev sahibliyi kimi xüsusi rolu vardır.

Hollandiya və Belçika üçün isə böyük ehtimalla coğrafi mövqe və nəqliyyat xərcləri ABŞ-la böyük həcmdə ticarətin əsas səbəbləridir. Hər iki ölkə Qərbi Avropanın ən uzun çayı olan, Almaniyanın sənaye ürəyi Rurdan keçib gələn Reyn çayının mənsəbinə yaxın yerləşir. Beləliklə, Hollandiya və Belçika tarixən Şimal-Qərbi Avropaya giriş məntəqəsi olmuşdur; Hollandiyadakı Rotterdam limanı yükaşırma həcminə görə Avropanın ən əhəmiyyətli limanı, Belçikanın Antverp limanı isə bu göstəriciyə görə ikincidir. Belçika və Hollandiyanın böyük həcmdə ticarəti nəqliyyat xərclərinin və coğrafi mövqeyin ticarətin həcmini müəyyənləşdirməkdə vacib rol oynadığını göstərir. Bu amillərin əhəmiyyəti ticarətlə bağlı məlumatlara geniş nümunədə baxdıqda daha da aydın

ŞƏKİL 2.2

Avropa iqtisadiyyatlarının ölçüsü və onların Amerika Birləşmiş Ştatları ilə ticarəti

Mənbə: ABŞ Dövlət Ticarət Departamenti, Avropa Komissiyası.



olacaq.

5.) Cazibə modelinin düsturuna görə İki ölkə arasında ticarətin həcmi, həmin ölkələrin ÜDM-ı iki dəfə artdıqda dörd dəfə artacaq. Siz bu fikirlə razısınızmı? Fikrinizi əsaslandırın.

Beynəlxalq ticarətə ümumilikdə nəzər saldıqdan sonra iqtisadçılar hər hansı iki ölkə arasında ticarətin həcmini kifayət qədər dəqiqliklə müəyyən etməyə imkan verən aşağıdakı düsturu təyin etmişlər,

Tij = A * Yi * Yj/Dij (2-1)

. Bu düsturdan görə, hər iki ölkənin ÜDM-i iki dəfə artdıqda, ticarət həcmi də dörd dəfə artmalıdır, çünki ÜDM-lər ticarət həcminin hesablanmasında çarpan kimi istifadə olunur (yəni, və iki dəfə artdıqda, dörd dəfə artır). Bu fikir model çərçivəsində məntiqli görünür, çünki cazibə modeli ÜDM-in artmasının iki ölkə arasında daha çox ticarət cəlb edəcəyini nəzərdə tutur. Lakin bu nəticə yalnız cazibə modelinin sadələşdirilmiş şəraitində doğrudur və real həyatda başqa faktorlar da ticarət həcmini təsir edə bilər, məsələn, siyasi vəziyyət, ticarət maneələri, valyuta məzənnələri və digər iqtisadi faktorlar.

Cazibə modelinin işlək olmasının səbəbi nədir? Ümumilikdə, böyük gəlirlərə malik olduqları üçün böyük iqtisadiyyatlar idxala böyük məbləğlər xərcləyirlər. Bu ölkələr həm də digər ölkələrin xərcləmələrinin böyük hissəsini özlərinə cəlb edirlər, çünki özləri də geniş çeşiddə məhsullar istehsal edirlər. Beləliklə, digər şərtlər dəyişilməz qaldığı halda, iki iqtisadiyyat arasında ticarət bu iqtisadiyyatların ölçülərindən asılıdır – daha böyük iqtisadiyyat daha böyük ticarət deməkdir.

6.) Müqayisəli üstünlüklər prinsipinə əsaslanan Rikardo ticarət modelinin əsas müddəalarını izah edin

Mütləq üstünlüklər nəzəriyyəsi – ölkələr daha az xərc hesabına istehsal etdikləri malları (yəni bu mallarda mütləq üstünlüyə malik olduqları) ixrac edir, daha yüksək xərclə istehsal olunan malları isə üstünlüyə malik olan digər ölkələrdən idxal edirlər.

“Laissez-faire” (fr. – “etməyə icazə verin”) – iqtisadiyyata dövlətin müdaxiləsinin olmaması və sərbəst rəqabət siyasətidir.

Müqayisəli üstünlüklər qanunu Devid Rikardonun əsas əsəri olan “Siyasi iqtisadın və vergitutmanın prinsipləri”-nin VII fəsli – “Xarici ticarət haqqında” bölməsində yer almışdır. Rikardo aşağıdakı məntiqi əsas götürür:

Xarici ticarət ölkənin rifahına iki istiqamətdə – statik və dinamik təsirlər vasitəsilə müsbət təsir göstərir. “Xarici ticarət ölkə üçün faydalıdır, çünki o, gəlirin sərf oluna biləcəyi məhsulların miqdarını və müxtəlifliyini artırır və malların bolluğu və ucuzluğu sayəsində kapital yığımına və qənaətə təşviq yaradır; lakin o, kapitaldan əldə olunan mənfəəti artırmaq meylinə malik deyil – yalnız o halda istisna təşkil edir ki, idxal olunan mallar əmək haqqı ilə birbaşa əlaqəli məhsul qrupuna aid olsun”. Malların “miqdar və müxtəlifliyinin artması” – xarici ticarətin statik effektidir , yəni yerli istehlakçılar üçün daha çox mal əlçatan olur. “Qənaət və kapital yığımına təşviq” isə dinamik effektdir – bu halda xarici ticarət iqtisadi artımı sürətləndirən amilə çevrilir.

Ticarətin əsasında beynəlxalq əmək bölgüsü dayanırvə bu əmək bölgüsü bu prosesdə iştirak edən ölkələrin iqtisadi səmərəliliyini artırır. Rikardo bildirir ki, ticarət azadlığı şəraitində hər bir ölkə öz istehsal amillərini ona ən çox fayda gətirən sahələrdə istifadə edir. Fərdi mənfəət güdmə əməksevərlik və təşəbbüskarlığın mükafatlandırılması ilə nəticələnir və bu da səmərəli beynəlxalq əmək bölgüsünə gətirib çıxarır.

Daxili və xarici ticarəti tənzimləyən qaydalar fərqlidir. “Bir ölkə daxilində malların nisbi dəyərini tənzimləyən qayda, iki və ya daha çox ölkə arasında dəyişdirilən malların nisbi dəyərini tənzimləmir”. Rikardonun istifadə etdiyi əmək dəyəri nəzəriyyəsinə əsasən, malın dəyəri onun istehsalına sərf olunan əmək miqdarı ilə müəyyən olunur. Buna görə də, ölkə daxilində malların dəyişdirilməsinin əsas qaydası onların dəyərləri nisbətində dəyişdirilməsidir.

Bu fərqliliklər istehsal amillərinin ölkə daxilində mobilliyi, lakin ölkələr arasında qeyri-mobilliyi ilə izah olunur. Ölkə daxilində kapital, adətən, sahələr və regionlar arasında sərbəst şəkildə hərəkət edə bilir və bu da mənfəətin bərabərləşməsinə gətirib çıxarır. “Əgər Yorkşirdə istifadə edilən kapitaldan əldə olunan mənfəət Londondakından yüksəkdirsə, kapital sürətlə Londondan Yorkşirə köçəcək və mənfəət balansı bərpa olunacaq”. Lakin Rikardonun nəzəriyyəsinə görə, istehsal amilləri ölkələrarası sərhədləri keçə bilməz və bu, nəzəri əsas kimi götürülür.

Ölkə müqayisəli üstünlüyə malik olduğu malları ixrac edəcəkdir.

Ticarət şərtləri – ölkələr arasında malların dəyişdirilməsində qiymət nisbətləri – hər bir ölkədə həmin malların alternativ dəyərləri arasında orta nöqtədə formalaşacaqdır.

Hətta ölkə müəyyən bir məhsul üzrə mütləq üstünlüyə malik olsa belə, onu idxal etməsi sərfəli ola bilər. Bu, onu göstərir ki, heç bir məhsul üzrə mütləq üstünlüyə malik olmayan ölkələr üçün də xarici ticarət faydalı ola bilər – əgər onlar heç olmasa bir məhsul üzrə müqayisəli üstünlüyə malikdirlərsə.

Müqayisəli üstünlüklərə əsaslanan ticarət yalnız istehsal amillərinin beynəlxalq qeyri-mobilliyi halında mümkündür. "Belə bir mübadilə eyni ölkənin fərdləri arasında mümkün olmazdı. Bu baxımdan bir ölkə ilə bir neçə ölkə arasında fərq kapitalın daha gəlirli fəaliyyət sahəsi tapmaq üçün bir ölkədən digərinə hərəkət etməsinin çətinliyi və o biri halda isə ölkə daxilində sərbəst şəkildə sahədən sahəyə keçməsi ilə asanlıqla izah oluna bilər".

Rikardonun nəzəriyyəsinin ən əsas nəticəsi ondan ibarətdir ki, xarici ticarət, hətta mütləq üstünlüklərin olmadığı hallarda da faydalı ola bilər – əsas məsələmüqayisəli üstünlüklərin mövcudluğudur. Bu ideya klassik iqtisadiyyatda inqilabi əhəmiyyət daşıyırdı və milli təsərrüfatlar arasında əmək bölgüsünü və ticarətin səmərəliliyini əsaslandırmaq üçün fundamental baza yaratdı.

Rikardo modelinin əsas fərziyyələri:

1. İstehsal yalnız iki mal üzrə həyata keçirilir;
2. Yalnız bir istehsal faktoru – əmək mövcuddur;
3. Əmək daxildə tam mobildir, lakin ölkələr arasında tamamilə qeyri-mobildir;
4. Əmək məhsuldarlığı sabitdir;
5. Tam məşğulluq şəraiti mövcuddur;
6. Nəqliyyat xərcləri nəzərə alınmır;
7. Ticarət tam sərbəstdir – gömrük rüsumları və qeyri-gömrük maneələri yoxdur;
8. Valyuta kursu sabitdir.

7.) Müqayisəli üstünlüklər nəzəriyyəsində İstehsal İmkanları Əyrisini təsvir edin və ona xas olan xüsusiyyətləri sadalayın.


İstehsal imkanları Hər iqtisadiyyat yalnız məhdud resurslara malik olduğundan, istehsal oluna biləcək son məhsula məhdudiyyətlər və sərt seçimlər həmişə yarana- caq; bir məhsuldan daha çox istehsal etməkdən ötrü digər məhsulun istehsalından müəyyən qədər qurban verilməlidir. Bu seçimlər Şəkil 3.1-də istehsal imkanları əyrisi (PF xətti) ilə təsvir olunur. Həmin göstərici pendirin nə qədər istehsal olunacağı müəyyənləşdiyi halda (və ya əksinə) maksimum nə qədər şərabın istehsal olunacağını göstərir.

Ancaq tək istehsal amili olduqda iqtisadiyyatın istehsal imkanları əyrisi sadəcə düz xətt formasını alır. Həmin xətti bu cür qurmaq olar: ölkədə şərabın istehsalı Q_W, pendir istehsalı isə Q_C olarsa, onda şərabın istehsalında tətbiq olunmuş əmək $a_{LW}Q_W$ pendirin istehsalına sərf olunmuş əmək isə $a_{LC}Q_C$ düsturu ilə ifadə olu- nur. İstehsal imkanları əyrisi iqtisadi resurs, baxdığımız nümunədə əməyə olan məhdudiyyətlərlə müəyyənləşdirilir. İqtisadiyyatın ümumi əmək təklifi L olduğuna görə, istehsal hədləri aşağıdakı bərabərsizlik ilə təyin olunur:

$a_{LC}Q_C + a_{LW}Q_W \ldots L$

Ehtimal edək ki, iqtisadiyyatda ümumi əmək təklifi 1000 saat təşkil edir, 1 funt pendir və 1 qallon şərab istehsal etmək üçün tələb olunan əmək isə müvafiq olaraq, 1 və 2 saatdır. Onda istehsalda tətbiq olunan əməyin ümumi miqdarı (1* funt pen dir) + (2 * qallon şərab) kimi yazılır və bu miqdar min saatdan çox ola bilməz.Şəkil 1-də göstərildiyi kimi, ölkənin əmək resurslarının hamısı pendir istehsalına yönəldilsə, L/a_{LC} (1000 funt) pendir istehsal oluna bilərdi. Əksinə, bütün resurslar şərab istehsalında istifadə olunsa, L/a_{LW} qallon — 1,000/2 = 500 qallon — şərab istehsal olunmuş olardı. Eynilə, ölkə bu iki kənar nöqtəni birləşdirən xətdə yerləşən hər nöqtəyə uyğun olan şərab və pendirin kəmiyyətini istehsal etmək imkanına malikdir.

İstehsal imkanları əyrisi düz xətt olduqda bir funt pendirin şərabla ifadə olu- nan alternativ xərci dəyişməzdir. Öncəki bölmədə gördüyünüz kimi, alternativ xərc ölkədə əlavə funt pendiri istehsal etmək üçün imtina olunmalı olan şərab qallonlarının sayı kimi təyin olunur. Bu nümunədə əlavə bir funtun istehsalı a adam-saat tələb edəcək. Eyni zamanda, həmin adam-saatların hər biri a_{LC} qallon şərabın istehsalına sərf oluna bilərdi. Deməli, şərabla ifadə olunan pendirin alterna- tiv xərci $1/a_{LW}$ təşkil edir. Misal üçün, əgər bir funt pendirin istehsalı bir, bir qallon şərabın istehsalı isə iki adam-saat tələb edirsə, hər funt pendirin alternativ xərci yarım qallon şərabdır. Cədvəl 3.1-də göstərildiyi kimi, bu, alternativ xərc istehsal imkanları əyrisinin bucaq əmsalının mütləq dəyərinə bərabərdir.



8.) Tək faktorlu iqtisadiyyat anlayışını izah edin

Müqayisəli üstünlüyün beynəlxalq ticarət strukturunun müəyyənləşdirilməsində oynadığı rolu təqdim edərək biz əvvəlcə təsəvvür edirik ki, cəmi bir istehsal amilinə malik "Ev" adlanan ölkəni araşdırırıq . Güman edək ki, yalnız iki məhsul, şərab və pendir, istehsal olunur. "Ev"in iqtisadiyyatının texnologiyası məhsul vahidinə düşən əmək tələbatı ilə (bir funt pendir və ya bir qallon şərab əldə etməyə sərf edilməli olan iş saatlarının sayı) ifadə olunmuş hər sahədəki əmək məhsuldarlığı ilə xarakterizə oluna bilər. Məsələn, bir funt pendir üçün bir saat, bir qallon

şərab üçün isə iki saat iş tələb oluna bilər. Yeri gəlmişkən, məhsul vahidinə düşən əmək tələbatı burada məhsuldarlığın tərsi təyin olunur: bir saat ərzində işçi nə qədər çox pendir ya şərab istehsal edə bilərsə, həmin göstərici bir qədər də aşağı olur. Gələcək üçün biz şərab və pendirin məhsul vahidinə düşən əmək tələbatı göstəricilərini a_{LW} və a_{LC} kimi göstəririk. İqtisadiyyatda mövcud olan əmək təklifi isə L, ilə işarə olunu.

9.) Rikardonun təhlilinə əsasən, istehsalı xarici ölkə əmtəənin istehsalı üçün lazım olan vahidə düşən iş saatından daha az iş saatı tələb edən hər hansı bir əmtəə ixrac edir. Yəni, ölkə o əmtəəni ixrac edir ki, onun əmək məhsuldarlığı xarici ölkədə bu məhsul üçün əmək məhsuldarlığından yüksəkdir". Razısınız və ya razı deyilsiniz? Niyə?

Alternativ xərc (və ya fürsət dəyəri) anlayışı Rikardo modelinin əsas anlayışlarından biridir. Bu, müəyyən bir məhsulun əlavə bir vahidinin istehsal edilməsi üçün hansı digər məhsuldan imtina edilməli olduğunu göstərir. Beləliklə, müqayisəli üstünlük bir ölkənin digər ölkəyə nisbətən daha aşağı alternativ xərc ilə müəyyən bir mal istehsal edə bilməsi deməkdir

Bu səbəbdən daha sonrakı dövrlərdə, məsələn, Hekşer-Olin modeli kimi nəzəriyyələr müqayisəli üstünlük konsepsiyasını daha geniş və mürəkkəb formalarda inkişaf etdirmişdir. Bu modellərdə artıq resurs bolluğu və texnoloji fərqlər , əmək və kapital kimi müxtəlif istehsal faktorları , ölçülə bilən istehlak funksiyaları , ölçülə bilən alternativ xərclər kimi elementlər nəzərə alınmağa başlanmışdır.

Bununla belə, Rikardonun müqayisəli üstünlüklər nəzəriyyəsi beynəlxalq ticarətin iqtisadi əsaslarının izahında və azad ticarətin nəzəri əsaslandırılmasında bu gün də mühüm yer tutur və iqtisadi elmdə fundamental statusa malikdir.

Ehtimal edək ki, ABŞ hazırda Valentin günündəki satış üçün 10 milyon qızılgül istehsal edir və həmin qızılgüllərin istehsalında istifadə olunmuş resursların hesabına 100 min kompüter istehsal etmək olardı. Bu halda 10 milyon qızılgülün alternativ xərci 100 min kompüterdir (əksinə, kompüterlər istehsal olunsaydı, onda sözügedən 100 min kompyuterin alternativ xərci 10 milyon qızılgül olacaqdı). Bunun əvəzinə, həmin 10 milyon Valentin qızılgülünü Kolumbiyada da becərə bilərdilər. Bu qızılgüllərin kompüterlə ifadə olunan alternativ xərcinin ABŞ-dakından daha aşağı olması ehtimalı olduqca böyükdür. Birincisi, Cənub yarımkürəsində yay ayı olan fevralda qızılgül becərmək qat-qat asandır. Bundan əlavə, Kolumbiyalı işçilər öz ABŞ həmkarları ilə müqayisədə kompyuter kimi mürəkkəb məhsulların istehsalında o qədər səmərəli deyillər, bu da o deməkdir ki, sərf olunan resursların eyni miqdarı ilə kolumbiyada daha az kompüter hazırlamaq olur. Beləliklə, Kolumbiya seçim 10 milyon qızılgülün əvəzinə, 30 min kompüter ola bilərdi. Alternativ xərclərdə belə fərqlilik qlobal istehsal

yerləşdirilməsində bütün tərəflərin faydalandığı dəyişikliklər üçün imkan yaradır. Qoy ABŞ qışda qızılgül becərmədən azad olan resursları kompüter istehsalına yönəltsin; Kolumbiya isə eyni zamanda qızılgüllərin istehsalına tələb olunan resursları kompüter sahəsindən gül biznesinə yönəltsin. Beynəlxalq ticarət hər ölkəyə müqayisəli üstünlüyü olan sahələrdə ixtisaslaşmaq fürsətini verərək, dünyada son məhsulun artımına gətirib çıxarır. Ölkə üçün hər hansı bir məhsul üzrə müqayisəli üstünlüyə malik olmaq sözügedən məhsulun istehsalının digər məhsullarla ifadə olunan alternativ xərcinin başqa ölkələrlə müqayisədə daha aşağı olması deməkdir.

Yuxarıda təsvir etdiyimiz misalda Kolumbiyanın qış qızılgülləri, ABŞ-ın isə kompüterlərdə müqayisəli üstünlüyü var. Kolumbiyadan ABŞ bazarına qızılgüllər, əks istiqamətdə isə kompüterlər satılsa, yaşayış səviyyəsi hər iki ölkədə artacaq. Deməli, müqayisəli üstünlük ilə beynəlxalq ticarət haqqında əsas fikrimiz budur: Ölkələrin hər ikisi onların müqayisəli üstünlüyü olan məhsulları ixrac etdikləri halda aralarında olan ticarətdən faydalana bilərlər .

10.) Hekşer-Ohlin ticarət nəzəriyyəsini izah edin

XIX əsrdə Heckscher–Ohlin teoremi belə bir müddəanı əsaslandırır:

Ölkə nisbətən bol malik olduğu istehsal faktorunun intensiv istifadəsini tələb edən malları ixrac edir, əvəzində isə nisbətən məhdud olduğu istehsal faktorlarının intensiv şəkildə istifadə olunduğu malları idxal edir.

Bu teorem, xüsusilə resurs əsaslı inkişaf mərhələsində olan ölkələr üçün bu gün də aktual hesab olunur. Müasir riyazi iqtisadçılar bu nəzəriyyəni tam formal şəkildə riyazi teorem kimi sübut etmişlər. Sözügedən yanaşma, beynəlxalq ticarətin səbəblərinin daha dərin izahına yönəlmiş və İkinci Dünya müharibəsindən sonra aparılan araşdırmalar nəticəsində dörd əlavə teoremin formalaşmasına gətirib çıxarmışdır. Müasir baxışa görə, faktor üstünlükləri nəzəriyyəsində əsas teoremin – Hekşer–Ohlin teoreminin sübutu aşağıdakı kimidir:

• Ölkələr istehsal faktorları ilə fərqli dərəcədə təmin olunmuşdur.
• İstehsal faktorlarının alternativ dəyəri müxtəlifdir. Bu səbəbdən həmin faktorlarla istehsal olunan mallar da hər bir ölkə daxilində müxtəlif alternativ dəyərə malik olur.
• Alternativ dəyərlərdəki fərqlər səbəbilə, hər bir ölkə digərinə nisbətən müəyyən bir malın istehsalında müqayisəli üstünlüyə malikdir.
• Hər bir ölkə, müqayisəli üstünlüyə malik olduğu malın istehsalına və həmin malın digər ölkəyə ixracına ixtisaslaşır.
• Bu ixtisaslaşma tam deyil, qismidir. Çünki ticarətin açılmasına baxmayaraq, hər bir ölkə müqayisəli üstünlüyə malik olmadığı maldan da müəyyən miqdarda istehsal etməyə davam edir.
• Hər bir ölkə, digər ölkənin müqayisəli üstünlük malik olduğu malı həmin malın daxili istehsal qiymətindən daha ucuz qiymətə əldə etdiyi üçün, hər iki malın istehlakı ölkədə artır.
• Ticarətin nəticəsində hər iki ölkədə malların nisbi qiymətləri son nəticədə bərabərləşir. Malların daxili nisbi qiymətlərinin bərabərliyi iki ölkə arasında (və dünya bazarında)

malların ticarətində tarazlığı təmin edir.
• Ölkə, təmin olunmasında üstünlük təşkil etdiyi istehsal faktoru ilə daha effektiv şəkildə istehsal etdiyi malı ixrac etməklə, eyni zamanda həmin nisbi artıq olan faktorun xidmətlərini də ixrac etmiş olur.

Hekşer-Olin teoremi: Bir amillə zəngin olan ölkə istehsalı bu amil tutumlu olan əmtəəni ixrac edir.

Daha çox ölkə, istehsal amili və əmtəənin daha real olduğu halda biz bu nəticəni ölkənin zəngin olduğu amil və bu amili intensiv şəkildə işlədən əmtəələrin ixracı arasında qarşılıqlı əlaqə kimi ümumiləşdirə bilərik : Ölkələr istehsalı bu ölkələrin zəngin olduğu amil tutumlu olan əmtəələri ixrac etməyə meyilli olurlar.

11) Leontyev paradoksunun mahiyyətini izah edin

Amerikalı iqtisadçı Vasiliy Leontief tərəfindən 1953-cü ildə aparılan empirik araşdırma nəticəsində ABŞ-ın – o dövrdə dünya üzrə kapital baxımından ən zəngin ölkə – əmək-intensiv mallar ixrac etdiyi müşahidə olunmuşdur. Bu nəticə Heckscher–Ohlin teoreminin əksinə idi və “Leontief paradoksu” adı ilə tanındı. Bu paradoks göstərdi ki, real dünyada istehsal faktorlarının keyfiyyəti, texnologiyanın fərqliliyi və ixtisas dərəcəsi kimi amillər sadə faktor bolluğu modelini dəyişdirə və gözlənilən ticarət strukturunu pozula bilər. İstehsal faktorlarına əsaslanan beynəlxalq ticarət nəzəriyyəsi (Heckscher–Ohlin modeli) müxtəlif ölkələr və məhsullar üzrə dəfələrlə sınaqdan keçirilmiş, nəticələr bəzən nəzəriyyəni təsdiqləmiş, bəzən isə təkzib etmişdir. Nəzəriyyəni təkzib edən ən məşhur tədqiqat 1953-cü ildə Vasili Leontiyev tərəfindən aparılmışdır.

İkinci Dünya müharibəsindən sonra ABŞ dünyanın ən kapitaltutumlu ölkələrindən biri idi. Buna görə Heckscher–Ohlin modelinə əsasən, ABŞ kapitaltutumlu mallar ixrac etməli idi. Leontiyev bu fərziyyəni yoxlamaq üçün 1947-ci ilin məlumatları əsasında hesabladı ki, 1 milyon dollarlıq ixrac və 1 milyon dollarlıq idxalı əvəz edən malların istehsalı üçün nə qədər kapital və əmək tələb olunur. Gözlənilən əksinə, ixrac məhsulları idxal əvəzləyicilərinə nisbətən daha az kapitaltutumlu çıxdı – yəni ABŞ ixracı “əməktutumlu”, idxalı isə “kapitaltutumlu” idi. Kapitalın üstün olduğu ölkə üçün bu nəticə ziddiyyətli idi və “Leontiyev paradoksu” adlandırıldı. 1951 və 1962-ci illər üçün təkrar aparılan hesablamalar da oxşar nəticə verdi.

Sonrakı illərdə Yaponiya və Hindistan kimi ölkələr üçün aparılan tədqiqatlar da Heckscher–Ohlin modelindən kənar nəticələr göstərdi. Məsələn, əmək bolluğuna baxmayaraq Yaponiya kapitaltutumlu mallar ixrac edir, Hindistan isə əməktutumlu mallar ixrac etsə də, ABŞ-a ixracı daha çox kapital tələb edirdi. 1987-ci ildə Bouen, Limer və Sveikauskas 27 ölkə və 12 istehsal faktoru üzrə apardıqları geniş araşdırmada da nəzəriyyənin yalnız 70%-dən az hallarda təsdiqləndiyini aşkar etdilər.

Bu uyğunsuzluqlar iqtisadçılar arasında geniş müzakirələrə səbəb oldu və Leontiyev

paradoksuna qarşı bir sıra izahlar irəli sürüldü:

1. Əmək qüvvəsinin kvalifikasiyası: ABŞ ixtisaslı əmək baxımından zəngin, lakin qeyri-ixtisaslı əmək baxımından kasıbdır. Bu səbəbdən o, "kapital kimi dəyərləndirilən" ixtisaslı əmək məhsullarını ixrac edir (D. Kising, 1966).
2. Kapitaltutumlu xammalın idxalı: ABŞ çox kapital tələb edən xammal idxal etdiyindən, bu məhsulların emalı ixracın da kapitaltutumlu görünməsinə səbəb olur (J. Hartigan).
3. İdxal tarifləri: Əməktutumlu sahələri qorumaq məqsədilə tətbiq edilən tariflər nəticələri bir qədər təhrif edir (R. Boldvin, 1971).
4. İstehlakçı zövqləri və texnologiya üstünlüyü: ABŞ istehlakçıları daha keyfiyyətli, texnoloji məhsullara üstünlük verir, bu isə istehsal faktorları nisbəti fərziyyəsini zəiflədir.
5. Faktor təminatının müxtəlif tərifləri və faktor inversiyası: Eyni məhsul müxtəlif ölkələrdə fərqli faktorlarla istehsal oluna bilər – bu da nəticələri dəyişə bilər.

Sonralar D. Trefler və J. Romalis kimi tədqiqatçılar yeni metodlarla Heckscher–Ohlin nəzəriyyəsinin bəzi hallarda doğru olduğunu göstərmişlər. Bununla belə, bir çox iqtisadçı beynəlxalq ticarəti istehsal faktorlarından çox texnologiya fərqləri ilə izah etməyin daha uyğun olduğunu düşünür. Məsələn, ABŞ təyyarə və kompüter ixrac edir, çünki bu sahələrdə texnoloji üstünlüyə malikdir. Lakin texnologiya fərqlərinin özünün necə yarandığı sualı hələ də açıq qalır.

12) Ticarətdən kim qazanır və itirir? Stolper-Samuelson teoremindən istifadə edərək cavablandırın

2. Stolper–Samuelson Teoremi

Bu teorem göstərir ki, bir malın nisbi qiymətində baş verən dəyişiklik yalnız həmin malın istehsalında intensiv istifadə olunan faktorun nisbi gəlirini artırır , digər faktorun isə gəlirini azaldır . Beləliklə, bu nəticə göstərir ki, beynəlxalq ticarət gəlir bölgüsünü dəyişə bilər. Məsələn, kapital-intensiv malların ixracı ilə məşğul olan ölkədə kapital sahibləri qazanır, əmək qüvvəsi isə nisbətən uduzur. Bu teorem ticarətin sosial nəticələri və bərabərsizlik üzərindəki təsirləri ilə bağlı müzakirələrin əsasını təşkil edir. Stolper–Samuelson teoremi – beynəlxalq ticarət, qiyməti artan məhsulun istehsalında daha intensiv istifadə olunan istehsal faktorunun qiymətinin artmasına və qiyməti azalan məhsulun istehsalında daha intensiv istifadə olunan istehsal faktorunun qiymətinin azalmasına gətirib çıxarır. Daha sadə (amma daha az dəqiq) desək: məhsulun qiymətinin artması, həmin məhsulun istehsalında istifadə olunan faktorun qiymətinin artmasına; məhsulun qiymətinin azalması isə həmin faktorun qiymətinin azalmasına gətirib çıxarır. Bu zaman faktor qiymətləri məhsul qiymətindən daha çox dəyişir (artır və ya azalır).

Tutaq ki, bir ölkə X və Y mallarını iki istehsal faktoru – əmək (L) və torpaq (T) vasitəsilə istehsal edir. Bu zaman:

Pi (i = X, Y) – X və Y mallarının qiymətləri;

w – əmək haqqı (əməyin qiyməti);

r – torpaq icarəsi (torpağın qiyməti);

Li – X və Y mallarının istehsalına tələb olunan əmək miqdarı;

Ti – X və Y mallarının istehsalına tələb olunan torpaq miqdarıdır.

Bu zaman hər bir məhsulun qiyməti onun istehsalına sərf olunan faktorların miqdarı ilə onların qiymətlərinin hasilinin cəminə bərabərdir:

Pi = wLi + rTi, burada i = X, Y.

Bu tənlik göstərir ki, hər iki məhsulun bazar qiyməti onların istehsal xərclərinə bərabərdir, yəni qiymət formalaşması əmək dəyəri nəzəriyyəsinə əsaslanır. Stolper–Samuelson teoremi yalnız məhsul qiymətləri ilə faktor qiymətləri arasında əlaqəni deyil, həm də beynəlxalq ticarət nəticəsində gəlirlərin bölgüsünün istiqamətini göstərir. Belə ki, məhsul qiymətinin və onun istehsalında daha intensiv istifadə olunan faktorun qiymətinin artması ticarətdən əldə edilən mənfəətin nisbətən üstün olan faktorların sahiblərinə yönəlməsinə səbəb olur. Nisbətən çatışmazlıqda olan faktorların sahibləri isə zərərə uğrayır.

Bu teorem bir daha təsdiqləyir ki, müqayisəli üstünlük əsasında ixtisaslaşma ticarət edən hər bir ölkəyə əlavə gəlir qazandırır.

Stolper–Samuelson teoremnin əhəmiyyəti, o cümlədən, ticarətin sosial qruplar arasında qeyri-bərabərliyə təsirini izah etmək imkanında da özünü göstərir. Məsələn, inkişaf etmiş ölkələrdə ticarətin artması yüksək ixtisaslı işçilərin əmək haqlarının artmasına və aşağı ixtisaslıların maaşlarının azalmasına səbəb olur ki, bu da sosial qeyri-bərabərliyi və təbəqələşməni gücləndirir.

Yüksək ixtisaslıların gəlirləri onların istehsal etdiyi ixrac məhsullarının qiymət artımı ilə yüksəlir, aşağı ixtisaslıların gəlirləri isə aşağı texnologiyalı, idxal olunan məhsulların qiymətinin düşməsi ilə azalır.

Əksinə, zəif inkişaf etmiş ölkələrdə, yəni aşağı ixtisaslı işçi qüvvəsinin artıqlığı olan ölkələrdə vəziyyət fərqlidir. Burada ticarət artdıqda (məsələn, idxal tarifləri azaldıqda), aşağı ixtisaslıların əmək haqları artır, yüksək ixtisaslıların əmək haqları isə azalır. Nəticədə, bu, sosial qeyri-bərabərliyin azalmasına gətirib çıxarır

13) Hekşer Ohlin modelinə əsasən inkişaf etmiş ölkə (ABŞ) narahatdır ki, aşağı maaşlı inkişaf etməkdə olan ölkələrlə ticarətin artması Birləşmiş Ştatlarda aşağı ixtisaslı işçilərə tələbi azalda bilər və ABŞ işçilərinin işsizliyinə və əmək haqqının azalmasına səbəb ola bilər. Bu faktlar iki sual doğurur: Ticarət qabiliyyətsiz işçilərə zərər verirmi? Əgər belədirsə, bu, ticarət maneələrinin artması üçün bir arqumentdirmi?

Stolper–Samuelson teoremi yalnız məhsul qiymətləri ilə faktor qiymətləri arasında əlaqəni deyil, həm də beynəlxalq ticarət nəticəsində gəlirlərin bölgüsünün istiqamətini göstərir. Belə ki, məhsul qiymətinin və onun istehsalında daha intensiv istifadə olunan faktorun qiymətinin artması ticarətdən əldə edilən mənfəətin nisbətən üstün olan faktorların sahiblərinə yönəlməsinə səbəb olur. Nisbətən çatışmazlıqda olan faktorların sahibləri isə zərərə uğrayır.

Bu teorem bir daha təsdiqləyir ki, müqayisəli üstünlük əsasında ixtisaslaşma ticarət edən hər bir ölkəyə əlavə gəlir qazandırır.

Stolper–Samuelson teoremnin əhəmiyyəti, o cümlədən, ticarətin sosial qruplar arasında qeyri-bərabərliyə təsirini izah etmək imkanında da özünü göstərir. Məsələn, inkişaf etmiş ölkələrdə ticarətin artması yüksək ixtisaslı işçilərin əmək haqlarının artmasına və aşağı ixtisaslıların maaşlarının azalmasına səbəb olur ki, bu da sosial qeyri-bərabərliyi və təbəqələşməni gücləndirir.

Yüksək ixtisaslıların gəlirləri onların istehsal etdiyi ixrac məhsullarının qiymət artımı ilə yüksəlir, aşağı ixtisaslıların gəlirləri isə aşağı texnologiyalı, idxal olunan məhsulların qiymətinin düşməsi ilə azalır.

Əksinə, zəif inkişaf etmiş ölkələrdə, yəni aşağı ixtisaslı işçi qüvvəsinin artıqlığı olan ölkələrdə vəziyyət fərqlidir. Burada ticarət artdıqda (məsələn, idxal tarifləri azaldıqda), aşağı ixtisaslıların əmək haqları artır, yüksək ixtisaslıların əmək haqları isə azalır. Nəticədə, bu, sosial qeyri-bərabərliyin azalmasına gətirib çıxarır.

Stolper–Samuelson teorem əsasında aparılan qeyri-bərabərlik analizləri aşağıdakı halları da əhatə edən çoxsaylı genişlənmələrə malikdir:

- Rəqabətsiz idxal malları (yəni ölkədə istehsal olunmayan mallar): Belə malların idxalı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə qeyri-bərabərliyin azaldılmasına səbəb ola bilər, çünki bu mallara daha çox kasıb əhali xərclər edir və onların qiymətinin düşməsi real gəlirləri artırır.
- Kasıb ölkələr digər kasıb ölkələrdən aşağı ixtisaslı işçilər tərəfindən istehsal olunan malları idxal edə bilər. Zəngin ölkələr isə yüksək ixtisaslı işçilər tərəfindən istehsal olunan malları başqa zəngin ölkələrdən idxal edə bilər.
- İki məhsul yox, məhsulların həyat dövru mövcuddur. Bu o deməkdir ki, inkişaf etmiş ölkələrdə aşağı texnologiyalı hesab edilən məhsullar inkişaf etməkdə olan ölkələrdə yüksək texnologiyalı hesab oluna bilər.
- Aralıq idxal malları mövcuddur: bu cür mallar yüksək texnologiyalı məhsulların istehsalında istifadə olunur.

14) Maykl Poznerin “Texnoloji fərqlilik modelini” izah edin.

Poznerin Texnoloji Fərqlər Nəzəriyyəsi (1961)

Beynəlxalq ticarət nəzəriyyələri arasında texnologiyanı istehsal amili kimi qəbul edən yanaşmalar, əsasən, ölkələr arasındakı texnoloji fərqləri ticarətin əsas səbəbi kimi izah edirlər. Əgər klassik və neoklassik modellər (məsələn, Rikardo və Heckscher–Ohlin nəzəriyyələri) texnologiyanı sabit və eyni sayırdısa, Maykl Pozner (1961) göstərdi ki, ticarətin əsl hərəkətverici qüvvəsi texnoloji yeniliklərin yaranması və onların müxtəlif ölkələrdə fərqli sürətlə tətbiq olunmasıdır .

Poznerin yaratdığı Texnoloji Fərq (və ya Texnoloji Boşluq) modelibelə bir məntiqə əsaslanır: yeni texnologiyanı ilk işləyib hazırlayan ölkə həmin texnologiyaya əsaslanan məhsulun istehsalında və ixracında müvəqqəti üstünlüyə və inhisara malik olur. Bu

dövrdə həmin ölkə texnologiyanın müəllifi kimi yeni məhsulu ixrac edir, digər ölkələr isə onu idxal edir. Lakin zaman keçdikcə texnologiya yayılır, digər ölkələr onu mənimsəyir və bu üstünlük tədricən itir.

Poznerə görə, bütün sahələr eyni istehsal faktorlarından istifadə etsə də, innovasiyaların tətbiq sürəti müxtəlifdir. Yeni texnologiya və ya məhsul meydana çıxanda bazarda yeni tələb yaranır. Əgər yerli istehsalçılar bu tələbi tez ödəyə bilsələr, idxala ehtiyac qalmır; lakin xarici istehsalçılar daha çevik olsalar, bu tələbin bir hissəsi idxal hesabına qarşılanır. Beləcə, texnoloji fərqlərdən qaynaqlanan müvəqqəti ticarət axınları formalaşır.


Pozner həmçinin qeyd edirdi ki, innovasiyalar bütün ölkələrdə eyni zamanda və eyni sahələrdə baş vermir. Bəzi ölkələr müəyyən sahələrdə lider olur, digərləri isə başqa sahələrdə. Bu fərqli inkişaf tempi nəticəsində ölkələr arasında davamlı və qarşılıqlı ticarət ehtiyacı yaranır. Məsələn, bir ölkə elektronika sahəsində yeniliklər tətbiq edərkən, digəri kimya və ya maşınqayırma sahəsində irəliləyə bilər — nəticədə hər iki tərəf bir-birinə texnoloji cəhətdən fərqli məhsullar ixrac edir.

Beləliklə, Poznerin nəzəriyyəsi göstərir ki, beynəlxalq ticarətin yaranması yalnız istehsal faktorlarının bolluğu ilə deyil, həm də texnologiyanın inkişaf səviyyəsi və onun yayılma tempi ilə izah oluna bilər. Texnologiyanı ilk mənimsəyən ölkələr müvəqqəti üstünlük əldə edir, lakin texnologiya yayıldıqca bu üstünlük itir və ticarət strukturu yenilənir. Bu proses dünya iqtisadiyyatında dinamik, yeniliklərə əsaslanan ticarət əlaqələrinin yaranmasına səbəb olur.

15) Hekşer-Ohlin və Rikardo modelinin İİƏ -nin müqayisəli təhlilini verin.(qrafik)

David Rikardoya görə, bir ölkənin bəzi məhsulları (malları) digər bir ölkədən daha ucuz istehsal etməsi, həmin ölkənin bu məhsul üzrə mütləq üstünlüyə sahib olması anlamına gəlmir. Onun fikrincə, burada ən əsas göstərici həmin ölkənin o məhsulun istehsalında nə qədər üstünlüyə sahib olmasıdır. Yəni, bir ölkə hər hansı bir məhsulun istehsalında müqayisəli üstünlüyə malikdirsə, həmin məhsulun istehsalı üzrə də ixtisaslaşmalıdır. David Rikardoya görə beynəlxalq ticarətin əsasını məhz müqayisəli üstünlüklər formalaşdırır. Bütün iqtisadiyyatlar məhdud resurslara malik olduqları üçün onların hamısı öz istehsallarında da müəyyən məhdudiyyətlər tətbiq edirlər. Bu cür iqtisadiyyarlarda daima seçimlər mövcuddur və iqtisadiyyat əlavə olaraq daha bir məhsulu istehsal etmək üçün digər bir məhsul növünün istehsalını yox etməlidir. Bu seçimlər aşağıda qrafik olaraq istehsal imkanları həddində (Fiqur 1-də PF xətti ilə) təsvir olunmuşdur. Burada istehsal imkanları həddi müəyyən miqdarda pendirin istehsal olunacağı haqda qərarın qəbulu zamanı istehsal olunmuş şərabın miqdarını göstərir. Və yaxud da əksinə.

Fiqur 1. İqtisadiyyatın istehsal imkanları həddi



HEKŞER- OLİN MODELİNDƏ

Ticarət, əmək məhsuldarlığında olan fərqliliklərlə yanaşı, ölkələr üzrə resurs səviyyəsindəki fərqliliklərdən də meydana çıxa bilər. Heckscher-Ohlin nəzəriyyəsi iddia edir ki, ticarət ölkələr üzrə əmək və ya qabiliyyətli əmək, kapital və sairə resursların həcmlərindəki müxtəlifliklərdən ortaya çıxır. Ölkələrin resurs tutumu fərqlidir və müxtəlif məhsul istehsalında resurslar müxtəlif intensivliklə istifadə olunur.
Modelin fərziyyələri:

1. İki ölkə mövcuddur, şərti olaraq "daxili" və "xarici" adlanır.
2. İki məhsul istehsal edilir, şərti olaraq paltar və ərzaq.
3. İki istehsal faktoru mövcuddur: əmək və kapital.
4. Ölkələr üzrə əmək və kapitalın həcmi sabitdir (dəyişmir) və hər iki ölkədə fərqli həcmlərdədir.
5. Uzun dövrdə həm əmək, həm də kapital sektorlar arasında hərəkət edərək öz gəlirlərini sektorlar üzrə bərabərləşdirir.

Amillər əvəz olunmadığı halda hər iki amilin tamamilə istifadə olunduğu yeganə istehsal nöqtəsi mövcud olur; istehsal imkanları əyrisində yerləşən bütün digər nöqtələrdə bəzi amillər istifadəsiz qalır. *Amillərin əvəzolunmasını nəzərdə tutan daha ümumi halda bu xüsusiyyət yox olur və hər iki amil bütöv istehsal imkanları əyrisi boyunca tam istifadə olunur.

16) NAFTA nəticəsində ABŞ və Kanada Meksika ilə azad ticarətə doğru irəliləyirlər. Stolper-Samuelson teoreminə görə, bu dəyişiklik Meksikada qabiliyyətsiz əməyin real əmək haqqına necə təsir edəcək? Eləcədə ABŞ-da və Kanada? Bu, Meksikada ixtisaslı

işçi qüvvəsinin real əmək haqqına necə təsir edəcək?

Meksika (əmək-bol ölkə): NAFTA ilə azad ticarət nəticəsində Meksika əmək-intensiv malları ixrac edəcək → əmək-intensiv məhsulların nisbətən qiyməti qalxarsa, ölkənin bol faktoru olan qabiliyyətsiz (aşağı ixtisaslı) əmək-ın real əmək haqqı artmalıdır . Eyni zamanda Meksikada nisbətənazlıq olan ixtisaslı əmək-ın real əmək haqqı azalmağa meyllidir.

UNEC_ _1762694744

.

ABŞ və Kanada (nisbətən kapitalla/yuqarı ixtisasla zəngin ölkələr): onlar kapital- və ixtisaslı-əmək-intensiv malları nisbətən ucuzlaşdırıb idxal edəcəklərinə görə, burada qabiliyyətsiz işçilərin real əmək haqqı düşə və ixtisaslı işçilərin real əmək haqqı arta bilər — fayda nisbətən bol olan (məxsus) faktora yönəlir. Mətnin ümumi müzakirəsində beynəlxalq ticarətin daxildə gəlir bölgüsünü dəyişdirməsi və aşağı ixtisaslı işçilərin real məvaciblərinin azalması halları xüsusi qeyd olunur. .

Aydınlaşdırma / məntiq (qısa):

1. Stolper–Samuelson teoremi (Heckscher-Ohlin çərçivəsində) deyir ki, bir ölkə ticarətə açılanda ölkənin nisbi bol faktoru (Meksika üçün işçi/qabiliyyətsiz əmək) qiymətcə nisbətən sərfəli vəziyyətə gəlir → həmin faktora sahib qrupların real gəliri qalxar; nisbi az faktora (Meksikada ixtisaslı əmək) gəlir isə enər.

UNEC_ _1762694744

2. ABŞ/Kanadada isə ticarət Meksikadan ucuz əmək-intensiv malların gəlməsinə gətirib çıxarır və bu, yerli aşağı ixtisaslı işçilərin real əmək haqqına mənfi təsir göstərə bilər; yüksək ixtisaslılar isə nisbi qazanc əldə edə bilər — bu tip təsirlər mətn tərəfindən ticarətin gəlir bölgüsünü dəyişməsi nümunələri ilə təsvir olunub. .

17) Miqyaseffekti nəzəriyyəsini izah edin. Miqyas iqtisadiyyatı dünya ticarət modellərinə necə təsir edə bilər? Xarici və daxili iqtisadiyyatlar arasındakı fərqləri hipotetik nümunə əsasında izah edin.

Miqyas effekti iqtisadiyyatın bir sahəsində istehsalın miqyasının genişlənməsi ilə daha səmərəli olmasını ifadə edir. Əvvəlki müqayisəli üstünlük modelləri istehsalın artımı ilə resurs sərfinin də eyni nisbətdə artacağını fərz edirdi, lakin reallıqda əksər sahələrdə sahəyə daxilolmalar artdıqca istehsal daha sürətlə artır. Misal üçün, 10 vidcet istehsalı üçün 15 əmək-saat tələb olunursa, 25 vidcet istehsalı üçün 30 əmək-saat kifayət edir. Bu halda, hər bir vidcet üçün sərf olunan orta əmək miqdarı azalır və beləliklə, miqyas effekti əmək xərclərini azaldır.

Miqyas effektinin beynəlxalq ticarət üçün əhəmiyyəti ondadır ki, istehsalın bir məkanda toplanması ilə dünya iqtisadiyyatı daha səmərəli fəaliyyət göstərə bilər. Məsələn, ABŞ və Britaniya eyni texnologiya ilə vidcet istehsal edir. Hər iki ölkə ilkin olaraq 10 vidcet istehsal edir və hər biri üçün 15 əmək-saat sərf olunur. Lakin bütün istehsal ABŞ-da toplanarsa, eyni əmək sərfi ilə 25 vidcet istehsal etmək mümkündür. Bu, istehsalın mərkəzləşdirilməsi ilə əmək və resursların daha səmərəli istifadə oluna biləcəyini göstərir.

Miqyas effektindən maksimum faydalanmaq üçün ölkələr müəyyən məhsullar üzrə ixtisaslaşmalıdır. Məsələn, ABŞ məhsul 1, 3, 5 və s., Britaniya isə məhsul 2, 4, 6 və s. istehsal edir.

Beləliklə, hər məhsul daha böyük miqyasda istehsal olunur və dünya iqtisadiyyatı hər əmtəədən daha çox istehsal edə bilir. Eyni zamanda, istehlakçılar hələ də müxtəlif məhsul çeşidlərini əldə edə bilirlər: ABŞ istehlakçıları məhsul 2-ni Britaniyadan idxal edir, Britaniya istehlakçıları isə məhsul 1-i ABŞ-dan alır. Bu yanaşma beynəlxalq ticarətin hər iki ölkə üçün ixtisaslaşmadan və miqyas effektindən faydalanaraq çeşidli istehlakı təmin etməsinə imkan verir..

Miqyas effekti istehsal artdıqca orta istehsal xərclərinin azalmasını göstərir. Bu, istehsalın artması ilə daha səmərəli resurs istifadəsi nəticəsində baş verir. İstehsal artımı həm mövcud firmaların daha çox istehsal etməsi, həm də firmaların sayının artması yolu ilə həyata keçirilə bilər.

Xarici miqyas effekti bir vahidə düşən xərclərin sənayenin ümumi həcminə bağlı olmasıdır. Məsələn, 10 firmadan ibarət sənaye 1000 vidcet istehsal edir, firmaların sayı 20-yə çıxsa, hər bir firma hələ də 100 vidcet istehsal edirsə, sənayənin böyüməsi firmaların xərclərini azalda bilər.

Daxili miqyas effekti isə bir vahidə düşən xərclərin fərdi firmanın böyüklüyündən asılı olmasıdır. Sənaye 1000 vidcet istehsalını saxlayır, lakin firmaların sayı yarıya enərək qalan 5 firma hər biri 200 vidcet istehsal edirsə və xərclər azalırsa, bu daxili miqyas effektini göstərir. Nəticə etibarilə, miqyas effekti ölkələrin ixtisaslaşmasını stimullaşdırır və qarşılıqlı fayda yaradır. Hər bir ölkə bütün məhsulları istehsal etmək əvəzinə yalnız bəzi məhsullara fokuslanır və sonra ticarət vasitəsilə bütün çeşidləri istehlak edir. Eyni zamanda, miqyas effekti bazar strukturuna təsir göstərdiyi üçün mükəmməl rəqabət şəraitindən fərqli yanaşmalar tələb olunur

18) Marşala görə klasterin fərdi bir firmanın təcrid edilməsindən daha səmərəli olmasının səbəblərini göstərin və izah edin.

Artıq qeyd etdiyimiz kimi, bütün miqyas effektləri fərdi firma səviyyəsində baş vermir. Adətən sənaye istehsalını bir və ya bir neçə məhdud məkanda cəmləşdirmək, fərdi firmaların kiçik olmasına baxmayaraq, xərcləri azaldır. Fərdi firma səviyyəsində deyil, sənaye səviyyəsində tətbiq olunan miqyas effekti xarici miqyas effekti adlanır.

Sənaye Klasterləri və Tarixi Kontekst

Xarici miqyas effektinin təhlili bir əsr əvvəl yaşamış britaniyalı iqtisadçı Alfred Marşalin adı ilə bağlıdır. O, sənayenin coğrafi cəhətdən konsentrasiyasını izah edən "sənaye məhəllələri" anlayışını irəli sürmüşdür. Marşal dövründə məşhur nümunələr Şeffilddəki bıçaq istehsalçıları və Nortemptondakı corab istehsalçılarının klasterləri idi. Bu klasterlər göstərirdi ki, sənayenin məkan baxımından konsentrasiyası, fərdi firmaların kiçik olmasına baxmayaraq, ümumi istehsal xərclərini azalda bilər.

Müasir dövrdə xarici miqyas effektinin çoxsaylı nümunələri mövcuddur:

- ABŞ-da Silikon Vadisi yarımkeçiricilər sənayesi
- Nyu-Yorkda investisiya bankçılığı
- Hollivudda əyləncə sənayesi
- Çin şəhərlərində alt paltar, siqaret alışqanı və maqnit lent istehsalı
- Hindistanda Banqalor şəhərində informasiya xidmətləri

Marşal firmaların klasterlərinin niyə ayrı-ayrı firmalardan daha səmərəli olduğunu üç amillə izah edir:

1. İxtisaslaşmış təchizatçıların mövcudluğu
2. Əmək bazarının birləşməsi
3. Biliklərin yayılması

1. İxtisaslaşmış Təchizatçılar

Klaster firmaları bir araya gətirərək ixtisaslaşmış təchizatçıların fəaliyyətini mümkün edir.

Silikon Vadisində yerli ixtisaslaşmış təchizatçılar firmalara avadanlıq və komponentləri ucuz və əlçatan formada təqdim edirdilər.

Bu, firmalara "fabriksizləşmə" imkanı verir: bəzi şirkətlər yalnız çiplərin tərtibinə fokuslanır, istehsal üçün digər firmalardan kirayə götürür.

Klasterlər olmadan belə təchizatçıların mövcudluğu mümkün olmaz və firmalar rəqabət üstünlüyünü itirir.

2. Əmək Bazarının Birləşməsi

Klasterlər yüksək ixtisaslı işçilər üçün birgə əmək bazarı yaradır.

Bu, həm istehsalçıların əmək qıtlığından qorunmasını, həm də işçilərin işsizlik riskinin azalmasını təmin edir.

Məsələn, eyni növ ixtisaslı əməkdən istifadə edən iki firma fərqli şəhərlərdə yerləşsə, tələbdəki dalğalanmalar işsizliyin yaranmasına səbəb ola bilər. Eyni şəhərdə olduqda, bir firmanın aşağı tələbi digər firmanın yüksək tələbi ilə tarazlaşır.

Silikon Vadəsi nümunəsində firmaların bir yerdə olması işçilərin iş yerlərini asanlıqla dəyişməsinə və elastikliyinə imkan verir.

3. Biliklərin Yayılması

Klasterlər texniki biliklərin və innovasiyaların sürətlə yayılmasına şərait yaradır.

Firmaların işçiləri sosial mühitdə və iş sonrası qeyri-rəsmi mübadilə yolu ilə yeni ideyaları paylaşırlar.

Bu proses firmalara rəqiblərinə nisbətən texnoloji üstünlük qazandırır.

Silikon Vadəsi nümunəsində qeyri-rəsmi bilik mübadiləsi, innovasiyaların sürətli tətbiqi və yeni məhsul dizaynları firmalara strateji üstünlük verir.


Nəticə:

Sənaye klasterləri firmalara üç əsas üstünlük verir: ixtisaslaşmış təchizatçıların mövcudluğu, əmək bazarının birləşməsi və biliklərin yayılması. Bu üstünlüklər firmaların xərclərini azaldır, innovasiyaya təşviq edir və rəqabət qabiliyyətini artırır. Müasir misallar göstərir ki, klasterlər xüsusilə yüksək texnologiya və innovasiya sahələrində uğurun əsas amilidir.

19) İki ölkə olduğunu və bu ölkələrin bir məhsul istehsal etdiyini fərz edin: xarici miqtas effektinə görə bu ölkələr arasında ticarət olmadıqda və ticarət baş verərsə məhsul qiymətində və istehsalının həcmində baş verəcək dəyişiklikləri qrafik çəkməklə izah edin.

Bir anlıq təsəvvür edin ki, düymələrin milli sərhədləri aşaraq ticarətin aparılması mümkün olmayan bir dünyada yaşayırıq. Həmçinin, fərz edin ki, həmin bu dünyada sadəcə iki ölkə var: Çin və Birləşmiş Ştatlar. Nəhayət, düymə istehsalının hər bir ölkədə irəliyə doğru enən təklif əyrisinə gətirib çıxaran xarici miqyas effektinə malik olduğunu düşünün. Bu halda dünya düymə sənayesindəki tarazlıq.)

Bu halda dünya düymə sənayesindəki tarazlıq Şəkil 7.2-də göstərilmiş vəziyyətə oxşayacaq.[3] Həm Çində, həm də Birləşmiş Ştatlarda tarazlıq qiyməti və istehsal daxili təklif əyrisi ilə daxili tələb əyrisinin kəsişdiyi nöqtədə olacaq Şəkil 7.2-də göstərildiyi kimi, Çindəki düymə qiymətləri ticarət olmadıqda ABŞ-dakı dünya qiymətlərindən aşağı olacaq.



ŞƏKİL 7.2
Ticarətdən əvvəlki kənar miqyas effekti
Ticarət mövcud olmadıqda, düymənin Çindəki qiyməti $P_{ÇİN}$, Birləşmiş Ştatlardakı qiymətindən $P_{ABŞ}$-dən aşağıdır.

İndi isə düymə sənayesini ticarət potensialı üçün açıq elan etdiyimizi düşünün.

Nə baş verəcək?

Çindəki düymə sənayesinin böyüdüyü, ABŞ-dakı düymə sənayesinin isə kiçildiyini aydın görürük. Bu proses öz-özünü bəsləyəcək: Çindəki sənayenin istehsalı artdıqca onun xərcləri daha da azalacaq; ABŞ-dakı sənayenin istehsalı azaldıqca onun xərcləri artacaq. Sonda biz bütün düymə istehsalının Çində toplanacağını gözləyə bilərik.


20) Xarici miqyas effekti olduqda ölkə ticarətə qoşulmaqdan zərər görə bilərmi? Qrafiklə izah edin.

Xarici miqyas effekti həm ölkələr arasında, həm də ölkə daxilində xeyli ticarət formalaşdırır. Məsələn, əsasən maliyyə firmalarının Manhettandakı konsentrasiyasına gətirib çıxarmış investisiya sənayesindəki xarici miqyas effektinə görə, Nyu-York Birləşmiş Ştatların digər ərazilərinə maliyyə xidmətləri ixrac edir. Eyni qaydada, oxşar xarici miqyas effektinin maliyyə firmalarının Londondakı konsentrasiyasına gətirib çıxarmasına görə, Britaniya Avropanın digər ərazilərinə maliyyə xidmətləri ixrac edir. Bəs bu cür ticarətin tətbiqi nəticələri nələrdir? Biz ilkin olaraq ticarətin istehsal və qiymətlər üzərindəki təsirlərinə; daha sonra ticarətin formasının göstəricilərinə; və son olaraq ticarətin rifah üzərindəki təsirlərinə baxacağıq.

Xarici miqyas effekti, istehsal və qiymətlər

Bir anlıq təsəvvür edin ki, düymələrin milli sərhədləri aşaraq ticarətin aparılması mümkün olmayan bir dünyada yaşayırıq. Həmçinin, fərz edin ki, həmin bu dünyada sadəcə iki ölkə var: Çin və Birləşmiş Ştatlar. Nəhayət, düymə istehsalının hər bir ölkədə irəliyə doğru enən təklif əyrisinə gətirib çıxaran xarici miqyas effektinə malik olduğunu düşünün. Bu halda dünya düymə sənayesindəki tarazlıq.)

Bu halda dünya düymə sənayesindəki tarazlıq Şəkil 7.2-də göstərilmiş vəziyyətə oxşayacaq.[3] Həm Çində, həm də Birləşmiş Ştatlarda tarazlıq qiyməti və istehsal daxili təklif əyrisi ilə daxili tələb əyrisinin kəsişdiyi nöqtədə olacaq Şəkil 7.2-də göstərildiyi kimi, Çindəki düymə qiymətləri ticarət olmadıqda ABŞ-dakı dünya qiymətlərindən aşağı olacaq.



ŞƏKİL 7.2

Ticarətdən əvvəlki kənar miqyas effekti

Ticarət mövcud olmadıqda, düymənin Çindəki qiyməti $P_{ÇİN}$, Birləşmiş Ştatlardakı qiymətindən $P_{ABŞ}$-dən aşağıdır.

İndi isə düymə sənayesini ticarət potensialı üçün açıq elan etdiyimizi düşünün.

Nə baş verəcək?

Çindəki düymə sənayesinin böyüdüyü, ABŞ-dakı düymə sənayesinin isə kiçildiyini aydın görürük. Bu proses öz-özünü bəsləyəcək: Çindəki sənayenin istehsalı artdıqca onun xərcləri daha da azalacaq; ABŞ-dakı sənayenin istehsalı azaldıqca onun xərcləri artacaq. Sonda biz bütün düymə istehsalının Çində toplanacağını gözləyə bilərik.


Bu konsentrasiyanın təsirləri Şəkil 7.3-də təsvir edilmişdir. Ticarətə açılmamışdan əvvəl Çin, sadəcə, öz daxili düymə bazarı üçün istehsal edirdi. Ticarətdən sonra o həm çinli, həm də Birləşmiş Ştatlardakı istehlakçılar üçün, yəni dünya bazarı üçün düymə istehsal edir.

İstehsalın bu konsentrasiyasının qiymətlər üzərindəki təsirlərinə nəzər yetirin. Çinin təklif əyrisi irəli doğru olduğu üçün ticarətin nəticəsi olaraq artan istehsal düymənin qiymətinin ticarətdən əvvəlki qiymətindən də aşağı olmasına gətirib çıxarır. Xatırlayın ki, Çindəki düymə qiymətləri ticarətdən əvvəl də ABŞ-dakı düymə qiymətlərindən daha aşağı idi. Buradan bizə aydın olur ki, ticarət indi düymə qiymətlərinin hər iki üçün ticarətdən əvvəlki qiymətlərdən də aşağı olmasına səbəb olur.

ŞƏKİL 7.3

Ticarət və qiymətlər

Ticarət açıldıqda Çin həm özünün daxili bazarı, həm də ABŞ bazarından ibarət olan dünya bazarı üçün düymə istehsal etməli olur. İstehsal Q_1-dən Q_2-yə artır, bu isə qiymətlərin isə P_1-dən P_2-yə düşməsinə gətirib çıxarır ki, bu da hər iki ölkədə düymənin ticarətdən əvvəlki qiymətindən daha aşağıdır.



Əgər ticarətə açılmamışdan əvvəl geyim "Ev"də daha ucuz, "Xaric"də daha bahalıdırsa, ticarətin təsiri olaraq "Ev"də geyim qiymətləri artacaq, "Xaric"də isə azalacaq. Bizim düymə nümunəmizdə isə, əksinə, ticarətin

nəticəsi qiymətləri hər yerdə azaltmaq olacaq. Bu fərqin səbəbi odur ki, xarici miqyas effekti olduqda beynəlxalq ticarət dünya istehsalının bir məkanda toplanmağını mümkün edir və buna görə də daha güclü xarici miqyas effekti yaratmaqdan fay- dalanaraq xərcləri azaldır.

21) Maykl Porterin rəqabət üstünlüyü nəzəriyyəsi

Rəqabət üstünlükləri məktəbi Maykl Porter tərəfindən inkişaf etdirilmişdir. Porter ölkələrin ticarətini izah etmək üçün nəzəri model yaratmasa da, empirik araşdırmalarla ölkələrin hansı əsasla rəqabət üstünlüyü əldə etdiyini müəyyən etmişdir. Onun yanaşmasına görə, rəqabət üstünlüyü firmaların qlobal bazarda uğur qazanması vasitəsilə formalaşır və ölkələrin müəyyən sahələrdə beynəlxalq səviyyədə üstünlük qazanmasını izah edir.

Porterə görə rəqabət üstünlüyünün əsas determinantları:

1. İstehsal faktorlarının vəziyyəti: Ənənəvi iqtisadi nəzəriyyələrə görə ölkələr sadəcə mövcud resurslara əsaslanır. Lakin Porter göstərir ki, ölkələr iqtisadiyyatın müəyyən sahələrində uğur qazanır ki, orada istehsal faktorlarını yaradır və davamlı təkmilləşdirir. Çətinliklər – məsələn, əmək çatışmazlığı və ya yüksək xammal qiymətləri – firmaları innovasiyaya və modernləşməyə təşviq edir.
2. Tələbin vəziyyəti: Daxili bazarın xüsusiyyətləri firmaları innovativ olmağa sövq edir. Əgər yerli istehlakçılar tələbkar və zövqlüdürsə, firmalar məhsullarını təkmilləşdirməli

olur. Həmçinin, yerli zövqlər beynəlxalq bazarlara yayılırsa, ölkənin firmaları qlobal meyilləri qabaqlaya bilər.

3. Əlaqəli və yardımçı sahələrin vəziyyəti: Rəqabət qabiliyyətinə malik əlaqəli sahələr və təchizatçılar firmalara səmərəli komponent və xidmətlər təmin edir. Bu yaxınlıq həmçinin məlumat və ideya mübadiləsini sürətləndirir, innovasiya prosesini dəstəkləyir.

4. Firma strategiyası, quruluşu və daxili rəqabət: Firmaların idarəetmə üslubu, daxili rəqabət və təşkilati quruluş onların inkişafını müəyyən edir. Sərt daxili rəqabət firmaları innovasiya və məhsuldarlığı artırmağa məcbur edir. Güclü daxili rəqabət olmadan yalnız iri firmaların mövcudluğu bəzən rəqabət üstünlüyü yaratmır.

Dövlətin rolu

Dövlət rəqabət üstünlüyünü birbaşa yaratmır, amma katalizator və təşviqedici rol oynayır. Səmərəli dövlət siyasəti aşağıdakı istiqamətləri əhatə edir:

İxtisaslaşmış istehsal faktorlarının inkişafını təmin etmək: təhsil, infrastruktur, səhiyyə və tədqiqat sahələrinin təşkili.

İstehsal və valyuta bazarlarına müdaxilə etməmək: uzunmüddətli üstünlük yaratmaq üçün bazar mexanizmlərinə mane olmamaq.

Məhsulun keyfiyyəti və standartlarını yüksəltmək: firmaları innovasiya və məhsulun təkmilləşdirilməsinə təşviq etmək.

Nəticə: Porterə görə, rəqabət üstünlüyü miras alınmır, yaradılır. Onun əsas amilləri firmaların daxili inkişafı, innovasiya səyləri və klasterlərdə fəaliyyət göstərməsi ilə bağlıdır. Dövlət isə bu prosesi uyğun mühit yaradaraq dəstəkləyir.

22) Xarici miqyas effekti olduqda bazartarazlığı qrafikini çəkin, tələb və təklif əyrilərinin xüsusiyyətlərini qeyd edin.

Xarici miqyas effekti fərdi firma deyil, sənaye səviyyəsində xərclərin azalmasıdır. Yəni, bir sənaye eyni coğrafiyada toplananda, firmalar xərcləri azaldır və rəqabət üstünlüyü qazanır. Bu konsepsiyanı XIX əsr britaniyalı iqtisadçı Alfred Marşal “sənaye məhəllələri” (industrial districts) ilə izah etmişdir.

Klasterin üstünlükləri:

1. İxtisaslaşmış təchizatçılar: Firmalar ixtisaslaşmış avadanlıq və xidmətlərə asan çıxış əldə edir. Məsələn, Silikon Vadisində yarımkeçirici istehsalçıları diffuziya sobaları və digər avadanlıqları yerli təchizatçılardan alır, istehsal xərclərini azaldır.

2. Əmək bazarının birləşməsi: Eyni ixtisaslı işçilər üçün birgə bazar yaranır. Firmalar işçi çatışmazlığından qurtulur, işçilər isə işsiz qalmır. Silikon Vadisində işçilər bir şirkətdən digərinə asan keçə bilir.

3. Biliklərin yayılması: Şirkət işçiləri sosial və qeyri-rəsmi mühitdə texniki bilikləri paylaşır, innovasiyalar sürətlənir. Marşalın dediyi kimi, “ticarətin sirləri havada dolaşır.”

Müasir nümunələr:

ABŞ: Silikon Vadisi (yarımkeçirici), Nyu-York (maliyyə), Hollivud (kino).

Çin: Müxtəlif şəhərlər spesifik məhsul istehsalına ixtisaslaşıb.

Hindistan: Banqalor – informasiya texnologiyaları klasteri.

Nəticə: Xarici miqyas effekti sənayelərin bir yerdə toplanmasının xərcləri azaltmaq, ixtisaslaşmanı artırmaq və innovasiyaları stimullaşdırmaq baxımından əhəmiyyətini göstərir.

Təcrübədə xarici miqyas effektinin detalları gözə çarpmayan və mürəkkəb olsa da (Silikon nümunəsində də göstərildiyi kimi), detallardan bu məlumatları çıxarıb öyrənmək faydalı olar və xarici miqyas effektini sadəliklə – daha böyük sənayelərdə daha az sənaye xərcləri olduğunu fərz edərək – təqdim etmək olar. Əgər biz bir anlıq beynəlxalq ticarəti nəzərə almasaq, o zaman bazar tarazlığı Şəkil 7.1-dəki vidcetlər üçün olan bazarı göstərən tələb-təklif diaqramı ilə təqdim edilə bilər. Sadə bir bazar tarazlığı şəklində tələb əyrisi aşağıya meyillənir, təklif əyrisi isə yuxarı qalxır. Xarici miqyas effektinin mövcudluğunda isə irəliyə doğru enən təklif əyrisi: yaranır: daha çox sənaye istehsalı olduqca firmaların satmaq istədiyi daha aşağı qiymət formalaşır. Çünki sənayenin istehsalı artdıqca orta istehsal xərci azalır.


Beynəlxalq ticarətin olmadığı halda təklif əyrisinin Şəkil 7.1-dəki qeyri-adi forması çox da önəm daşımır. Ənənəvi tələb-təklif təhlilindəki kimi, tarazlıq qiyməti P_1, və istehsal Q_1, tələb və təklif əyrilərinin kəsişməsi ilə müəyyən edilir.

Daha sonra isə görəcəyik ki, xarici miqyas effekti beynəlxalq ticarətin səbəb və təsirləri barədə fikirlərimizdə xeyli fərqlilik yaradır.

ŞƏKİL 7.1

Kənar miqyas effekti və bazar tarazliği

Kənar miqyas effekti olduqda bir əmtəənin orta istehsal xərci istehsalının miqdarı artdıqca aşağı düşür. Bir çox istehsalçı arasındakı rəqabət olduğunu bilərək, aşağıya doğru enən orta xərc əyrisi AC irəliyə doğru enən təklif əyrisi kimi mənalandırıla bilər. Sadə tələb-təklif təhlilində olduğu kimi, bazar tarazlığı təklif əyrisinin tələb əyrisi olan D ilə kəsişdiyi Nöqtə 1-dədir. İstehsalın tarazlıq həcmi Q_1, tarazlıq qiyməti isə P_1.-dir.



23) Məhsulun həyat dövrünün mərhələlərini izah edin

Məhsulun Həyat Dövrü Nəzəriyyəsi (Raymond Vernon, 1966)

Məhsulun həyat dövrü nəzəriyyəsi beynəlxalq ticarətə dinamik yanaşmanı təklif edir. Bu nəzəriyyəyə görə, texnoloji yeniliklər nəticəsində yaradılan məhsullar müəyyən mərhələlərdən keçir və bu proses beynəlxalq ticarət və istehsal axınlarının istiqamətini müəyyən edir.

İxtiraçı ölkə (adətən texnoloji cəhətdən inkişaf etmiş dövlət) yeni məhsulu istehsal etməyə başlayır və əvvəlcə onu yalnız daxili bazarda satışa çıxarır. Məhsulun istehsalı artdıqca və bazarda tanındıqca xarici ölkələrdə də ona tələbat yaranır, bu zaman ixrac başlanır. Lakin texnologiyanın yayılması nəticəsində digər ölkələr də məhsul istehsalına başlayır və nəticədə ixtiraçı ölkənin üstünlüyü zəifləyir.

Vernon bu prosesi beş mərhələdə izah edir:

1. Yeni məhsul mərhələsi: Məhsul ilk dəfə ixtiraçı ölkədə yaradılır, kiçik miqyasda istehsal olunur və əsasən daxili bazara yönəldilir. Məhsulun dizaynı və funksiyaları bazarın tələblərinə uyğunlaşdırılır.
2. Böyümə mərhələsi: Məhsulun keyfiyyəti və istehsal texnologiyası təkmilləşir, daxili satış artır və ixrac başlanır. Xarici bazarlarda rəqib yoxdur, ixtiraçı ölkə müvəqqəti inhisara malik olur.
3. Yetkinlik mərhələsi: Məhsul artıq standartlaşır, texnologiya sabitləşir. İstehsal xərclərini azaltmaq üçün onun bir hissəsi ucuz əməyə malik ölkələrə köçürülür.
4. Azalma mərhələsi: İmitasiyaçı ölkələr məhsulu daha ucuz istehsal edərək həm daxili, həm də xarici bazarlarda satışa çıxarır, o cümlədən ixtiraçı ölkəyə ixrac edir. İxtiraçı ölkədə istehsal azalır, texnoloji üstünlük yerini qiymət rəqabətinə verir.
5. Daxili istehsalın dayandırılması: İxtiraçı ölkə məhsul istehsalını tamamilə dayandırır və tələbatını idxal hesabına ödəyir. Bunun əvəzində o, yeni məhsulların yaradılmasına yönəlir.

Beləliklə, bu nəzəriyyə göstərir ki, beynəlxalq ticarətdə üstünlüyün əsas mənbəyi yalnız resurslarla deyil, texnoloji yeniliklərlə də bağlıdır. İxtiraçı ölkələr yeni məhsulların yaradılması ilə dinamik müqayisəli üstünlük əldə edir, imitasiyaçı ölkələr isə standartlaşmış məhsulların ucuz istehsalı ilə bazarda pay qazanır.

XX əsrin ikinci yarısında elmi-texniki tərəqqi bu modeli bir çox hallarda təsdiqləmişdir. Texnologiyanın mərhələli şəkildə yayılması ixtiraçı ölkəyə daha uzunmüddətli mənfəət qazandırır, lakin qısaömürlü məhsullar üçün texnologiyanın eyni zamanda həm daxildə, həm də xaricdə tətbiqi daha yüksək gəlir əldə etməyə imkan verir.

24) Ticarət siyasətinin növləri: liberal və proteksionist ticarət siyasətlərini fərqləndirin

Xarici ticarət siyasəti dedikdə dövlətin müxtəlif vasitələrdən istifadə etməklə digər ölkələrlə ticarət münasibətlərinə məqsədyönlü təsiri başa düşülür.

Xarici ticarət siyasəti dövlətin ümumi iqtisadi siyasətinin vacib tərkib hissəsidir.

Təsərrüfatın inkişafının daxili aspektləri ilə sıx əlaqədə olduğundan xarici ticarət siyasətinin əsas vəzifəsi ölkənin daxili istehsalının genişləndirilməsi və milli sərvətin artırılması üçün əlverişli

xarici iqtisadi şəraitin formalaşdırılmasıdır.

Xarici ticarət siyasətinin əsas məqsədləri

- Xarici rəqabətdən müdafiə;
- İqtisadi artımın təmin edilməsi;
- Bazar çatışmazlıqlarının aradan qaldırılması;
- Daxili iqtisadi sabitliyin təmin edilməsi;
- Dövlət büdcəsinin gəlirlə təmin edilməsi;
- Xarici bazarlarda inhisar mövqeyinin təmin edilməsi;
- Ətraf mühitin qorunması, ölkə əhalisinin sağlamlığının və ümumilikdə genefondun müdafiəsi;
- Xarici siyasət məqsədləri və s.

Ölkənin xarici ticarətə müdaxilə etməsinin həcmindən asılı olaraq xarici ticarət siyasəti bölünür:

Azad ticarət siyasəti –dövlət xarici ticarətə minimum müdaxilə siyasəti yeridir və bu zaman xarici ticarət azad bazar qüvvələri, tələb və təklif əsasında inkişaf edir.

Proteksionist ticarət siyasəti – ticarət siyasətinin tarif və qeyri-tarif vasitələrindən istifadə etməklə daxili bazarın xarici rəqabətdən müdafiəsi siyasətidir.

Azad ticarət beynəlxalq əmək bölgüsünündən əldə edilən faydanın maksimumuma çatdırılmasını təmin edir. Belə ki, bazar mexanizminin sərbəst şəkildə fəaliyyəti optimal resurs bölgüsünü təmin edir və dünya istehsalını maksimumlaşdırmaqla bütün ölkələrin bundan faydalanmasına imkan verir. Proteksionizm rəqabəti məhdudlaşdırmaqla və istehsalda ayrı-seçkilik tətbiq etməklə resursların səmərəli bölgüsünü pozur, sahibkarların işgüzar aktivliyini azaldır.

Proteksionizm inhisara yol açır, iri firmalar kiçik təsərrüfat subyektlərini bazardan sıxışdırıb çıxararaq və ya özlərinə birləşdirərək inhisar mövqeyi əldə edirlər.

Azad ticarət isə yuxarıdakılara yol verməməklə yanaşı, bazar mexanizminin fəaliyyətinə əsaslandığı üçün bürokratik əngəlləri də minimuma endirir.

Proteksionizm milli təhlükəsizlik, iqtisadi artım, strateji ticarət siyasətlərinin həyata keçirilməsi, dempinqin ödənilməsi üçün zəruridir.

Proteksionizm ölkədə məşğullun səviyyəsinin yüksəldilməsi, ticarət şəraitinin yaxşılaşdırılması və xarici bazarda rəqabət qabiliyyətinin artmasına səbəb olur.

Proteksionizmin formaları

- Selektiv proteksionizm – bu zaman siyasət ayrı-ayrı ölkə və ya əmtəələrə qarşı yönəldilir;
- Sahəvi proteksionizm – bu zaman müəyyən sahələr, ilk növbədə də aqrar proteksionizm çərçivəsində kənd təsərrüfatı müdafiə edilir;

Kollektiv proteksionizm – ölkələr birliyi tərəfindən bu birliyə daxil olmayan digər ölkələrə qarşı həyata keçirilən siyasət başa düşülür;

Gizli proteksionizm – daxili iqtisadi siyasətin metodları ilə həyata keçirilən siyasət nəzərdə tutulur.

25) Xarici ticarət siyasətinin mahiyyəti, məqsədləri və əsas formaları barədə yazın

Xarici ticarət siyasəti dedikdə dövlətin müxtəlif vasitələrdən istifadə etməklə digər ölkələrlə ticarət münasibətlərinə məqsədyönlü təsiri başa düşülür.

Xarici ticarət siyasəti dövlətin ümumi iqtisadi siyasətinin vacib tərkib hissəsidir.

Təsərrüfatın inkişafının daxili aspektləri ilə sıx əlaqədə olduğundan xarici ticarət siyasətinin əsas vəzifəsi ölkənin daxili istehsalının genişləndirilməsi və milli sərvətin artırılması üçün əlverişli xarici iqtisadi şəraitin formalaşdırılmasıdır.

Xarici ticarət siyasətinin əsas məqsədləri

Xarici rəqabətdən müdafiə;

İqtisadi artımın təmin edilməsi;

Bazar çatışmazlıqlarının aradan qaldırılması;

Daxili iqtisadi sabitliyin təmin edilməsi;

Dövlət büdcəsinin gəlirlə təmin edilməsi;

Xarici bazarlarda inhisar mövqeyinin təmin edilməsi;

Ətraf mühitin qorunması, ölkə əhalisinin sağlamlığının və ümumilikdə genefondun müdafiəsi;

Xarici siyasət məqsədləri və s.

Ölkənin xarici ticarətə müdaxilə etməsinin həcmindən asılı olaraq xarici ticarət siyasəti bölünür:

Azad ticarət siyasəti –dövlət xarici ticarətə minimum müdaxilə siyasəti yeridir və bu zaman xarici ticarət azad bazar qüvvələri, tələb və təklif əsasında inkişaf edir.

Proteksionist ticarət siyasəti – ticarət siyasətinin tarif və qeyri-tarif vasitələrindən istifadə etməklə daxili bazarın xarici rəqabətdən müdafiəsi siyasətidir.

Azad ticarət beynəlxalq əmək bölgüsünündən əldə edilən faydanın maksimumuma çatdırılmasını təmin edir. Belə ki, bazar mexanizminin sərbəst şəkildə fəaliyyəti optimal resurs bölgüsünü təmin edir və dünya istehsalını maksimumlaşdırmaqla bütün ölkələrin bundan faydalanmasına imkan verir. Proteksionizm rəqabəti məhdudlaşdırmaqla və istehsalda ayrı-seçkilik tətbiq etməklə resursların səmərəli bölgüsünü pozur, sahibkarların işgüzar aktivliyini azaldır.

Proteksionizm inhisara yol açır, iri firmalar kiçik təsərrüfat subyektlərini bazardan sıxışdırıb çıxararaq və ya özlərinə birləşdirərək inhisar mövqeyi əldə edirlər.

Azad ticarət isə yuxarıdakılara yol verməməklə yanaşı, bazar mexanizminin fəaliyyətinə

əsaslandığı üçün bürokratik əngəlləri də minimuma endirir.

Proteksionizm milli təhlükəsizlik, iqtisadi artım, strateji ticarət siyasətlərinin həyata keçirilməsi, dempinqin ödənilməsi üçün zəruridir.

Proteksionizm ölkədə məşğullun səviyyəsinin yüksəldilməsi, ticarət şəraitinin yaxşılaşdırılması və xarici bazarda rəqabət qabiliyyətinin artmasına səbəb olur.

Xarici ticarət siyasətinin tarif vasitələri

Gömrük tarifi:

Ticarət siyasətinin və dünya bazarı ilə qarşılıqlı fəaliyyətdə olan daxili bazarın dövlət tənzimlənməsinin alətidir;

Gömrük sərhəddindən keçirilən əmtəələrə tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilən gömrük rüsumları dərəcəsinin məcmusudur;

Müəyyən bir əmtəənin ölkənin gömrük ərazisindən çıxarılması və ya bu əraziyə gətirilməsi zamanı ödənilən gömrük rüsumunun konkret dərəcəsidir. Bu halda gömrük tarifi anlayışı gömrük rüsumu anlayışı ilə tam üst-üstə düşür.

Gömrük rüsumu gömrük orqanları tərəfindən əmtəənin idxalı və ixracı zamanı tutulan məcburi ödəmədir.

Gömrük rüsumu üç əsas funksiyanı yerinə yetirir:

Fiskal funksiya – bu funksiya həm idxal, həm də ixrac rüsumlarına aiddir, çünki onlar dövlət büdcəsinin gəlir maddələri kimi çıxış edir;

Proteksionist funksiya – idxal rüsumlarına aiddir, çünki onların köməyi ilə dövlət yerli istehsalçıları arzuolunmaz xarici rəqabətdən qoruyur;

Balanslaşdırma funksiyası – ixrac rüsumlarına aiddir, çünki onların köməyilə daxili qiymətləri bu və ya digər səbəbdən dünya qiymətlərindən aşağı olan əmtəələrin ixracının qarşısı alınır

26) Tarifin rifaha təsirləri: istehlak artıqlığı və istehsalçının artıqlığı. Qrafiklərlə cavab verməyə kömək edin


Əmtəə göndərən şəxsin nöqteyi-nəzərindən tarif, sadəcə, daşınma xərci kimidir. “Ev” idxal olunan buğdanın hər buşelinə 2 dollar vergi tətbiq etsə, yükgöndərənlər, iki bazardakı qiymətlər arasında ən azı 2 dollar fərqi olmadığı halda, buğda satmaqda maraqlı olmayacaqlar.

Şəkil 9.4 bir buğda vahidinə müəyyən t tarifinin (qrafikdəki t kimi təqdim olu- nur) təsirlərini təsvir edir. Dünya bazarını təsvir edən orta paneldəki 1 nöqtəsinin göstərdiyi kimi, tarif olmadıqda, buğdanın qiyməti həm “Ev”, həm də “Xaric”də P_W səviyyəsində tarazlaşacaq. Tarif tətbiq olunduqda isə “Ev”dəki qiymət “Xaric”dəkini ən azı t fərqi ilə üstələməsə, daşıyıcılar

buğdanı “Ev”dən “Xaric”ə aparmaq niyyətində deyillər. Buğda ixracı mövcud olmayanda isə “Ev”də buğdaya artıq tələb, “Xaric”də isə onun artıq təklifi yaranacaq. Deməli, “Ev”dəki qiymət fərqi t təşkil edənə qədər “Ev”dəki qiymət artacaq, “Xaric”dəki isə, əksinə, düşəcək. Beləliklə, tarifin tətbiqi iki bazardakı qiymətlər arasında fərqin yaranmasına səbəb olur. Tarif “Ev”dəki qiyməti P_T-dək artırır, “Xaric”dəki qiyməti isə $P_T^* = P_T -$ t.-dək endirir. “Ev”də istehsalçılar daha çox təklif etməyə başlayırlar, istehlakçıların tələbi isə azalır və nəticədə idxala tələb də azalır (bunu MD əyrisi üstündəki 1 nöqtəsindən 2 nöqtəsinədək dəyişmədə izləyə bilərsiniz). “Xaric”də enən qiymətlər azalan təklif və qalxan tələb və beləliklə daha aşağı ixrac təklifi deməkdir (XS əyrisinin üstündəki 1 nöqtəsindən 3 nöqtəsinədək dəyişmənin göstərdiyi kimi). Beləliklə, beynəlxalq ticarətə çıxarılan buğdanın həcmi azad ticarət səviyyəsindən Q_W, tarifdən sonrakı səviyyəyəcən Q_T, düşür. Ticarətin səviyyəsi Q_T, olduqda “Ev”də idxala tələbi və “Xaric”in ixrac təklifi bərabərləşərək $P_T - P_T^* = t$ təşkil edir.

“Ev”dəki qiymətin P_W-dən P_T,-dək artımı tarifin həcmindən aşağı olur, çünki tarif xərci qismən “Ev”in ixrac qiymətinin azalmasında əks olunur və “Ev” istehlakçılarına ötürülmür. Bu, tarif və idxalı məhdudlaşdıran istənilən siyasətin gözlənilən nəticəsidir. Buna baxmayaraq, ixrac qiymətinə bu effektin miqyası çox vaxt az olur.

Fiqur 4. Tarifin təsirləri



27) Kiçik ölkədə tarifin tətbiqinin nəticəsini qrafik vasitəsilə izah edin. Ölkə iqtisadiyyatının qazancının nə olduğunu göstərin.

Kiçik bir ölkə tarif tətbiq etdikdə onun idxal etdiyi müvafiq əmtəələrin dünya bazarındakı payı elə əvvəldən cüzi olur və buna görə idxalın azalması dünya (xarici ixrac) qiymətinə çox zəif təsir göstərir.

Dünya ixrac qiymətlərinə təsir edə bilməyən “kiçik ölkə”də tarifin effektləri Şəkil 9.5-də təsvir olunur. Bu keysdə tarif tətbiq edildiyi ölkədə idxal olunan əmtəənin qiymətini tarifin tam dəyəri həcmində qaldırır P_W-dən P_W + t.-dək. İdxal olunan əmtəənin istehsalı S^1-dən S^2,- dək artır, onun istehlakı isə D^1-dən D^2.- dək düşür. Nəticədə tarif tətbiq edən ölkənin idxalının həcmi azalır.

Proteksionizm dərəcəsinin ölçülməsi

İdxal olunan əmtəəyə tarifin tətbiqi həmin əmtəənin yerli istehsalçılarının qoyduğu qiyməti

qaldırır. Bu nəticə, adətən, yerli istehsalçıları idxal ilə rəqabətin nəticəsi olan aşağı qiymətlərdən mühafizə etməyə çalışan tarifin əsas məqsədi olur. Real ticarət siyasətini araşdırarkən tarifin və ya digər ticarət siyasətinin, əslində, nə qədər mühafizə təmin etdiyini araşdırmaq vacibdir. Bu suala cavab zatən ticarət azad olduqda onun əmtəə qiymətindəki payı kimi ifadə olunur. Məsələn, şəkərin idxalına tətbiq olunan kvota ABŞ şəkər istehsalçılarının qoya bildiyi qiyməti 35 faiz qaldıra bilər.

Tarifin təmin etdiyi mühafizənin ölçülməsi asan görünə bilər: əgər tarif idxalın dəyərinə proporsional olan ad valorem vergidirsə, onun dərəcəsinin özü mühafizənin miqyasını göstərmiş olur; tarif xüsusi olduqda isə onun ad valorem ifadəsini tapmaq üçün, sadəcə, dərəcəni xalis tarifsiz qiymətə bölmək lazımdır.

Buna baxmayaraq, mühafizə miqyasının bu qədər asan hesablanması iki problemlə üzləşir. Birincisi, kiçik ölkə fərziyyəsi dəqiq təxmin deyilsə, onda tarifin effekti özünü qismən olaraq daxili qiymətin artımında yox, xarici idxal qiymətinin azalmasında büruzə verəcək. Ticarət siyasətinin xarici ixrac qiymətlərinə bu cür təsiri bəzən əhəmiyyətli olur.


İkinci problem tarifin əmtəə istehsalının müxtəlif mərhələlərində çox fərqli effektlərinə malik ola bilməsidir. Bu fikri sadə bir nümunə təsvir edir.

Fərz edək ki, avtomobilin dünya bazarındakı qiyməti $8 min, onun istehsalında istifadə olunmuş detalların ümumi qiyməti isə $6 min təşkil edir. Gəlin iki ölkəni müqayisə edək: biri avtomobil quraşdırma sənayesini inkişaf etdirmək istəyir, digəri isə artıq ona yiyələnmiş və indi detalların istehsalını qurmağı planlaşdırır.

Yerli avtomobil sənayesinə təkan vermək üçün birinci ölkə idxal olunan avtomobillərə 25 faizlik tarif tətbiq edərək yerli şirkətlərə $8 minin əvəzinə $10 min qiymətini qoymağa imkan verir. Tarifin tətbiqindən əvvəl yerli quraşdırma sənayesi ancaq $2 mindən baha başa gəlmədiyi halda yarana bilərdi (hazır avtomobil və detalların qiymətləri arasındakı fərq). Başqa sözlə, 25 faizlik tarif dərəcəsi quraşdırma sənayesindəki şirkətləri 100 faizlik effektiv mühafizə dərəcəsi ilə təmin edir.

İndi isə fərz edək ki, ikinci ölkə detalların yerli istehsalını təşviq etmək məqsədilə idxal olunan detallara 10 faizlik tarif tətbiq edir və yerli quraşdırma sənayesinin qarşılaşdığı detal qiymətini $6000-dən $6600-dək qaldırır. Hazır avtomobillərə tarifin dəyişməməsinə baxmayaraq, bu siyasət yerli avtomo- bil quraşdırmasının əlverişliliyini azaldır. Tarifdən əvvəl yerli quraşdırma xərci$2,000 ($8,000 - $6,000); qədər olduqda, gəlirli olsa da, onun tətbiqindən sonra bu x ərc $1,400 ($8,000 - $6,600). Beləliklə, detallara tətbiq olunan tarif detal istehsalçılarına mühafizə verərək quraşdırma şirkətlərinə -30 faiz təşkil edən effektiv mühafizə dərəcəsinə malikdir. (-600/2,000).

Fiqur 5. Kiçik ölkələrdə Tarifin təsirləri



28.) Bir məhsulun idxalına qoyulan rüsum istənilən ölkənin ümumi iqtisadi rifahına zərbə vurur". Siz bununla razısınızmı? Qrafiklərlə cavab verməyə kömək edin.

İki ölkə – "Ev" və "Xaric" – buğda istehsal və istehlak edir, buğda isə xərcsiz daşına bilir. Hər iki ölkədə buğda bazarı rəqabətlidir və qiymətlər müvafiq ölkələrin valyutasında müəyyən olunur. Ticarət olmadığı halda "Ev"də buğdanın qiyməti "Xaric"dəkindən yüksəkdirsə, ticarət başlayanda buğda "Xaric"dən "Ev"ə axacaq.

Bu proses "Ev"də qiymətləri azaldacaq, "Xaric"də isə yüksəldəcək və nəticədə iki ölkədə qiymətlər bərabərləşəcək. Dünya qiymətinin və ixrac həcminin müəyyənləşməsi üçün "Ev"in idxal tələbi və "Xaric"in ixrac təklifi əyrilərindən istifadə olunur. "Ev"in idxal tələbi daxili tələbin daxili təklifi aşan hissəsinə, "Xaric"in ixrac təklifi isə oradakı təklifin daxili tələbi üstələyən hissəsinə bərabərdir.

Şəkil 9.1 "Ev"in idxal tələb əyrisinin necə törəndiyini göstərir. P^1, qiymətində "Ev"in istehlakçıları D^1, həcmini tələb edir, istehsalçıları isə onları ancaq S^1. həcmi ilə təmin edir. Nəticədə "Ev"də idxala tələb D^1 - S^1.-ə bərabərdir. Qiyməti P^2, -dək qaldırsaq, "Ev" istehlakçıları ancaq D^2, tələb edir, istehsalçıları isə təklifi


S^2,- dək qaldırır, beləliklə, idxala tələb D^2 - S^2-dək azalır. Sözügedən qiymət- kəmiyyət kombinasiyaları Şəkil 9.1-dəki sağ paneldə nöqtə 1 və nöqtə 2 kimi göstərilib. Qiymət qalxdıqca idxala tələb azaldığına görə idxal tələb əyrisi MD- nin meyilliyi aşağıya istiqamətlənib. Ticarət olmadıqda "Ev"in təklif və tələbi eynidir, ona görə "Ev"in idxal tələb əyrisi qiymət oxu ilə P_A, nöqtəsində kəsişir P_A (idxala tələb = 0).

Şəkil 9.2 "Xaric"in ixrac təklif əyrisinin XS necə törədildiyini təsvir edir. P^1 nöqtəsində "Xaric" istehsalçıları S^{*1}, kəmiyyətini təklif edir, "Xaric" istehlakçılarının tələbi isə cəmi D^{*1},- ə bərabərdir və beləliklə, ixrac oluna bilən təklifin cəmi S*1 - D*1. təşkil edir. P^2 nöqtəsində "Xaric" istehsalçıları təklifini S*2-dək çatdırır, istehlakçılarının tələbi isə D^{*2},- dək düşür və ixrac oluna

bilən təklifin həcmi S*2 - D*2.-ə qədər çoxalır. İxrac oluna bilən əmtəələrin həcmi qiymət qalxdıqca artdığı

səbəbindən "Xaric"in ixrac təklif əyrisinin meyilliyi yuxarıya istiqamətlənib P_A*, nöqtəsində, ticarət olmadığı halda, təklif ilə tələb bərabər olacaq, beləliklə, "Xaric"in ixrac təklif əyrisi qiymət oxu ilə P_A(P_A nöqtəsində ixrac təklifi sıfıra


bərabərdir).



ŞƏKIL 9.1

"Ev"in İdxal tələb əyrisinin törədilməsi

Əmtəənin qiyməti qalxdıqca "Ev"in istehlakçılarının tələbi düşür, istehsalçılarının təklifi isə artır və beləliklə, idxala tələb azalır.




ŞƏKIL 9.2

"Xaric"in ixrac təklifi əyrisinin törədilməsi

Əmtəənin qiyməti qalxdıqca "Xaric"in istehsalçıları daha çox təklif edir, yerli tələb isə azalır və beləliklə, ixrac oluna bilən təklif artır.

29) İxrac subsidiyalarının təsirlərini qrafik vasitəsilə göstərin və izahını verin. Bu zaman kimlər qazanır, kimlər uduzur?

İxrac subsidiyası əmtəəni xarici ölkəyə satışa çıxaran şirkət və ya şəxsə olan ödənişdir. Tarif kimi, ixrac subsidiyası da ya xüsusi (bir vahid üzrə müəyyən məbləğ), ya da ad valorem (ixrac olunan əmtəələrin dəyərinə nisbətən) ola bilər. Dövlət ixrac subsidiyasını təklif etdikdə ixracatçılar daxili qiymətin xaricdəkini üstələdiyi məbləğin subsidiya həcmini ötməyənə qədər əmtəəni ixrac etməyə davam edəcəklər. İxrac subsidiyasının qiymətlərə təsirləri tarifinkilərin tam əksidir (Şəkil 9.11). İxrac edən ölkədə qiymət PW-dən PS,-dək artır, lakin idxal edən ölkədə PW-dən P*S , -dək düşdüyünə görə qiymət artımı subsidiya həcmindən azdır. İxrac edən ölkədə istehlakçılar zərər çəkir, istehsalçılar qazanır, hökumət isə subsidiyaya vəsait ayırmalı olduğundan itkilərə məruz qalır. İstehlakçıların itkisi a + b; sahəsini, istehsalçıların qazancı a + b + c; sahəsini, dövlətin subsidiya xərci (subsidiya həcminin ixrac həcminə hasilinin nəticəsi) isə b + c + d + e + f + g. sahəsini təşkil edir. Beləliklə, xalis rifah itkisi b + d + e + f + g. sahəsinə bərabərdir. Bun- lardan b və d tarifin səbəb olduğu istehlak və istehsal təhrifi xərclərini əks etdirir.Bundan əlavə, tarifdən fərqli olaraq ixrac subsidiyası ixracın xarici bazardakı qiymətini PW -dən P*S .-dək endirməsi ucbatından ticarət şərtlərini pisləşdirir. Bu, ticarət şərtlərindən əlavə e + f + g, itkisinə gətirib çıxarır (sonuncusu sub- sidiya ilə ixrac olunan əmtəənin kəmiyyətinin PW - P*S -ə vurulmasının nəticəsinə bərabərdir). Beləliklə, ixrac subsidiyalarının xərcləri faydalarını birmənalı olaraq üstələyir.



30) Dempinq və onun formaları, antidempinq rüsumlarının rolu və mahiyyəti barədə yazın

Dempinq — xarici bazara çıxış əldə etmək, rəqabət şəraitində üstünlük qazanmaq və rəqibləri bazardan sıxışdırmaq məqsədilə məhsulun ixrac qiymətinin daxili bazar qiymətindən və ya hətta istehsal xərclərindən aşağı müəyyən edilməsi ilə xarakterizə olunan qeyri-tarif ticarət siyasəti üsuludur. Bu üsul şirkətlərin öz vəsaiti hesabına və ya hökumətin verdiyi subsidiyalar vasitəsilə həyata keçirilə bilər. Əsas məqsəd — xarici bazarda pay qazanmaq və uzunmüddətli dövrdə rəqibləri sıradan çıxararaq monopol mövqe əldə etməkdir.

Dempinqin formaları

1. Epizodik (sporadik) dempinq – daxili bazarda artıq məhsulun toplanması zamanı həmin məhsulların xarici bazarda aşağı qiymətlərlə satılmasıdır. Bu, daxili bazarın tutumunun məhdud, istehsal gücünün isə yüksək olduğu hallarda baş verir.
2. Qəsdən (predatory) dempinq – rəqibləri bazardan çıxarmaq və sonradan monopoliya qiymətləri tətbiq etmək məqsədilə ixrac qiymətlərinin qəsdən və qısa müddətə aşağı salınmasıdır. Bu zaman məhsul daxildəki qiymətdən, hətta istehsal xərclərindən belə aşağı qiymətlə satıla bilər.
3. Daimi (persistent) dempinq – məhsulun uzun müddət ərzində ədalətli qiymətdən aşağı qiymətlə ixrac olunmasıdır.
4. Əks (reverse) dempinq – məhsulun ixrac qiymətinin daxili bazardakı qiymətdən yüksək olmasıdır. Bu, nadir hallarda baş verir və adətən valyuta məzənnələrinin dəyişməsi ilə əlaqədar olur.
5. Qarşılıqlı (reciprocal) dempinq – iki ölkənin bir-birinə eyni məhsulu aşağı qiymətlərlə satması halıdır. Bu da əsasən hər iki ölkənin bazarının monopoliyalaşdığı şəraitdə baş verir.

Dempinqin iqtisadi əsasları

Dempinqin tətbiqinin əsasında daxili və xarici bazarlarda tələbin qiymət elastikliyinin fərqli olması dayanır. Daxili bazarda məhsulun qiymətinə tələbin həssaslığı az olduğu üçün şirkət məhsulu daha baha sata bilir. Xarici bazarda isə rəqabət daha güclü, tələbin qiymət elastikliyi isə yüksəkdir. Bu səbəbdən məhsul orada daha ucuz satılmaqla bazara daxil olmaq və satış həcmini artırmaq mümkündür.

Dempinqin tətbiq şərtləri

1. Müxtəlif ölkələrdə eyni məhsula olan tələbin qiymət elastikliyinin fərqli olması (daxildə az, xaricdə çox);
2. Qeyri-kamil rəqabət şəraitinin mövcudluğu — yəni istehsalçının qiymətləri müəyyən dərəcədə diktə edə bilməsi;
3. Bazarların seqmentləşdirilməsi — istehsalçının məhsulu daxildə yüksək, xaricdə isə aşağı qiymətə sata bilməsinə imkan verən baryerlərin mövcudluğu. Bu baryerlər nəqliyyat xərcləri, gömrük qaydaları və dövlət tənzimləmələri ola bilər.

Anti-dempinq tədbirləri

Dempinq ÜTT-nin (Ümumdünya Ticarət Təşkilatının) qaydalarına və bir çox ölkələrin milli qanunvericiliyinə görə qadağandır. Əgər dempinq faktı sübut olunarsa, dövlətlər anti-dempinq rüsumu tətbiq edə bilər.

Anti-dempinq rüsumu – dempinq nəticəsində formalaşmış qeyri-ədalətli qiymət rəqabətinin mənfi təsirlərini aradan qaldırmaq məqsədilə tətbiq edilən müvəqqəti rüsumdur. Onun dərəcəsi adətən daxili bazardakı satış qiyməti ilə ixrac qiyməti arasındakı fərq qədər olur.

Rüsumun hesablanma üsulları

İxracatçı və idxalçı bazarlardakı satış qiymətləri arasındakı fərq əsasında;


Əgər məhsul ixracatçı ölkənin bazarında satılmırsa, onun qiyməti üçüncü ölkənin bazar qiyməti ilə müqayisə edilir;

Və ya istehsal xərcləri, ümumi xərclər, mənfəət marjası və nəqliyyat xərcləri nəzərə alınaraq məhsulun potensial daxili satış qiyməti hesablanır və bu qiymət idxal bazarındakı satış qiyməti ilə müqayisə olunur.

Məsələn, ABŞ qanunvericiliyinə əsasən, dempinq — məhsulun "ədalətli qiymətdən aşağı" satışıdır və bu, milli sənayeyə zərər vurduqda anti-dempinq tədbirləri görülür. Lakin "ədalətli qiymətin" müəyyənləşdirilməsi çox vaxt çətinlik yaradır. Buna görə xüsusi araşdırmalar aparılır və məhsulun istehsal xərcləri, əvvəlki dövrlərdəki satış qiymətləri və bazar tendensiyaları nəzərə alınır.

Nəticə etibarilə, dempinq qısamüddətli dövrdə istehlakçılara ucuz məhsul təmin etsə də, uzunmüddətli dövrdə rəqiblərin sıradan çıxmasına, bazarın monopoliyalaşmasına və qiymətlərin süni şəkildə artmasına gətirib çıxarır. Buna görə də anti-dempinq rüsumları beynəlxalq ticarətdə ədalətli rəqabətin qorunması üçün əsas vasitələrdən biri sayılır.

31. Avropanın Ümumi Kənd TəsərrüfatıSiyasəti(CAP)-nin ixrac subsidiyası proqramına çevrilmə prosesini izah edin.Cavabınızı qrafiklə dəstəkləyin.



1957-ci ildə altı Qərbi Avropa ölkəsi – Almaniya, Fransa, İtaliya, Belçika və Lüksemburq – Avropa İqtisadi Məkanını yaradaraq tədricən Avropa İttifaqını formalaşdırdı. Aİ-nin ticarət siyasətində iki əsas tədbir olmuşdur: üzv ölkələr arasında tariflərin ləğvi (gömrük ittifaqı) və kənd təsərrüfatı sahəsində subsidiyalar proqramı. CAP kənd təsərrüfatı məhsullarının qiymətlərini müəyyən dəstəklənmiş səviyyədə saxlayaraq fermerlər üçün yüksək gəlir zəmanəti yaratmışdır. Lakin bu yüksək qiymətlər nəticəsində Avropada istehlakçılarının tələbindən artıq istehsal yaranmış və böyük həcmdə məhsul ehtiyatı yığılmalı olmuşdur. Məsələn, 1985-ci ilin sonuna qədər 780 min ton mal əti, 1,2 milyon ton kərə yağı və 12 milyon ton buğda ehtiyatı toplanmışdır.

Artıq istehsal olunan məhsulların satışını təmin etmək üçün Avropa İttifaqı ixrac subsidiyaları

tətbiq etmişdir. Bu subsidiyalar Avropa və dünya qiymətləri arasındakı fərqi ödəyərək ixracatı stimullaşdırır. Lakin subsidiyalar dünya bazarında qiymətləri aşağı salır və beləliklə, tələb olunan subsidiyanın məbləğini artırır. Tədqiqatlar göstərir ki, subsidiyalar Avropa istehlakçılarına vergi və məhsul qiyməti baxımından fermerlərin qazancından daha böyük zərər gətirir.

CAP-ın xərcləri Avropa vergi ödəyiciləri və istehlakçılar üçün əhəmiyyətli olmuşdur; 2013-cü ildə proqramın büdcəsi 65 milyard dollar təşkil etmişdir. Fermerlərin Aİ-dəki siyasi gücü böyük olduğundan CAP-ın dəyişdirilməsi və islahat cəhdləri çətinliklərlə üzləşir. Son illərdə aparılan islahatlar isə fermerlərə birbaşa ödənişlər verməklə qiymət dəstəyindən doğan stimulları azaltmaq və istehsal həcmində tarazlığı təmin etmək məqsədini güdür. Bu yolla fermerlər istehsal miqdarından asılı olmayaraq sabit ödəniş alır və kənd təsərrüfatı məhsullarının qiymətləri daha realist səviyyəyə enir.

32. İdxal kvotası və idxal rüsumunun təsirlərini müqayisəli şəkildə qrafiklərdən istifadə etməklə izah edin.

İdxal kvotası müəyyən əmtəənin idxal oluna biləcək kəmiyyətinə qoyulan birbaşa məhdudiyyətdir. Məhdudiyyət, adətən, müəyyən fərdlərdən ibarət qruplara və ya şirkətlərə imtiyazlar verilməklə tətbiq olunur. Bir idxal kvotası həmişə idxal olunan əmtəənin yerli qiymətini qaldıracaq. İdxal məhdud olduğu halda bu siyasətin ilkin nəticəsi əmtəəyə olan tələbin onun yerli təklifi ilə idxalın cəmini üstələməsidir. Kvota və tarif arasındakı fərq ondan ibarətdir ki, dövlət kvotanın tətbiqindən heç nə qazanmır. İdxalın məhdudlaşdırılması məqsədilə tarifin əvəzinə kvota tətbiq olunanda dövlət gəliri ola biləcək məbləğ idxal imtiyazına layiq görülənlərin payına düşür.İdxal imtiyazlarının sahiblərinin aldığı mənfəətlər- kvota rentası .


Nümünə

ABŞ-ın şəkər problemi Avropanın kənd təsərrüfatı problemi ilə eyni kökdən qaynaqlanır: federal hökumətin təmin etdiyi yerli qiymət zəmanəti ABŞ qiymətini dünya səviyyəsindən yuxarı saxlayır. Avropa İttifaqından fərqli olaraq, ABŞ-dakı yerli təklif yerli tələbi üstələmir. Beləliklə, ABŞ şəkər idxalına kvota tətbiq edərək şəkərin qiymətini hədəf səviyyəsində saxlaya bilir.

ŞƏKIL 9.14

ABŞ-da şəkərin idxalına kvotanın effektləri

Kvotanın Q səviyyəsi şəkərin ABŞ-dakı qiymətini dünya qiymətindən yuxarı qaldırır (P_W-dən P_Q-dək). Kvotanın səbəb olduğu qiymət artımı ABŞ şəkər istehsalının S^1-dən S^2-dək artımına və istehlakın D^1-dən D^2-dək azalmasına təkan verir.



İdxal gömrük rüsumları

Ticarət siyasəti növlərindən ən sadəsi olan tarif idxal olunan əmtəəyə tətbiq edilən vergidir . Fərz edək ki, iki ölkə (“Ev” və “Xaric”) var və onların ikisi aralarında xərcsiz daşına bilən buğdanı istehsal və istehlak edir.

Hər bir ölkədə buğda istehsalı təklif və tələb əyrilərinin bazar qiymətinin funksiyaları ilə çalışdığı sadə, rəqabətli bir sənayedir.


“Ev”in təklif və tələbi “Ev”in valyutasında ifadə olunan qiymətdən, “Xaric”in təklif və tələbi isə “Xaric”in valyutasında ifadə olunan qiymətdən asılıdır.

Biz hər iki bazardakı qiymətləri “Ev”in valyutasında ifadə edirik. Ticarət olmadığı halda buğdanın “Ev”dəki qiyməti “Xaric”dəkindən yüksəkdir.

İndi isə xarici ticarətin mövcudluğunu qəbul edək.

“Ev”də buğdanın qiyməti “Xaric”dəkini üstələdiyinə görə buğdanın “Xaric”dən “Ev”ə göndərilməsi başlanacaq.

Buğdanın ixracı “Ev”dəki qiyməti endirib, “Xaric”dəkini isə qaldıraraq axırda iki qiyməti bərabərləşdirəcək



ŞƏKIL 9.4

Tarifin Təsirləri

Tarif "Ev"dəki qiyməti qaldıraraq "Xaric"dəki qiyməti endirir. Nəticədə ticarətə çıxarılan buğdanın həcmi azalır.

Tarifin təsirləri

Dünya bazarını təsvir edən orta paneldəki 1 nöqtəsinin göstərdiyi kimi, tarif olmadıqda, buğdanın qiyməti həm "Ev", həm də "Xaric"də PW səviyyəsində tarazlaşacaq.

Tarif tətbiq olunduqda isə "Ev"dəki qiymət "Xaric"dəkini ən azı t fərqi ilə üstələməsə, daşıyıcılar buğdanı "Xaricdən"dən "Evə"ə aparmaq niyyətində deyillər.

Buğda ixracı mövcud olmayanda isə 'Ev"də buğdaya artıq tələb, "Xaric"də isə onun artıq təklifi yaranacaq. Deməli, "Ev"dəki qiymət fərqi t təşkil edənə qədər "Ev"dəki qiymət artacaq, "Xaric"dəki isə, əksinə, düşəcək.

Tarifin tətbiqi iki bazardakı qiymətlər arasında fərqin yaranmasına səbəb olur.

Tarif "Ev"dəki qiyməti PT-dək artırır, "Xaric"dəki qiyməti isə PT* = PT - t.-dək endirir.

"Ev"də istehsalçılar daha çox təklif etməyə başlayırlar, istehlakçıların tələbi isə azalır və nəticədə idxala tələb də azalır

33. Azad ticarətin əsaslandırılması üçün arqumentləri sadalayın.

Iqtisadi Arqumentlər

1. Effektiv resurs bölgüsü: Azad ticarət ölkələrə öz resurslarını səmərəli şəkildə bölüşdürməyə imkan verir. Hər bir ölkə müqayisəli üstünlüklərə əsasən ixtisaslaşır və ən ucuz və effektiv şəkildə istehsal edə biləcəyi məhsulları istehsal edir.

2. Müqayisəli üstünlük nəzəriyyəsi: David Ricardo-nun nəzəriyyəsinə görə, ölkələr öz müqayisəli üstünlükləri olan sahələrdə ixtisaslaşaraq, ticarət nəticəsində daha çox rifah əldə edə bilərlər.

3. Qiymətlərin azalması: Rəqabət artır, məhsul bolluğu yaranır, bu da istehlakçılar üçün daha aşağı qiymətlər və daha yüksək keyfiyyətli məhsullar deməkdir.

4. İnnovasiya və texnologiya transferi: Xarici bazarların açılması ilə ölkələr daha yeni texnologiya və idarəetmə təcrübələrinə çıxış əldə edir. Bu, iqtisadi inkişafı stimullaşdırır.

5. Böyük bazar imkanları: Azad ticarət ölkələrə daxili bazar məhdudiyyətlərini aşmağa və daha geniş beynəlxalq bazarlara çıxış əldə etməyə imkan verir.

2. Siyasi Arqumentlər

1. Beynəlxalq münasibətlərin yaxşılaşması: Ticarət əlaqələri ölkələr arasında qarşılıqlı asılılığı artırır və bu, müharibə riskini azaldır. Ticarət, siyasi sabitliyin təminatçısı kimi çıxış edə bilər.

2. Ticarətin liberalizasiyası və inkişaf: Azad ticarət dünya iqtisadiyyatının qloballaşmasına töhfə verir, bu da siyasi baxımdan daha çox əməkdaşlıq və inteqrasiya yaradır.

3. Sosial Arqumentlər

1. İstehlakçıların rifahı: Azad ticarət istehlakçılara daha çox seçim imkanı və keyfiyyətli məhsullar təqdim edir.

2. Qlobal əməkdaşlıq və mədəni mübadilə: Ölkələr arasında ticarət əlaqələri insanların fərqli mədəniyyətləri tanımasına və qarşılıqlı anlaşmaya şərait yaradır.

3. Kasıb ölkələrin inkişafı: Azad ticarət vasitəsilə inkişaf etməkdə olan ölkələr qlobal iqtisadi sistemə inteqrasiya olunaraq daha yüksək iqtisadi artım göstəricilərinə nail ola bilərlər

34. Optimal tarif nədir? Qrafiklə izah edin.

Optimal tarif – bir ölkənin beynəlxalq ticarətdə öz iqtisadi rifahını maksimuma çatdırmaq üçün tətbiq etdiyi tarifi (idxal vergisi) ifadə edir. Bu konsepsiya iqtisadiyyat nəzəriyyəsində geniş istifadə olunur və ölkənin xarici ticarət siyasətində mühüm rol oynayır. Optimal tarifin məqsədi ölkənin rifahını artırmaqdır. Tarif tətbiq edildikdə, daxili istehsalçılar qorunur, idxal mallarının qiyməti artır və hökumət tariflərdən gəlir əldə edir. Ölkə tarif tətbiq etməklə idxal mallarının daxili bazardakı qiymətini artırır və xarici ticarət şərtlərini öz xeyrinə dəyişməyə çalışır. Optimal tarif ixrac edən ölkənin mənfəətini azaldır, çünki onların mallarına olan tələb azalır. Bu, beynəlxalq ticarət tərəfdaşlarının iqtisadi rifahına mənfi təsir göstərə bilər.

Optimal tarif (t_o):


Qrafikdəki zirvə nöqtəsi (1) millət rifahının maksimal olduğu tarif dərəcəsini göstərir. Bu, "optimal tarif" adlanır. Optimal tarif, böyük bir ölkə üçün ticarət şərtlərinin yaxşılaşması ilə istehsal və istehlak təhriflərinin yaratdığı itkiləri balanslaşdırır. Bu tarif millət rifahını maksimuma çatdırır.

2. Qadağanedici tarif dərəcəsi (t_p):

Qrafikin sağ tərəfindəki son nöqtə, qadağanedici tarif dərəcəsidir. Bu dərəcə o qədər yüksəkdir ki, idxalı tamamilə dayandırır və millət rifahı aşağı düşür.

3. Tarif dərəcəsi ilə rifah arasındakı əlaqə:

Tarif dərəcəsi (0-dan başlayaraq t_o-yə qədər) artdıqca, millət rifahı da artır.Tarif dərəcəsi t_o-dən sonra artırsa, rifah azalır. Bu, artan tariflərin ticarət təhriflərini artıraraq iqtisadi səmərəliliyi azaltdığını göstərir.



35. ÜTT-nin əsas prinsipləri hansılardır?

Əmtəələrlə, o cümlədən xidmətlərlə beynəlxalq ticarətin tənzimlənməsində aparıcı rol Ümumdünya Ticarət Təşkilatına (ÜTT) məxsusdur. Bu təşkilatın formalaşmasına qədər üzun bir təkamül yolu keçilmişdir.ÜTT-nin məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması və beləliklə də, iqtisadi inkişafın, eyni zamanda insanların həyat səviyyəsinin artırılmasıdır. Bu məqsədə üzv-ölkələr arasında ticarətə aid olan saziş və qaydaların işlənməsi və tətbiq edilməsi, həmçinin beynəlxalq ticarətin liberallaşdırılmasına yönəldilmiş danışıqların həyata keçirilməsi yolu ilə çatılır.Beynəlxalq ticarətin və ticarət siyasətinin tənzimlənməsi sahəsində ÜTT-nin gözlədiyi iki əsas fundamental prinsip vardır:

ticarətdə ayrı-seçkiliyə yol verməmək;

bazarlara daxil olmanı təmin etmək.

Ticarətdə ayrı-seçkiliyə yol verməmək prinsipi daha əlverişli şərait rejiminin (ölkə ÜTT-nin bütün üzv-ölkələri üçün eyni ticarət şəraiti yaradır) və milli rejiminin (bu rejimə görə idxal olunan əmtəələrə münasibətdə daxili bazarlarda ayrı-seçkiliyə yol verilməməlidir) tətbiq edilməsi vasitəsilə reallaşdırılır. Bazarlara daxil olma isə yuxarıda adıçəkilən rejimlərin tətbiq edilməsi ilə yanaşı, həmçinin kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması vasitəsilə təmin edilir.ÜTT-nin fəaliyyətində əsaslandığı digər prinsiplər isə aşağıdakılardır:

1. ticari-siyasi güzəştlərin edilməsində qarşılılıq;

2. daxili bazarın ancaq ÜTT qaydaları əsasında qorunması;

3. beynəlxalq ticarətin liberallaşdırılması;

4. ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi;

5. ticarət siyasətinin aydın və şəffaf olmaq

36. ÜTT raundları və Doxa raundunun problemləri barədə yazın

Ötən 50 il ərzində dünya ticarətində inanılmaz artım müşahidə olunur. Məhsul ixracı orta hesabla ildə 6% artır. 1997-ci ildə ümumi ticarət 1950-ci illə müqayisədə 14 dəfə artmışdır. GATT və ÜTT görünməmmiş artıma təkan verən güclü və perspektivli ticarət siteminin yaradılmasına köməklik göstərmişlər. Sistem GATT çərçivəsində aparılmış bir sıra ticarət danışıqları mərhələlərindən keçərək inkişaf etmişdir. İlk mərhələlər tariflərin azaldılmasını əhatə edirdi, lakin daha sonra danışıqlar artıq anti-dempinq və qeyri-tarif tədbirlər kimi digər məsələləri də özünə daxil edirdi. Danışıqların son mərhələsi olan 1986-1994 cü illərdə baş tutmuş Uruqvay Raundu ÜTT-nin yaradılmasını qabaqlayır. Danışıqlar bununla başa çatmır. Bəziləri Uruqvay Raundu başa çatandan sonra da davam edir. 1997-ci ilin fevral ayında 69 ölkənin razılığı ilə Uruqvay raundundan sonra olduqca geniş diapazonda liberallaşdırma tədbirlərinin keçirilməsini əhatə edən telekommunikasiya xidmətləri üzrə razılaşma əldə olunur. Eyni zamanda 40 ölkənin hökumətləri informasiya texnologiyaları məhsulları üzrə azad tariflərlə ticarət haqqında danışıqları başa çatdırır, 70 üzv isə bankçılıq, sığorta, qiymətli kağızlar və maliyyə informasiyası sektorlarında ticarətin 95 %-ni əhatə edən maliyyə sektoru üzrə razılaşmanı əldə ediblər. 2000-ci ildə kənd təsərrüfatı və xidmət sahəsində yeni danışıqlara başlanılmışdır. 2001-ci ilin noyabr ayında Qatarda, Dohada ÜTT-nin Nazirlərin 4-cü Konfransından qəbul olunmuş qərara əsasən hazırda bu artıq daha geniş iş proqramına çevrilmişdir – Doha İnkişaf Proqramı (DDA – Doha Development Agenda). Qeyd olunan proqram danışıqlar və növbəti sahələrdə digər fəaliyyətləri nəzərdə tutur: qeyri-kənd təsərrüfatı tarifləri, ticarət və mühit, subsidiyalar və anti-dempinq kimi ÜTT qaydaları, investisiyalar, rəqabət siyasəti, ticarətin asanlaşdırılması, dövlət təchizatında şəffaflıq, əqli mülkiyyət, habelə ÜTT-nin hazırki razılaşmalarının tətbiqi zamanı ölkələrin üzləşdikləri çətinliklər kimi onbların inkişafına istiqamətlənmiş bir sıra digər məsələlər. Danışıqların başa çatdırılması üçün son tarix 1 yanvar 2005-ci ildir. ÜTT Sazişləri Ticarətin mümkün qədər ədalətli və azad olduğunda necə əmin ola bilərik? Danışıqlar qaydaları və onların daimiliyi vasitəsilə. ÜTT qaydaları – sazişləri – üzv dövlətlər arasında danışıqların nəticəsidir. Hazırkı toplu orijinal Tariflər və Ticarət üzrə Əsas Sazişə (GATT – General Agreement on Tariffs and Trade) əsaslı şəkildə yenidən baxılmasını daxil edən 1986-94 Uruqvay Danışıqlar Raunundan irəli gəlir. GATT hazırda əmtəə ticarəti üçün əsas qaydalar kitabçasıdır. Uruqvay Raundu qeyd olunanlarla yanaşı xidmət sahəsində ticarətin qaydalarını yaratmış, habelə əqli mülkiyyətlə bağlı aspektlər, mübahisələrin həlli və ticarət siyasəti ilə bağlı məsələləri nəzərdən keçirmişdir .

37. ABŞ xarici almaların yalnız ABŞ-da istifadə edilən eyni üsullardan istifadə edilməklə yetişdirildiyi və yığıldığı halda idxal edilə biləcəyinə dair tənzimləmə qəbul etməyi düşünür. Bu üsullar ABŞ-da işçilərin təhlükəsizliyi və məhsulun keyfiyyəti ilə bağlı müxtəlif dövlət standartlarına cavab vermək üçün istifadə olunur. ABŞ hökumətinin nümayəndəsi kimi sizdən ÜTT qarşısında yeni idxal qaydalarını müdafiə etməyiniz xahiş olunur. Nə deyəcəksiz? Xarici alma istehsalçılarının nümayəndəsi kimi sizdən xahiş olunur ki, bu qaydanın ticarətə ədalətsiz

məhdudiyyət olduğunu əsaslandırasınız. Nə deyəcəksiz?(20 bal)

ÜTT-nin məqsədi beynəlxalq ticarətin liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması və beləliklə də, iqtisadi inkişafın, eyni zamanda insanların həyat səviyyəsinin artırılmasıdır. Bu məqsədə üzv-ölkələr arasında ticarətə aid olan saziş və qaydaların işlənməsi və tətbiq edilməsi, həmçinin beynəlxalq ticarətin liberallaşdırılmasına yönəldilmiş danışıqların həyata keçirilməsi yolu ilə çatılır.

Beynəlxalq ticarətin və ticarət siyasətinin tənzimlənməsi sahəsində ÜTT-nin gözlədiyi iki əsas fundamental prinsip vardır:

• ticarətdə ayrı-seçkiliyə yol verməmək;

• bazarlara daxil olmanı təmin etmək.

Ticarətdə ayrı-seçkiliyə yol verməmək prinsipi daha əlverişli şərait rejiminin (ölkə ÜTT-nin bütün üzv-ölkələri üçün eyni ticarət şəraiti yaradır) və milli rejiminin (bu rejimə görə idxal olunan əmtəələrə münasibətdə daxili bazarlarda ayrı-seçkiliyə yol verilməməlidir) tətbiq edilməsi vasitəsilə reallaşdırılır. Bazarlara daxil olma isə yuxarıda adıçəkilən rejimlərin tətbiq edilməsi ilə yanaşı, həmçinin kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması vasitəsilə təmin edilir.

ÜTT-nin fəaliyyətində əsaslandığı digər prinsiplər isə aşağıdakılardır:

• ticari-siyasi güzəştlərin edilməsində qarşılılıq;

• daxili bazarın ancaq ÜTT qaydaları əsasında qorunması;

• beynəlxalq ticarətin liberallaşdırılması;

• ticarət mübahisələrinin danışıqlar yolu ilə həll edilməsi;

• ticarət siyasətinin aydın və şəffaf olması;

• ticarətin möhkəm əsaslarının yaradılması;

Bu qaydanın arxasında duran əsas motivlər işçilərin təhlükəsizliyi və məhsul keyfiyyətidir. Amerika Birləşmiş Ştatları, sərbəst ticarətin tərəfdarı olaraq, beynəlxalq ticarətə inanır, eyni zamanda ədalətli ticarətə inanır, təchizatçı ölkədə işçilərin təhlükəsizliyi ölkəmiz üçün əsas narahatlıqdır. Təhlükəsizliyin həm yerli, həm də təchizatçılarımız üçün hər hansı bir işçi qüvvəsi üçün 1 nömrəli prioritet olmasını təmin etməliyik. Bundan əlavə, təchizatçı ölkələr tərəfindən qəbul edilən, yolda alma zədələnməsinə səbəb olan ibtidai üsullar var, qablaşdırma və təhlükəsizlik qaydalarımıza uyğun digər spesifikasiyalar keçmişdə tətbiq edilməmişdir, Bu, işçilərin təhlükəsizliyi və məhsul keyfiyyəti qaydalarına uyğun olmayan xarici alma idxalını dayandırmaq qaydamızın əsas səbəbidir.

38. Beynəlxalq iqtisadi inteqrasiya proseslərinin mahiyyəti və məqsədləri nələrdir?

Beynəlxalq iqtisadi inteqrasiya ölkələr arasında təsərrüfat əlaqələrinin yeni forması kimi XX əsrin ortalarından etibarən özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. İnteqrasiya latınca “İnteqratio” sözündən götürülüb, mənası müxtəlif hissələrin birləşməsi kimi başa düşülür. İnteqrasiya prosesləri qısa müddət ərzində beynəlxalq ticarət və investisiya proseslərinin sürətlənməsinə təkan verir.

BİM iqtisadiyyatların müxtəlif səviyyələrində təzahür edə bilər ki, onun da subyektləri aşağıdakılardır: 1) Mikrosəviyyə. Burada BİM-in subyektləri kimi bu və ya digər xarici iqtisadi əməliyyatları həyata keçirən ayrı-ayrı fiziki şəxslər, orta və kiçik müəssisələr və firmalar çıxış edir; 2) Makrosəviyyə. Bu səviyyənin əsas subyektləri kimi milli dövlətləri, onların subyektlərini, beynəlxalq iqtisadi inteqrasiya qruplaşmalarını, transmilli və qlobal şirkətləri göstərmək olar; 28 3) Üstmilli səviyyə. Bu səviyyədə beynəlxalq təşkilatlar və üstmilli institutlar fəaliyyət göstərir.

Beynəlxalq iqtisadi inteqrasiya milli təsərrüfat mexanizmlərinin yaxınlaşmasına,qarşılıqlı uyğunlaşmasına və artımına gətirən,dövlətlərarası sazişlər formasını qəbul edən və razılaşdırılmış şəkildə dövlətlərarası orqanlar tərəfindən tənzimlənən obyektiv iqtisadi qarşılıqlı təsir prosesidir.İqtisadi inteqrasiyanın əsasında müstəqil fəaliyyət göstərən subyektlərin iqtisadi maraqları və beynəlxalq əmək bölgüsü durur. Müasir beynəlxalq iqtisadiyyatda yaranmış və inkişaf edən çoxsaylı inteqrasiya birlikləri öz qarşılarına prinsipcə eyni vəzifələri qoyurlar.Bu vəzifələrdən isə inteqrasiyanın məqsədləri irəli gəlir:

• Masştab iqtisadiyyatının üstünlüklərindən istifadə.

• Əlverişli xarici siyasət mühitinin yaradılması.

• Ticarət siyasəti vəzifələrinin həlli

Beynəlxalq iqtisadi inteqrasiya prosesinin yaranmasını və inkişafını şərtləndirən bir sıra amillər vardır ki, həmin amillərə aşağıdakıları aid etmək olar: - beynəlxalq miqyasda beynəlxalq əmək bölgüsünün getdikcə dərinləşməsi; - istehsalın beynəlmiləlləşməsi və kooperasiyalaşması səviyyəsinin güclənməsi; - milli iqtisadiyyatların açıqlığı; - innovativ texnologiyalara olan tələbatın artması və onlardan istifadə səviyyəsinin beynəlxalq miqyasda çoxalması

39. Beynəlxalq iqtisadi inteqrasiyanın mərhələləri və formaları hansılardır? Onları izah edin

Beynəlxalq iqtisadi inteqrasiya ölkələr arasında təsərrüfat əlaqələrinin yeni forması kimi XX əsrin ortalarından etibarən özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. İnteqrasiya latınca "İnteqratio" sözündən götürülüb, mənası müxtəlif hissələrin birləşməsi kimi başa düşülür. İnteqrasiya prosesləri qısa müddət ərzində beynəlxalq ticarət və investisiya proseslərinin sürətlənməsinə təkan verir. Beynəlxalq iqtisadi inteqrasiya prosesinin yaranmasını və inkişafını şərtləndirən bir sıra amillər vardır ki, həmin amillərə aşağıdakıları aid etmək olar:

- beynəlxalq miqyasda beynəlxalq əmək bölgüsünün getdikcə dərinləşməsi;

- istehsalın beynəlmiləlləşməsi və kooperasiyalaşması səviyyəsinin güclənməsi;

- milli iqtisadiyyatların açıqlığı;

- innovativ texnologiyalara olan tələbatın artması və onlardan istifadə səviyyəsinin

beynəlxalq miqyasda çoxalması və s.

beynəlxalq iqtisadi inteqrasiya prosesləri aşağıdakı formalarda həyata keçirilir. Birincisi, azad ticarət zonalarının yaradılması formasında. Azad ticarət zonalarının yaradılması beynəlxalq iqtisadi inteqrasiyanın ən çox yayılmış formalarından biri kimi çıxış edir. Bir çox inkişaf etmiş ölkələrdə, o cümlədən ABŞ-da, Avropanın bir çox ölkələrində belə zonalar yaradılmışdır ki, həmin zonalar ölkələr arasında gömrük tarif məhdudiyyətlərinin aradan qalıdırılmasına

əsaslanır. İkincisi, beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etmiş bir forması ümumi bazardır. Hazırda beynəlxalq ticarət mərkəzi kimi "Ümumi Avropa bazarı" çıxış edir. Beynəlxalq ticarətin mərkəzinə çevrilmişdir. Dünya ticarət dövriyyəsinin üçdə bir hissəsi Avropa İqtisadi Birliyinin payına düşür.

40. Azad ticarət zonası ilə gömrük ittifaqı arasında fərq nədir? Ticarətin yaradıcı və ticarətin yayındırıcı təsirlər necə müəyyən edilir.

Azad Ticarət Zonası (ATZ) — bununla bağlı razılıq imzalamış ölkələri əhatə edən ticarət blokunun yerləşdiyi regiondur. Bu razılıq üzv ölkələr arasında tarifləri, idxal kvotalarını və mal və xidmətlərə tətbiq edilən güzəştləri ləğv edir. Əgər razılıqda vətəndaşların ölkədən ölkəyə hərəkətinə də olan məhdudiyyətlər qaldırılıbsa, bu "açıq sərhəd" hesab edilir. Bu iqtisadi inteqrasiyanın ikinci səviyyəsidir. İnteqrasiyanın bu səviyyəsinə o ölkələr üstünlük verir ki, onların iqtisadiyyatı bir-birini tamamlayır. Əksinə, əgər ölkələr bir-biri ilə iqtisadi baxımdan rəqabətdədirlərsə, bu razılıq əldə etmək üçün stimul yaratmır və ya bu razılıq yalnız müəyyən sahədə olan məhsul və xidmətlərə aid edilir.

Gömrük İttifaqı (Gİ) — azad ticarət zonasına daxil olan ölkələrin başqa ölkələrə tətbiq etdiyi ümümi tarif sistemidir. Bəzən üzv ölkələr bir xarici ticarət siyasəti aparır, amma xüsusi hallarda fərqli gömrük tarifi tətbiq edirlər. Bu çərçivədə rəqabətlə bağlı əskikilikləri aradan qaldırmaq üçün ümumi rəqabət siyasəti də həyata keçirilir. Gömrük ittifaqı iqtisadi inteqrasiyanın üçüncü səviyyəsidir. Gİ qurmaqda məqsəd iqtisadi səmərəliliyi artırmaq və üzv ölkələr arasında daha sıx siyasi, iqtisadi və mədəni əlaqələr formalaşdırmaqdır.

Ümumiyyətlə, aralarında azad ticarət yaratmaq niyyətində olan iki və ya daha çox ölkə bunu iki üsulla eləyə bilər. Onlar hər üzv ölkəsinin əmtəələri digərinə tarifsiz satıldığı, lakin onun üçüncü ölkələrə qarşı tariflərinin müstəqil olaraq seçildiyi azad ticarət zonasını və ya üzv ölkələrin digərlərinə qarşı tariflərini bir-biri ilə razılaşdırmalı olduğu gömrük ittifaqını yarada bilərlər.

Onlar Beynəlxalq İqtisadi İnteqrasiyanın Mərhələləridir. Ardıcıllığı isə budur; 1.güzəştli ticarət zonası,2. azad ticarət zonası 3. gömrük ittifaqı 4. ümumi bazar 5. iqtisadi ittifaq 6. iqtisadi və valyuta birliyi 7. tam iqtisadi inteqrasiya Yəni ilk öncə azad ticarət zonası daha sonra gömrük ittifaqı yaranır .

Ticarətin yayındırılması

Ümumiyyətlə, ticarətin təxribatı o deməkdir ki, azad ticarət zonası ticarəti ATZ-dan kənarda daha səmərəli təchizatçıdan, ATZ daxilində isə daha az səmərəli təchizatçıya yönləndirir. Bəzi hallarda ticarətin təxribatı ölkənin milli rifahını azaldacaq, lakin bəzi hallarda milli rifah ticarətin dəyişməsinə baxmayaraq yaxşılaşa bilər/

Ticarətin yaradılması

Ümumiyyətlə, ticarətin yaradılması o deməkdir ki, azad ticarət zonası başqa cür mövcud olmayacaq ticarət yaradır. Nəticədə tədarük məhsulun daha səmərəli istehsalçısından baş verir. Bütün hallarda ticarətin yaradılması ölkənin milli rifahını yüksəldəcək.

41. Regional iqtisadi inteqrasiya proseslərinin məntiqi və əsas nəzəri-metodoloji kosepsiyaları

Bütün qitələri əhatə etmiş regional iqtisadi inteqrasiya prosesləri inteqrasiya birliklərinin iştirakçı dövlətləri arasında BİM-in bütün formalarının intensiv inkişafına şərait yaradır. Regional iqtisadi inteqrasiya proseslərinin intensiv inkişafı regional tənzimləyici strukturların yaradılması yolu ilə beynəlxalq iqtisadi münasibətlərin dövlətlərarası tənzimlənməsinin məzmununu dərinləşdirdi və onun formalarının çeşidini artırdı. Bu özünü xüsusilə Avropa iqtisadi məkanında parlaq surətdə göstərdi.Müasir dövrdə inteqrasiya proseslərinin sürətləndirilməsi və xüsusilə regional səviyyədə iqtisadi inteqrasiyanın səmərəliliyinin yüksəldilməsi aktuallığı ilə diqqət çəkir. Bundan əlavə, regional inteqrasiya qurumu daxilində xarici investorlar üçün milli iqtisadi rejim yaxşılaşır və milli investorlarla yanaşı, xarici investorların fəaliyyəti stimullaşdırılır. Bu amillər nəticəsində regionda iqtisadi inkişaf prosesləri davamlı olur, milli iqtisadiyyatlar beynəlmiləlləşir və dünya təsərrüfat sistemində bu ölkələrin rəqabət qabiliyyəti güclənir. Qeyd edək ki, müasir beynəlxalq iqtisadiyyatda yaranmış və inkişaf edən çoxsaylı regional inteqrasiya birlikləri öz qarşılarına prinsipcə eyni vəzifələri qoyurlar. Bu vəzifələrdən isə regional inteqrasiyanın məqsədləri irəli gəlir: miqyas iqtisadiyyatının üstünlüklərindən istifadə; əlverişli xarici siyasət mühitinin yaradılması; ticarət siyasəti üzrə problemlərin həlli; iqtisadiyyatın struktur dəyişikliklərinə dəstək; milli sənayenin yeni inkişaf etməkdə olan sahələrinin dəstəklənməsi; üzv ölkələrin dünya bazarlarında mövqelərinin gücləndirilməsi və s. Tarixən inteqrasiya bir neçə əsas mərhələdən keçməklə təkamül edir ki, bu mərhələlərdən hər biri onun yetkinlik dərəcəsini xarakterizə edir. Qeyd etmək zəruridir ki, inteqrasiya inkişaf etdikcə meydana gələn dinamik effektlər sırasında müxtəlif ölkələrin istehsalçıları arasında artan rəqabəti göstərmək olar.

42. Müasir beynəlxalq iqtisadiyyatda inteqrasiya proseslərinin əsas mərkəzləri: NAFTA-inteqrasiyanın yaranma tarixi və xüsusiyyətləri?

Şimali Amerika dövlətlərinin (Kanada, ABŞ, Meksika) ərazisini əhatə edən regionda mövcud iqtisadi əlaqələr Şimali Amerika Azad Ticarət Sazişi (NAFTA) çərçivəsində həyata keçirilir . Saziş 1994-cü il yanvarın 1-də qüvvəyə minmişdir.

NAFTA iqtisadi, sosial və siyasi inkişafın müxtəlif səviyyələrində olan üç ölkəni birləşdirən hərtərəfli regional sazişdir; onların müxtəlif aspektlərdə - əmtəə və xidmət ticarəti, investisiya əməkdaşlığı, əqli mülkiyyətin qorunması, ekologiya üzrə münasibətlərini tənzimləyir. Saziş 1994-cü ildə ABŞ iqtisadiyyatının müxtəlif sektorlarında ticarət maneələrini rəvan şəkildə azaltmaq məqsədi ilə imzalanmışdır. Kanada və Meksika mal və xidmətlərin iştirakçı ölkələrin bazarlarına çıxışını təmin etmək və asanlaşdırmaq və rəsmi olaraq vahid kontinental azad ticarət sistemini nəzərdə tuturdu.

Qlobal inteqrasiya prosesində 1991-ci ildə Müstəqil Dövlətlər Birliyini yaradan ölkələr xüsusi yer tutur . MDB. Latın Amerikasının ən böyük inteqrasiya bazarı MERCOSUR- dur, 1991-ci ildə yaradılmış Cənubi Konus ölkələrinin ümumi bazarıdır.

43. Müasir beynəlxalq iqtisadiyyatda inteqrasiya proseslərinin əsas mərkəzləri: Avropa İttifaqı-inteqrasiyanın yaranma mərhələləri və xüsusiyyətləri?

Avropa İttifaqının (Aİ) yaradılması təcrübəsini ən dolğun şəkildə əks etdirir . Bu unikal dövlətlərüstü inteqrasiya birliyinə 2004-cü ilə qədər 15 Qərbi Avropa dövləti daxil idi.

Avropa İttifaqı - İnteqrasiya Mərhələləri

Sənaye birliyi 1951- 1957 .Mövcud olduğu müddətdə Avropaya inteqrasiya bir sıra keyfiyyət metamorfozalarına məruz qalmışdır. 1951-ci ildə gələcək İttifaqın ilkin "hüceyrəsi" Kömür və Polad Sənayesi Assosiasiyası -altı ölkənin iqtisadiyyatının iki əsas sənayesinin kartelləşməsinin baş verdiyi Paris Müqaviləsi idi .

Azad Ticarət Zonası 1958-1968 .1957-ci ildə eyni ölkələr Avropa İqtisadi Birliyinin (AEC) və Avropa Atom Enerjisi Birliyinin yaradılması haqqında tarixi Roma Müqavilələrini imzaladılar. Roma müqavilələri Paris müqaviləsi ilə birlikdə Avropa Birliyinin institusional əsaslarını yaratdı.

Gömrük İttifaqı 1968-1986 .Avropa İqtisadi Birliyinin yaradılması haqqında Roma Müqaviləsinin 9-cu maddəsinə uyğun olaraq, Birliyin əsasını bütün mal ticarətini əhatə edən və ticarət münasibətlərində idxal və ixrac rüsumlarının və hər hansı ekvivalent ödənişlərin qadağan edilməsini nəzərdə tutan gömrük ittifaqı təşkil edir.

Ümumi bazar 1986-1992 .1987-ci ildən Vahid Avropa Aktının qərarlarına uyğun olaraq Avropa İttifaqı ölkələri Ümumi Bazar mərhələsinə keçirlər. Təkcə mallar deyil, bütün digər istehsal amilləri də İcma daxilində faktiki olaraq hərəkət edir: xidmətlər, kapital və s.

İqtisadi və pul ittifaqı 1993 - indiki zaman . Maastrixt müqaviləsi(1993) və ya Avropa İttifaqı haqqında Müqavilə Avropa İqtisadi Birliyini və Avropa Valyuta Sistemini yenidən müəyyənləşdirir. Millətlərüstü institutlar (Sütun 1) xarici siyasət və təhlükəsizlik (Sütun 2) və ədliyyə və daxili işlər (sütun 3) sahələrində əməkdaşlıqla tamamlanır. İqtisadi və Valyuta İttifaqının yaradılması üçün ilkin şərtlər yaradılır.

Avropa İttifaqının yaradılmasının məqsədləri: (xüsusiyyətləri)

- iştirakçı ölkələr arasında ticarətdə bütün məhdudiyyətlərin aradan qaldırılması;
- üçüncü ölkələrlə ticarətdə vahid gömrük tarifinin müəyyən edilməsi;
- insanların, kapitalın və xidmətlərin sərbəst hərəkətinə məhdudiyyətlərin aradan qaldırılması;
- pul ittifaqının yaradılması;

44. Autsorsinq – şaquli BXİ- nın alternativi kimi. Fərqlər, müsbət və mənfi cəhətləri.

Şaquli BXİ qərarı.

Şirkətin istehsal zəncirini hissələrə bölmək və bu zəncirin hissələrini xarici törəmə şirkətə transfer etmək qərarı da vahidə düşən xərclər və sabit xərclər arasında seçimi özündə əks etdirir. Bu halda da şirkətin fəaliyyət miqyası bu nəticəni müəyyən edən əsas element olacaq. Şaquli BXİ halında qənaət edilən xərclər əmtəələrin sərhədlərdən keçərkən qənaət edilən xərcləri deyil, istehsal zəncirinin hissələri üzrə istehsal xərclərindəki fərqləri əks etdirir. Əvvəlcə müzakirə edildiyi kimiç xərclər arasındakı bu fərqlər, əsasən, müqayisəli üstünlüklə bağlıdır.

Autsorsinq.

Şaquli BXİ üçün alternativ olaraq ana şirkət müstəqil şirkətlə (təchizatçı) istehsal prosesinin müvafiq hissələrinin ən yaxşı xərc üstünlüyünə malik xarici məkanda həyata keçirilməsi üçün müqavilə bağlaya bilər. Şaquli BXİ üçün bu, alternativ xarici autsorsinq kimi tanınır (Bəzən, sadəcə, autsorsinq adlanır. Bu zaman xarici məkan nəzərdə tutulur).

Autsorsinq və şaquli BXİ.

Autsorsinq və şaquli BXİ arasındakı seçim nisbətən daha çətindir.Müstəqil şirkətin istehsal prosesinin bəzi hissələrinin ana şirkətlə müqayisədə daha aşağı xərclə həyata keçirməsi (eyni məkanda) üçün bir çox səbəblər mövcuddur.İlk və ən önəmli səbəb odur ki,müstəqil şirkət istehsal prosesinin müəyyən dar hissəsində ixtisaslaşa bilər.Nəticədə şirkət bu prosesləri müxtəlif ana şirkətlər üçün etdiyi halda miqyas effektindən də faydalana bilər.Digər səbəblər istehsal qurğusunda menecer təşviqlərinin uyğunlaşdırılmasında və nəzarətdə yerli sahibliyin üstünlüyünü vurğulayır.

45.BXİ-hərəkətinin səbəbləri və müasir inkişaf meylləri

üfüqi BXİ səbəblərindən biri ixracla bağlı yüksək ticarət xərcləridir ki, şirkətləri istehsalı müştərilərə yaxın nöqtələrdə yerləşdirməyə stimullaşdırır. Digər tərəfdən, istehsalda miqyasa görə artan gəlir mövcuddur. Nəticədə istehsal prosesini dəfələrlə təkrarlamaq və kiçik istehsal ilə miqyasa görə artan gəlirdən faydalanmaq xərc baxımından səmərəli deyil. Buna BXİ üçün yaxınlıq (məsafə) kon- sentrasiya seçimi deyilir. Sektorlar üzrə BXİ dərəcəsi ilə bağlı empirik dəlillər bu seçimin müvafıqliyini (uyğunluğunu) təsdiqləyir: BXİ fəaliyyəti ticarət xərclərinin yüksək olduğu sektorlarda (məsələn, avtomobil sənayesi) daha da cəmləşmişdir; miqyas effekti əhəmiyyətli olduqda və orta zavod ölçüləri böyük olduqda BXİ ilə müqayisədə daha çox ixrac olunduğunu müşahidə etmək olar.

Empirik dəlillər həmçinin onu göstərir ki, iqtisadi sahələr daxilində şirkətlər səviyyəsində BXİ üzrə daha güclü çeşidləmə strukturu mövcuddur. Çxomilli şirkətlər, adətən, çox böyük olur və həmin ölkədə fəaliyyət göstərən çoxmilli olma- yan şirkətlərdən daha məhsuldar olurlar. Çxomilli şirkətləri bir ölkədə fəaliyyət göstərən ixracatçı şirkətlər qrupu ilə müqayisə etdikdə belə böyük ölçünün və məhsuldarlığın çoxmilli şirkətlərin xeyrinə olduğunu aşkar etmək olar.

46 Üfüqi və şaquli BXİ arasındakı fərqi izah edin.

ABŞ şirkəti xarici şirkətin 10%-dən çox hissəsini alarsa və ya ABŞ şirkəti xaricdə tam yeni istehsal qurarsa, bu ABŞ-dan birbaşa xarici investisiya (BXİ) adlanır. Birinci kateqoriyaya aid istehsal fəaliyyəti həyata keçirən törəmə şirkətlərə investisiyalar üfüqi BXİ kimi təsnifləşdirilir. İkinci kateqoriyaya aid istehsal fəaliyyəti həyata keçirən törəmə şirkətlərə investisiyalar şaquli BXİ kimi təsnifləşdirilir.

Üfıqi BXİ qərarları

Bir tərəfdən, yüksək ticarət xərcləri, digər tərəfdən isə aşağı sabit xərclər BXİ üçün müvafiq miqyas nöqtəsini aşağı salır. Şirkətin miqyası isə onun performans ölçülərindən asılıdır. Kifayət qədər aşağı xərcə malik şirkət xarici müştərilərə Q vahidindən daha çox satmaq istəyəcək. Bunu etməyin xərc baxımından ən səmərəli yolu "Xaric"də törəmə şirkət açmaq və çoxmilli şirkətə çevrilməkdir. Orta xərc səviyyələrinə malik şirkətlər " Xaric"də yerləşən müştərilərə xidmət etmək istəyəcəklər. Lakin onların planlaşdırılan satışları Q kifayət qədər aşağı olduğundan bu müştərilərə xidmət etmək üçün BXİ deyil ixracın xərc baxımından ən səmərəli yolu olacaq.

Şaquli BXİ qərarları

Şirkətin istehsal zəncirini hissələrə bölmək və bu zəncirin hissələrini xarici törəmə şirkətə

transfer etmək qərarı da vahidə düşən xərclər və sabit xərclər arasında seçimi özündə əks etdirir. Bu halda da şirkətin fəaliyyət miqyası bu nəticəni müəyyən edən əsas element olacaq. Şaquli BXİ halında qənaət edilən xərclər əmtəələrin sərhədlərdən keçərkən qənaət edilən xərcləri deyil, istehsal zəncirinin hissələri üzrə istehsal xərclərindəki fərqləri əks etdirir. Əvvəlcə müzakirə edildiyi kimiç xərclər arasındakı bu fərqlər, əsasən, müqayisəli üstünlüklə bağlıdır.

47. Hazırda bir ölkə öz ərazisinə hər hansı XBİ-ni qadağan edib. Onun hökuməti bu siyasəti liberallaşdırmaq barədə düşünür. Siz də siyasətin yumşaldılmasını görmək istəyən bir qrup xarici firmaya məsləhətçi kimi işə götürülmüsünüz. Sizdən xahiş edirlər ki, ölkənin bu siyasəti niyə liberallaşdırmalı olması ilə bağlı əsas arqumentlər barədə hesabat hazırlayasınız. Hesabatınız nə deyəcək?

Dünya təcrübəsi göstərir ki, kapitalı idxal edən ölkə üçün birbaşa xarici investisiyalar digər beynəlxalq iqtisadi əməkdaşlıq formalarına nisbətən bir sıra potensial üstünlüklərə malikdir.

Birincisi, onlar əmtəə və xidmət istehsalına kapital qoyuluşunun sabit mənbəyi kimi çıxış edirlər, texniki yardım, nou-hau, idarəetmənin və marketinqin qabaqcıl metodlarının transfertlərini təmin edirlər.

İkincisi, xarici investisiyalar xarici borclardan və kreditlərdən fərqli olaraq ölkənin xarici borcuna əlavə yük olmur, əksinə onun ödənilməsi üçün vəsaitlərin əldə edilməsinə şərait yaradır.

Üçüncüsü, birbaşa xarici investisiyalar milli iqtisadiyyatın dünya iqtisadiyyatına daha səmərəli inteqrasiyasına (xarici əlaqələrin artması, müxtəlif çeşidli istehsal və elmitexniki əməkdaşlıq vasitəsi ilə) imkan verir, ixrac diversifikasiyasına şərait yaradır.

Birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına müsbət təsirini aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

1. Transmilli şirkətlərin qız şirkətlərinin və filiallarının yaradılması iqtisadiyyata kapital qoyuluşlarınını artımına səbəb olur ki, bu da əmək məhsuldarlığınınartımı və məşğulluq səviyyəsinin yüksəlməsi ilə nəticələnir.

2. Birbaşa xarici investisiyalar texnologiyaların, idarəetmə və marketinq bacarıqlarının ötürülməsinə şərait yaradır.

3. Birbaşa investisiyalar ixrac bazarlarına çıxışı genişləndirir, belə ki, transmilli şirkətlərdən digər dövlətlərin daxili bazarlarına əmtəə ixracı kanalı kimi aktiv surətdə istifadə edilir.

Bunlarla yanaşı BXİ-nin bir sıra başqa üstünlüklərindən də bəhs etmək istərdim.

XBİ hədəf ölkənin iqtisadi inkişafını stimullaşdıra və şirkətlər, investorlar üçün daha əlverişli mühit yarada, yerli icma və iqtisadiyyatı stimullaşdıra bilər

İnsan kapitalının inkişafı XBİ-nin böyük üstünlüyüdür. İşçi qüvvəsinin təlim vasitəsilə əldə etdiyi bacarıqlar ölkə daxilində ümumi təhsili və insan kapitalını artırır. XBİ-yə malik olan ölkələr sahiblik hüququnu qoruyub saxlamaqla öz insan resurslarını inkişaf etdirməkdən faydalanırlar.

Birbaşa xarici investisiyalar resurs transferlərinə və bilik, texnologiya və bacarıqların mübadiləsinə imkan verir.

Birbaşa xarici investisiyalar gəlirlər və xərclər arasındakı fərqi azalda bilər. Bununla ölkələr istehsal xərclərinin eyni olacağına və daha asan satılacağına əmin ola biləcəklər.

Xarici investorlar tərəfindən təmin edilən qurğular və avadanlıqlar hədəf ölkədə işçi qüvvəsinin məhsuldarlığını artıra bilər.

48. “BXİ-nin əksəriyyəti aşağı maaşlı işçi qüvvəsinə çıxış əldə etmək üçün edilir”. Razısınız və ya razı deyilsiniz? Niyə? "Sənayeləşmiş ölkələr ən çox BXİ-nin mənbəyidir, çünki onların harasa investisiya etməli olduqları böyük həcmdə maliyyə kapitalı var." Razısınız və ya razı deyilsiniz? Niyə? “Çoxmillətli müəssisələr risklərə məruz qalmalarını azaltmaq istədikləri üçün çox vaxt öz maliyyə kapitallarından az istifadə etməklə filiallar yaradırlar.” Razısınız və ya razı deyilsiniz? Niyə?

ABŞ şirkəti xarici şirkətin 10%-dən çox hissəsini alarsa və ya ABŞ şirkəti xaricdə tam yeni istehsal qurarsa, bu ABŞ-dan birbaşa xarici investisiya (BXİ) adlanır. Xarici şirkətlər tərəfindən ABŞ-da istehsal qurğularına investisiyalar ABŞ-a BXİ daxilolmaları hesab edilir. BXİ axınlarının dünya üzrə strukturunu aşağıda verilən Keys araşdırmasında daha ətraflı təsvir etmişik. İndi isə şirkətin çoxmilli ana şirkət olması ilə bağlı qərarına diqqət yetirək. Nə üçün şirkət xarici məkanda törəmə şirkəti yaratmaqda maraqlı ola bilər? Cavab qismən törəmə şirkətin həyata keçirdiyi istehsal fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyətlər iki əsas kateqoriyaya ayrılır: (1) Törəmə şirkət dünyanın hər hansı digər bir nöqtəsində istehsal prosesini (ana şirkətin yerli istehsal qurğularında həyata keçirdiyi proses) təkrarlayır; və (2) istehsal zənciri müxtəlif hissələr ayrılmışdır və istehsal proseslərinin bir hissəsi törəmə şirkətin fəaliyyət göstərdiyi məkana transfer edilmişdir. Birinci kateqoriyaya aid istehsal fəaliyyəti həyata keçirən törəmə şirkətlərə investisiyalar üfüqi BXİ kimi təsnifləşdirilir. İkinci kateqoriyaya aid istehsal fəaliyyəti həyata keçirən törəmə şirkətlərə investisiyalar şaquli BXİ kimi təsnifləşdirilir. Şaquli BXİ ilə müqayisədə üfüqi BXİ, əsasən, inkişaf etmiş ölkələr arasında axınlar təşkil edir; bu o deməkdir ki, həm çoxmilli ana şirkət, həm də onun törəmə şirkəti inkişaf etmiş ölkədə yerləşir. Bu növ BXİ-nin əsas səbəbi şirkətin 272010-cu ildə Intel Çinin Dalyan şəhərində daha köhnə çip modellərini istehsal edən yeni vafer istehsalı zavodu açdı. istehsalı geniş müştəri bazasına yaxın yerləşdirməkdir. Buna görə də bu növ BXİ qərarlarında istehsal xərcindəki fərqlərdən daha çox ticarət və nəqliyyat xərcləri əhəmiyyətli rol oynayır.

1) Razı deyiləm. XBİ-nin əksəriyyəti sənayeləşmiş ölkələrdə, xüsusən də ABŞ və Avropadadır. Bu ölkələrdə əmək haqqı aşağı deyil. Bi XBİ əvəzinə böyük bazarlara çıxış etmək və bu bazarlarda yerli istehsalın marketinq üstünlüklərini əldə etmək üçün istifadə olunur.

2) Razı deyiləm. Sənayeləşmiş ölkələrin investisiya etmək istədikləri böyük miqdarda maliyyə kapitalı var. Bu kapitalın bir hissəsini başqa ölkələrə yatırmaq istəsələr belə, bu onların birbaşa xarici sərmayələrin çoxunun mənbəyi olduğunu izah etmir. Məqsəd yalnız digər ölkələrə maliyyə kapitalı yatırmaqdırsa, bunun daha asan yolu portfel investisiyaları xarici səhmlər, istiqrazlar və kreditlərdir. Birbaşa xarici investisiya həmçinin texnologiyanın, marketinq bacarıqlarının, idarəetmə bacarıqlarının və digər firmaya xas aktivlərin xarici törəmə müəssisəyə ötürülməsini nəzərdə tutur və bunlar çox vaxt törəmə müəssisəyə maliyyə investisiyasından daha vacibdir.

49. Şirkət ixrac etmək, yoxsa üfüqi BXİ vasitəsilə çoxmilli şirkət olmaq arasında seçim edərkən onun nəzərə almalı olduğu cəhətlər hansılardlr?

Üfüqi birbaşa xarici investisiya (BXİ), bir şirkətin xarici bir ölkədə eyni fəaliyyət sahəsində müəssisə qurması və ya əldə etməsi prosesidir. Bu, adətən şirkətin daxili bazardakı məhsul və ya xidmətlərini xarici bazarda da istehsal və ya təqdim etmək məqsədilə həyata keçirilir. Şirkət ixrac etmək və ya üfüqi birbaşa xarici investisiya (BXİ) vasitəsilə çoxmilli şirkət olmaq arasında seçim edərkən aşağıdakı əsas cəhətləri nəzərə almalıdır:

1. Maliyyə imkanları

İxrac: Daha az kapital tələb edir, çünki xaricdə zavod və ya infrastruktur qurmağa ehtiyac yoxdur.

Üfüqi BXİ: Daha çox sərmayə tələb olunur, çünki xaricdə istehsal və ya paylama obyektləri qurulmalıdır.

2. Risk səviyyəsi

İxrac: Daha az risklidir, çünki sərmayə qoyuluşu əsasən istehsal və nəqliyyata yönəlib.

Üfüqi BXİ: Daha çox risklidir, çünki siyasi, iqtisadi və mədəni risklərə məruz qalır (məsələn, valyuta dalğalanmaları, yerli qanunvericilik dəyişiklikləri).

3. Bazar nəzarəti

İxrac: Şirkət məhsul və xidmətlərini yalnız satır və yerli müştəri bazası ilə birbaşa əlaqəsi daha azdır.

Üfüqi BXİ: Şirkət yerli bazara yaxınlaşır, müştəri üstünlüklərini daha yaxşı anlayır və bazara daha çox nəzarət edir.

50.Şirkət ixrac etmək, yoxsa şaquli BXİ vasitəsilə çoxmilli şirkət olmaq arasında seçim edərkən onun nəzərə almalı olduğu cəhətlər hansılardlr?

- Şirkətin istehsal zəncirini hissələrə bölmək və bu zəncirin hissələrini xarici törəmə şirkətə transfer etmək qərarı da vahidə düşən xərclər və sabit xərclər arasında seçimi özündə əks etdirir. Bu halda da şirkətin fəaliyyət miqyası bu nəticəni müəyyən edən əsas element olacaq. Şaquli BXİ halında qənaət edilən xərclər əmtəələrin sərhədlərdən keçərkən qənaət edilən xərcləri deyil, istehsal zəncirinin hissələri üzrə istehsal xərclərindəki fərqləri əks etdirir. Əvvəlcə müzakirə edildiyi kimiç xərclər arasındakı bu fərqlər, əsasən, müqayisəli üstünlüklə bağlıdır.

Cavabda şirkətin istehsal zəncirini şaquli BXI və ya ixrac yolu ilə idarə etmə qərarını vermək üçün nəzərə alınmalı əsas elementlər vurğulanır. Əsas məqamlar:

1. Vahidə düşən xərclər və sabit xərclər: Şirkətin istehsal zəncirində hansı xərclərin optimallaşdırılacağı əsas götürülür.

2. Şirkətin fəaliyyət miqyası: Fəaliyyətin miqyası nəticənin effektivliyini müəyyən edən əsas amillərdən biridir.

3. Şaquli BXI ilə ixrac arasındakı fərqlər: Şaquli inteqrasiya zamanı istehsal xərclərində qənaət, ixracdan daha üstün ola bilər.

4. Müqayisəli üstünlük: Hansı yanaşmanın şirkət üçün daha sərfəli olduğunu qiymətləndirmək əsas götürülür.

51. ÜMM, ÜDM, Milli gəlir anlayışlarını bir-birindən fərqləndirin.ÜMM tərkib hissələrinin qısa izahını verin.

Makroiqtisadi təhlilin əsas problemi ölkənin ümumi milli məhsuludur (ÜMM) ÜMM verilmiş zaman müddətində ölkənin istehsal amilləri tərəfindən istehsal olunan və bazarda satılan bütün son əmtəə və xidmətlərin bazar dəyəridir. Makroiqtisadçılar tərəfindən tədqiq edilmiş ölkənin buraxılışının əsas ölçüsü olan ÜMM son buraxılışa çəkilmiş bütün xərclərin bazar dəyərini cəmləməklə hesablanır. Ona görə də ÜMM-ə supermarketdə satılmış çörək və kitab mağazasında satılmış kitablar kimi malların dəyəri, habelə birja brokerləri və çilingər-santexniklər tərəfindən göstərilən xidmətlərin dəyəri daxildir. İstehsal amillərinin xərcləri olmadan buraxılış istehsal edilə bilmədiyinə görə ÜMMi formalaşdıran xərclər işçi qüvvəsinin məşğulluğu, kapital və digər istehsal amilləri ilə sıx əlaqəlidir.

ABŞ istisna olmaqla, əksər ölkələr uzun müddət öz milli iqtisadi aktivliyinin başlıca ölçüsü kimi ÜMM-i deyil, ümumi daxili məhsulu (ÜDM) göstərirdi. 1991-ci ildə ABŞ bu təcrübəni tətbiq etməyə başladı. ÜDM-in ölkə hüdudları daxilində istehsal həcmini ölçdüyü hesab edilir, ÜMM isə ümumi daxili məhsul üstəgəl digər ölkələrdən əldə olunan faktor gəlirlərinin xalis mədaxilinə bərabərdir. ABŞ üçün bu xalis daxilolmalar, ilk növbədə, ölkə vətəndaşlarının xarici ölkələrdə sahib olduqları aktivlər hesabına qazandıqları gəlir ilə ölkə vətəndaşlarının ölkə daxilindəki aktivlərin xarici mülkiyyətçilərinə ödədiyi ödənişlərin fərqi ilə bərabərdir.

Nə üçün müəyyən müddət ərzində ölkənin yaratdığı ÜMM onun milli gəlirinə (yəni həmin dövrdə onun istehsal amillərinin qazandığı gəlirə) bərabər olmalıdır.

Bu bərabərliyin səbəbi odur ki, əmtəə və xidmətləri satın almaq üçün istifadə olunan hər bir dollar yekunda avtomatik olaraq kiminsə cibinə gedir. Həkimə getməyi sadə bir misal kimi göstərsək, milli buraxılışdakı artımın milli gəliri eyni məbləğdə necə artırdığını görə bilərik. Həkimə ödədiyiniz 75 dollar onun sizə göstərdiyi xidmətlərin bazar dəyərini əks etdirir və beləliklə, sizin həkimə gedişiniz ÜMM-i 75 dollar artırır. Lakin həkimə ödədiyiniz 75 dollar həmçinin onun gəlirini də artırır. Beləliklə, milli gəlir də 75 dollar artmış olur.

Ümumi Milli Məhsul (ÜMM), Ümumi Daxili Məhsul (ÜDM) və Milli Gəlir bir-birinə bağlı, lakin fərqli iqtisadi göstəricilərdir. Bu göstəriciləri və ÜMM-in tərkib hissələrini izah edək:

---

1. Ümumi Milli Məhsul (ÜMM)

- Tərif: ÜMM bir ölkənin vətəndaşları tərəfindən müəyyən dövr ərzində (adətən bir il) istehsal

edilən bütün malların və xidmətlərin bazar dəyərini göstərir, istər ölkə daxilində, istərsə də xaricdə.

• Fərq: ÜMM istehsal prosesini yerli və xarici olmaqla vətəndaşlıq prinsipinə əsaslanaraq ölçür. Məsələn, xaricdə çalışan Azərbaycan vətəndaşının gəliri ÜMM-ə daxildir.

_____

2. Ümumi Daxili Məhsul (ÜDM)

• Tərif: ÜDM müəyyən bir ölkənin ərazisində istehsal edilən bütün malların və xidmətlərin bazar dəyərini göstərir, istehsal edən şəxsin vətəndaşlıq mənsubiyyətindən asılı olmayaraq.

• Fərq: ÜDM coğrafi prinsipi əsas alır. Xaricdə yaşayan vətəndaşların fəaliyyəti ÜDM-ə daxil edilmir. Məsələn, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin istehsalı ÜDM-ə daxildir.

_____

3. Milli Gəlir

• Tərif: Milli gəlir, bir ölkədə istehsal olunan məhsul və xidmətlərdən əldə edilən gəlirlərin cəmini göstərir. Bu, əməkhaqqı, faiz, icarə və mənfəət kimi faktor gəlirlərindən ibarətdir.

• Fərq: Milli gəlir, ÜMM-dən amortizasiya və dolayı vergilər çıxıldıqdan sonra əldə edilir. İqtisadi mənada əhalinin rifahını daha dolğun əks etdirir.

ÜMM-in tərkib hissələrinin izahı

1. İstehlak (C): Əhali tərəfindən alınan mallar və xidmətlər (məsələn, ərzaq, geyim, nəqliyyat).

2. İnvestisiyalar (I): Şirkətlər və hökumət tərəfindən əsas vəsaitlərə qoyulan sərmayələr (məsələn, fabriklər, maşınlar).

3. Hökumət xərcləri (G): Dövlətin mallar və xidmətlərə etdiyi xərclər (məsələn, məktəblər, xəstəxanalar).

4. Xalis ixrac (NX): İxracın idxalı üstələyən hissəsi (NX = İxrac - İdxal).

o Xaricə satılan malların dəyəri ixrac olaraq qeyd olunur.

o Xaricdən alınan malların dəyəri idxal olaraq qeyd olunur.

ÜMM = C + I + G + NX

52.Tədiyyə balansı nədir? Tədiyyə balansında qeydə alınan əməliyyatlar hansılardır? Nümunə ilə hər hansı bir əməliyyatın tədiyyə balansında əksini göstərin.

Tədiyə balansı hesabları cari əməliyyatlar hesabının tərkibi və maliyyələşməsinimüfəssəl şəkildə təsvir edir. Ölkə ilə dünyanın qalan hissəsi arasındakı bütünəməliyyatlar ölkənin tədiyə balansının hesablarında qeyd edilir. Hesablar oqaydaya əsaslanır ki, xarici tərəflərə ödəniş ilə nəticələnən hər hansı əməliyyatdebet kimi, xarici tərəflərdən mədaxil ilə nəticələnən hər hansı əməliyyat isəkredit kimi qeyd edilir. Əmtəə və xidmətlər ilə bağlı əməliyyatlar tədiyə balansının cari əməliyyatlarhesabında qeyd edilir, aktivlərin beynəlxalq satışları və ya satınalmaları isəmaliyyə hərəkəti hesabında qeydə alınır. Kapital hesabı isə, əsasən, birjadankənaraktivlərin

köçürmələrini qeyd edir və Amerika Birləşmiş Ştatları üçün, adətən, kiçik olur. Cari əməliyyatlar və kapital hesablarının balanslarının cəmi kapi¬tal hesabın balansına (xalis maliyyə axınları) bərabər olmalıdır.

Tədiyyə balansı bir ölkənin xarici iqtisadi fəaliyyətlərini əks etdirən statistik hesabatdır. O, müəyyən dövr ərzində ölkənin digər ölkələrlə apardığı iqtisadi əməliyyatları göstərir və iki əsas bölmədən ibarətdir: cari hesab və kapital və maliyyə hesabı.

Tədiyyə balansında qeydə alınan əməliyyatlar:

1. Cari hesab:

o Ticarət balansı: Malların ixracı və idxalı (məsələn, neft ixracı).

o Xidmətlər balansı: Turizm, nəqliyyat, bankçılıq xidmətləri.

o Birbaşa gəlirlər: Xarici investisiyalardan dividendlər, faizlər.

o Transferlər: Məsələn, diaspor tərəfindən göndərilən pul vəsaitləri.

2. Kapital və maliyyə hesabı:

o Xarici investisiyalar (məsələn, bir şirkətin xaricdə zavod tikməsi).

o Xarici kreditlər və borclar.

o Portfel investisiyaları (səhmlər və istiqrazlar).

3. Rezerv aktivlər:

o Mərkəzi bankın xarici valyuta ehtiyatları və qızıl ehtiyatlarındakı dəyişikliklər.

_____

Nümunə: Malların ixrac əməliyyatı

Təsəvvür edək ki, Azərbaycan bir ay ərzində 100 milyon ABŞ dolları dəyərində neft ixrac edir.

Tədiyyə balansında əks olunması:

1. Cari hesabın ticarət balansında 100 milyon ABŞ dolları gəlir olaraq qeydə alınır (ixrac).

2. Əgər bu gəlirdən əldə edilən məbləğ birbaşa ölkəyə daxil olarsa, balansda müsbət təsir yaranır.

3. Əksinə, bu gəlir ölkənin xaricdəki borc ödənişinə yönəldilərsə, bu, həm də kapital hesabında qeyd olunacaq.

Bu cür əməliyyatlar ölkənin xarici iqtisadi vəziyyətini təhlil etmək üçün istifadə olunur. Tədiyyə balansı müsbət olarsa, ölkə xaricdən daha çox gəlir əldə edir, mənfi olarsa, daha çox ödəyir.

53. Yığımla Cari əməliyyatlar balansı arasındakı əlaqəni qapalı və açıq iqtisadiyyatlar üçün fərqləndirin.

Yığım (savings) və cari əməliyyatlar balansı (current account balance) arasındakı əlaqə iqtisadiyyatın qapalı və açıq olmasına görə dəyişir. Bu əlaqəni başa düşmək üçün əvvəlcə hər iki anlayışı izah edək:

Yığımlar. Əvvəlki fəsillərdə biz adətən ehtimal etdik ki, hər bir ölkə dəqiqliklə öz gəlirinə tam uyğun olan məbləği (nə az, nə çox) sərf edir. Lakin reallıqda isə ailələr öz gəlirlərinin bir hissəsini kənara qoyaraq gələcək üçün saxlayırlar vəya onlar qazandıqlarından daha artıq xərcləmək üçün müvəqqəti olaraq borcgötürə bilər. Ölkənin yığım və ya borclanma davranışı ölkədaxili məşğulluğavə milli sərvətin gələcək səviyyələrinə təsir göstərir. Bütövlükdə beynəlxalq iqtisadiyyat nöqteyi-nəzərindən dünyada yığım norması dünyanın istehsalkapitalı ehtiyatlarının nə dərəcədə tez böyüyə biləcəyini müəyyənləşdirir.

Yığım (S): Fərdlərin, firmaların və dövlətin gəlirlərinin istehlak edilməyən hissəsi.

Cari əməliyyatlar balansı (CAB): Xarici sektorla ticarət, xidmətlər və investisiya gəlirləri arasındakı fərqdir. Formul olaraq:

{CAB} = {X - M}

X- ixrac, M-idxal

1. Qapalı iqtisadiyyat

Qapalı iqtisadiyyatda xarici ticarət yoxdur (X = M = 0), yəni cari əməliyyatlar balansı mövcud deyil. Bu halda iqtisadiyyatın ümumi gəliri (Y) aşağıdakı bərabərliklə ifadə olunur:

Y = C + I + G

C: İstehlak

I: İnvestisiya

G: Dövlət xərcləri

Yığım isə bu bərabərliklə ifadə edilir:

S = Y - C - G

S = I

2. Açıq iqtisadiyyat

Açıq iqtisadiyyatda xarici ticarət və kapital axınları mövcuddur. Ümumi gəlir aşağıdakı kimi genişlənir:

Y = C + I + G + (X - M)

S = I + {CAB}

Nəticə:

Qapalı iqtisadiyyatda yığım və investisiya bir-birinə bərabərdir və xarici sektorun təsiri yoxdur.

Açıq iqtisadiyyatda yığım daxili investisiyalardan əlavə xarici ticarət və kapital axınlarına təsir edir, bu da cari əməliyyatlar balansını formalaşdırır. Yığımın artıq hissəsi müsbət CAB yaradır. Əksinə yığım çatışmazlığı mənfi CAB yaradır.

54. Valyuta məzənnəsini nə müəyyənləşdirir? Ətraflı izahat verin. Gözlənilən gəlirlik dərəcəsi ilə real gəlirlik dərəcəsi arasındakı fərqi nümunə əsasında izah edin.

Bir valyutanın digər valyuta ilə ifadəsindəki qiyməti valyuta məzənnəsi adlanır. Bir ölkənin valyutasının digər ölkənin valyutası qarşısında dəyəri olan valyuta məzənnəsi həm də aktivlərin qiyməti olduğuna görə, digər aktivlərin qiymətlərindəki davranışları idarə edən prinsiplər valyuta məzənnələrindəki davranışları da idarə edir . Valyuta məzənnələri bizə müxtəlif ölkələrdə istehsal edilmiş əmtəə və xidmətlərin qiymətlərini müqayisə etmək imkanı verir. Hər şey sabit qalarsa, bir ölkənin valyutasının ucuzlaşması onun əmtəələrini xaricilər üçün daha ucuz edir. Hər şey sabit qalarsa, bir ölkənin valyutasının bahalaşması onun əmtəələrini xaricilər üçün daha bahalı edir.

Kapital ixracı, əmtəə və xidmətlərlə beynəlxalq ticarət, elmi-texniki əməkdaşlıq dünya təsərrüfatı əlaqələrinin subyektləri arasında qarşılıqlı pul tələblərini və öhdəliklərinin yaranmasına gətirib çıxarır. XX əsrin ortalarından etibarən beynəlxalq valyuta münasibətləri öz inkişafında yeni impuls qazanmışdır. Dünya iqtisadiyyatının beynəlmiləlləşməsi və qloballaşması ölkələr arasında ticarət- iqtisadi mübadilənin inkişafına, valyuta münasibətlərinin inkişaf etməsinə gətirib çıxarmışdır. Valyutaların sabitliyi, onların bir-birlərinə və ehtiyat valyutalarına nisbəyən yol verilən tərəddüd hədləri dünya təsərrüfatının inkişafının vacib problemlərinə çevrilmişdir.dünya təsərrüfat əlaqələrinin fasiləsiz həyata keçirilməsi üçün səmərəli valyuta mexanizminini yaradılması beynəlxalq maliyyə sisteminin mərkəzi vəzifəsinə çevrilmişdir Valyuta sistemi təsərrüfat həyatının beynəlmiləlləşməsi və dünya bazarının inkişafı əsasında formalaşmış, beynəlxalq müqavilə və dövlət-hüquqi normalarında əks olunmuş pul-kredit münasibətlərinin məcmusudur. Valyuta sisteminə iki tərəfdən baxmaq olar. Birincisi, o, ölkələr arasında iqtisadi əlaqələrin dərinləşməsi nəticəsində meydana gəlmiş obyektiv reallıqdır. İkincisi, bu obyektiv reallıq hüquqi normalarda, institutlarda, beynəlxalq sazişlərdə anlaşılır və öz əksini tapır. Bu mənada valyuta sisteminin yaradılması haqqında məqsədyönlü fəaliyyət kimi danışmaq olar. Dünya valyuta sistemində bir sıra valyutalar rəsmi olaraq BVF tərəfindən verilən ehtiyat valyuta statusuna malikdirlər.

Gəlirlilik dərəcəsi, aktivin müəyyən zaman ərzində təklif etdiyi dəyərindəki faiz ilə artımı deməkdir.

Gözlənilən gəlirlilik dərəcəsi nədir? Yığım edənlərin hansı aktivi almaq barədə qərar verərkən nəzərə aldıqları gözlənilən gəlirlilik dərəcəsi gözlənilən real gəlirlilik dərəcəsidir

Faiz dərəcələri

Faiz dərəcəsi – həmin valyutanın bir vahidini bir il üçün borc verməklə bir fərdin qazana biləcəyi həmin valyuta miqdarıdır.Bir dollar və bir avro əmanətin təklif etdiyi faiz dərəcəsi bizə bu dollar və avronun dəyərinin il ərzində necə dəyişəcəyini göstərir. Dollar/avro məzənnəsində il ərzində gözlənilən dəyişikliklər

Nümünə

Fərz edin ki, bir avro - $1,10-dır. Lakin bir il sonra bu dərəcənin bir avro üçün $1,165 olacağını gözləyirsiniz . İllik dollar ilə faiz dərəcəsi 10 faiz, avro ilə isə 5 faizdir. Bir il sonra $1,00- $1,10, €1- €1,05 ödəyəcəyi deməkdir. Bunlardan hansı əmanət daha yuxarı gəlirlilik təklif edir?

Addım 1. Bugünkü dollar/avro məzənnəsini avro əmanətinin (məsələn, €1) dollar ilə qiymətini tapmaq - €1 - $1,10.

Addım 2. Bir il sonra əldə edəcəyiniz avronun miqdarını hesablamaq.İlin sonunda sizin €1-luq əmanətiniz €1,05 dəyərində olacaq.

Addım 3. Addım 2-də müəyyən edilmiş avro ilə məbləğin gözlənilən dəyərini hesablamaq üçün bir il sonra hakim olacağı gözlənilən valyuta məzənnəsini istifadə edin. Avro əmanətinizin bir il sonrakı dollar ilə dəyəri - 1.165 * 1.05 = +1.223 olacağını gözləyirsiniz

Addım 4. €1 əmanətinizin dollar ilə qiymətini ($1,10) indi bildiyiniz və onun bir il sonrakı dəyərini ($1,223) proqnozlaşdıra biləcəyiniz üçün siz avro əmanətlərinin dollar ilə gözlənilən gəlirlilik dərəcəsini aşağıdakı kimi hesablaya bilərsiniz: (1.223 - 1.10)/1.10 = 0.11, və ya illik 11 faiz.

Addım 5. Dollar əmanətləri üzrə dollar ifadəsində gəlirlilik dərəcəsi (dollar ilə faiz dərəcəsi) illik sadəcə 10 faiz olduğuna görə siz sərvətinizi avro əmanətləri formasında saxlamağın daha yaxşı olduğunu gözləyirsiniz.

Sadə qayda:Sonuncu nümunədə dolların gözlənilən ucuzlaşma dərəcəsi (1.165 - 1.10)/1.10 = 0.059, və ya təqribən illik 6 faizdir.

Avro əmanətlərinin dollar ifadəsində gəlirlilik dərəcəsi təxminən avro ilə faiz dərəcəsi ilə dolların avroya qarşı ucuzlaşma dərəcəsinin cəminə bərabərdir. 5% + 6% =11%

55. Dolların faiz dərəcəsinin artmasının dollar/avro məzənnəsinə təsirlərini müzakirə edin.Qrafiklə cavabınızı dəstəkləyin.

Faiz dərəcəsi pariteti: ilkin tarazlıq şərti- Xarici valyuta bazarı, bütün valyutalar ilə əmanətlərin eyni gözlənilən gəlirlilik dərəcəsi təklif etdikdə tarazlıqda olur. Eyni valyuta ifadəsində ölçüldükdə hər hansı iki valyuta ilə əmanətlər üzrə gözlənilən gəlirliliyin bərabər olması şərti faiz dərəcəsi pariteti şərti adlanır.

Xarici valyuta bazarı heç bir növ valyuta üzrə izafi tələb və ya izafi təklif olmadıqda tarazlıq vəziyyətində olur.


R$ = R€ + (E e $/€ - E$/€)/E$/€.

R€ - birillik avro əmanətləri üzrə bugünkü faiz dərəcəsi,

R$ - birillik dollar əmanətləri üzrə faiz dərəcəsi,

E$/€ - bugünkü dollar/avro valyuta məzənnəsi (bir avro üçün dolların məbləği),

Ee $/€ - bir il sonra hakim olması gözlənilən dollar/avro valyuta məzənnəsi (biravro üçün dolların məbləği)



Digər şərtlər sabit qaldıqda bir valyutanın əmanətləri üzrə ödənilən faiz dərəcəsindəki artım həmin valyutanın xarici valyutaya qarşı bahalaşmasına səbəb olur.

Real dünyada faiz dərəcəsinin niyə dəyişdiyini bilmədikcə, biz verilmiş bir faiz dərəcəsi dəyişikliyinin valyuta məzənnələrini necə dəyişməsini proqnozlaşdıra bilmirik..

56. Xarici valyuta bazarı, iştirakçıları və onların yerinə yetirdikləri funksiyaları sadalayın.

Xarici valyuta bazarı

İqtisadiyyatdakı digər qiymətlərin alıcı və satıcı arasındakı əlaqələr ilə müəyyənləşməsi kimi, valyuta məzənnələri də beynəlxalq ödənişləri etmək üçün xarici valyutaları alan və satan ev təsərrüfatları, şirkətlər və maliyyə institutları arasındakı əlaqələr ilə müəyyən edilir. Beynəlxalq valyutaların mübadilə edildiyi bazar xarici valyuta bazarı adlanır.

İştirakçılar

Xarici valyuta bazarındakı əsas iştirakçılar kommersiya bankları, beynəlxalq ticarətlə məşğul olan korporasiyalar, aktivlərin idarə olunması ilə məşğul olan şirkətlər, sığorta şirkətləri kimi bank olmayan digər maliyyə institutları və mərkəzi banklardır. Fərdlər – məsələn, bir otelin girişində xarici valyuta alan turistlər də, xarici valyuta bazarında iştirak edə bilərlər. Ancaq belə nağd əməliyyatlar ümumi valyuta ticarətinin çox cüzi bir hissəsini təşkil edir.

Biz indi bu bazardakı əsas iştirakçıları və onların rollarını göstərəcəyik.

1) Kommersiya bankları. Demək olar ki, bütün irimiqyaslı beynəlxalq əməliyyatlar, müxtəlif maliyyə mərkəzlərindəki kommersiya banklarında debit və kredit hesabları ilə aparıldığı üçün kommersiya bankları xarici valyuta bazarının mərkəzindədirlər. Ona görə də xarici valyuta əməliyyatlarının böyük hissəsi müxtəlif valyutalarla ifadə olunmuş bank əmanətlərini özündə əhatə edir.

2) Korporasiyalar. Bir neçə ölkədə əməliyyatları olan korporasiyalar öz baş ofislərinin yerləşdiyi ölkənin valyutasından fərqli olan valyutalarda ödənişlər edir və ödəmələr qəbul edir. Meksikadakı zavodunda işçilərin maaşını ödəmək üçün, məsələn, IBM şirkətinin Meksika pesosuna ehtiyacı ola bilər. Əgər IBM kompüterləri Amerika Birləşmiş Ştatlarında satmaqla sadəcə dollar əldə Valyuta məzənnələri, avtomobil qiymətləri və valyuta müharibələri

3) Bank olmayan maliyyə institutları. İllər ərzində Amerika Birləşmiş Ştatları, Yaponiya və digər ölkələrdə maliyyə bazarlarında tənzimləmələrin azaldılması müştərək fondlar kimi bank olmayan maliyyə institutlarını öz müştərilərinə daha çox çeşiddə xidmətlər təklif etmək üçün stimullaşdırdılar. Bu xidmətlərin əksəriyyəti bankların təklif etdiklərindən fərqlənmir. Həmin xidmətlərin arasında xarici valyuta əməliyyatları da mövcud olmuşdur. Təqaüd fondları kimi institusional investorlar, adətən, xarici valyuta ticarəti aparırlar. Həmçinin sığorta şirkətləri də belə edir. Çox varlı fərdlərə xidmət edən və müştərək fondların ticarət strategiyalarını məhdudlaşdıran hökumət tənzimləmələrinin təsir etmədiyi hec fondlar da xarici valyuta bazarında aktiv fəaliyyət göstərirlər.

4. Mərkəzi banklar. Əvvəlki fəsildə biz mərkəzi bankların bəzən xarici valyuta bazarlarına müdaxilə etdiyini öyrəndik. Mərkəzi bankların əməliyyatlarının həcmi, adətən, çox böyük olmasa da, həmin əməliyyatların təsiri böyük ola bilər. Bu təsirin səbəbi xarici valyuta bazarındakı iştirakçılar valyuta məzənnələrinə təsir edə bilən gələcək makroiqtisadi siyasətləri anlaya bilmək üçün mərkəzi bankın fəaliyyətlərini yaxından izləmələridir. Mərkəzi banklardan başqa digər hökumət orqanları da xarici valyuta bazarında iştirak edə bilərlər

57. Cari dollar/avro məzənnəsi və avro əmanətləri üzrə gözlənilən dollar ifadəsində gəlirlilik arasındakı əlaqəni qrafiklərlə izah edin.

Bugünkü dollar/avro məzənnəsi bir avro üçün $1,00-dır və bir il sonra bugünkü gün üzrə gözlədiyiniz məzənnə isə bir avro üçün $1,05 olacaq. Onda dolların avroya qarşı gözlənilən ucuzlaşma dərəcəsi (1.05 - 1.00)/1.00 = 0.05, və ya illik 5 faiz edir. fərz edin ki, bugünkü valyuta məzənnəsi qəflətən bir avro üçün $1,03-a qalxır. Dolların ucuzlaşmasının gözlənilən dərəcəsi indi sadəcə (1.05 - 1.03)/1.03 = 0.019, və ya 5 faiz əvəzinə 1,9 faiz olur.

TABLE 14-4 **Today's Dollar/Euro Exchange Rate and the Expected Dollar Return on Euro Deposits When $E^e_{\$/€} = \$1.05$ per Euro**


Today's Dollar/Euro Exchange Rate	Interest Rate on Euro Deposits	Expected Dollar Depreciation Rate Against Euro	Expected Dollar Return on Euro Deposits
$E_{\$/€}$	$R_€$	$\frac{1.05 - E_{\$/€}}{E_{\$/€}}$	$R_€ + \frac{1.05 - E_{\$/€}}{E_{\$/€}}$
1.07	0.05	− 0.019	0.031
1.05	0.05	0.00	0.05
1.03	0.05	0.019	0.069
1.02	0.05	0.029	0.079
1.00	0.05	0.05	0.10

39

ŞƏKİL 14.3

Cari dollar/avro məzənnəsi və avro əmanətləri üzrə gözlənilən dollar ifadəsində gəlirlilik arasındakı əlaqə

$E^e_{\$/€} = 1.05$ və $R_€ = 0.05$, olaraq verilmişdirsə, dolların avroya qarşı bahalaşması avro əmanətləri üzrə dollar ifadəsində ölçülmüş gözlənilən gəlirliliyi artırır.



40

58. Avro depozitlərinin ödədiyi faiz dərəcəsinin artmasının dollar/avro məzənnəsinə təsirlərini müzakirə edin

1.Faiz dərəcəsi – həmin valyutanın bir vahidini bir il üçün borc verməklə bir fərdin qazana

biləcəyi həmin valyuta miqdarıdır. Bir dollar və bir avro əmanətin təklif etdiyi faiz dərəcəsi bizə bu dollar və avronun dəyərinin il ərzində necə dəyişəcəyini göstərir.

Dollar/avro məzənnəsində il ərzində gözlənilən dəyişikliklər

Fərz edin ki, bir avro - $1,10-dır.

Lakin bir il sonra bu dərəcənin bir avro üçün $1,165 olacağını gözləyirsiniz . İllik dollar ilə faiz dərəcəsi 10 faiz, avro ilə isə 5 faizdir. Bir il sonra $1,00- $1,10, €1- €1,05 ödəyəcəyi deməkdir.

Addım 1. Bugünkü dollar/avro məzənnəsini avro əmanətinin (məsələn, €1) dollar ilə qiymətini tapmaq - €1 - $1,10.

Addım 2. Bir il sonra əldə edəcəyiniz avronun miqdarını hesablamaq.İlin sonunda sizin €1-luq əmanətiniz €1,05 dəyərində olacaq.

Addım 3. Addım 2-də müəyyən edilmiş avro ilə məbləğin gözlənilən dəyərini hesablamaq üçün bir il sonra hakim olacağı gözlənilən valyuta məzənnəsini istifadə edin. Avro əmanətinizin bir il sonrakı dollar ilə dəyəri - 1.165 * 1.05 = +1.223 olacağını gözləyirsiniz.

59. Mərkəzi bank rəsmi ehtiyat əməliyyatları vasitəsilə pul təklifini necə idarə edir?

Mərkəzi banklar çox vaxt öz iqtisadiyyatlarında makroiqtisadi vəziyyətə təsir göstərmək üçün şəxsi aktiv bazarlarında beynəlxalq ehtiyat aktivləri alır, yaxud satır. Bu növ rəsmi əməliyyatlar valyuta bazarlarına rəsmi müdaxilə adlanır. Valyuta bazarlarına müdaxilənin makroiqtisadi vəziyyəti dəyişdirə bilməsinin səbəblərindən biri odur ki, bu, mərkəzi bankın pul kütləsini dövriyyəyə buraxması və ya dövriyyədən çıxarması üçün bir vasitədir. Valyuta bazarlarına müdaxilənin səbəbləri və nəticələri barədə sonrakı bölmələrdə daha ətraflı danışacağıq.

Mərkəzi banklardan savayı, dövlət qurumları xarici ehtiyat aktivlər saxlaya və valyuta bazarlarına rəsmi müdaxilə edə bilərlər. Məsələn, ABŞ-ın Xəzinədarlıq Departamenti bir vaxtlar birja ticarətində fəal rol oynamış Valyuta Stabilləşdirmə Fondunu idarə edir. Lakin bu cür qurumların əməliyyatları, adətən, dövriyyədəki pul kütləsinə nəzərəçarpan təsir göstərmədiyinə görə biz mərkəzi bankın təkbaşına xarici ehtiyat aktivlər saxladığını və müdaxilələr etdiyini ehtimal etməklə müzakirəmizi sadələşdirəcəyik (həddindən artıq təhrif yaratmadığı halda. Mərkəzi bank xarici aktivi satın aldıqda, yaxud satdıqda bu əməliyyat ölkənin maliyyə hərəkəti hesabında həmin əməliyyatın sanki fiziki şəxs tərəfindən həyata keçirildiyi kimi görünür. Yaponiya Mərkəzi Bankının (Bank of Japan) dollar aktivlərini əldəetmə əməliyyatı aşağıdakı qaydada baş verə bilər: ABŞ-ın avtomobil dileri Yaponiyadan Nissan markalı sedan avtomobili idxal edir və avtomobil şirkətinə 20000 ABŞ dolları dəyərində çek ilə ödəniş edir. Nissan şirkəti bu pulu dollar aktivlərinə investisiya etmək istəmir, lakin belə olur ki, Yaponiya Bankı 20000 ABŞ dolları dəyərindəki çek müqabilində Nissan şirkətinə Yapon valyutası ödəmək istəyir. Yaponiya Bankının beynəlxalq ehtiyat aktivləri bu sövdələşmə nəticəsində 20000 ABŞ dolları artır. Ona görə də bu əməliyyat ABŞ-ın maliyyə hərəkəti hesabında 20000 ABŞ dolları kredit ilə nəticələnir, digər tərəfdə isə avtomobilin idxalı səbəbindən ABŞ-ın cari əməliyyatlar hesabında 20000 ABŞ dolları debet yaranır.Mərkəzi bankın xalis maliyyə axınlarının səviyyəsi rəsmi hesablaşmalar balansı və ya (qeyri-rəsmi şəkildə) tədiyə balansı adlanır. Bu saldo cari əməliyyatlar hesabının və kapital hesabın balanslarının cəmidir (maliyyə hərəkəti hesabının balansının qeyri-ehtiyat aktivlərinin hissəsi çıxılmaqla) və o, cari əməliyyatlar hesabının balansının hesaba alınmasında mərkəzi bankların rəsmi ehtiyat aktivləri üzrə əməliyyatlarının

rolunu göstərir

60. Arbitrajın mahiyyətini izah edin.

Arbitraj maliyyə bazarlarında qiymət fərqlərindən istifadə edərək risksiz mənfəət əldə etmək prosesidir. Bu, adətən, eyni aktivin (məsələn, valyuta, qiymətli kağızlar, əmtəələr və ya digər maliyyə alətləri) fərqli bazarlardakı qiymətlərində olan uyğunsuzluqlardan yaranır. Arbitraj imkanları bazarların qeyri-effektivliyindən qaynaqlanır və həmin uyğunsuzluqlar aradan qalxana qədər davam edir. Arbitrajın əsas prinsipi aşağı qiymətli bir bazardan aktiv alıb, daha yüksək qiymətə malik digər bir bazarda sataraq qiymətlər arasındakı fərqdən mənfəət əldə etməkdir. Bu əməliyyat, düzgün həyata keçirildikdə, risksiz mənfəət əldə etmək imkanı yaradır, çünki qiymət fərqləri iki bazar arasındakı əməliyyat xərclərini üstələyir. Məsələn, bir valyutanın birjada alış qiyməti 1,10 ABŞ dolları, digər birjada isə satış qiyməti 1,15 ABŞ dollarıdırsa, investor həmin valyutanı aşağı qiymətə alıb yüksək qiymətə sataraq qiymət fərqindən faydalana bilər. Bu növ əməliyyat arbitraj adlanır. Arbitrajın əsas təsiri bazarlar arasında qiymət fərqlərini aradan qaldırmaq və bazar effektivliyini artırmaqdır. Arbitraj əməliyyatları davam etdikcə aşağı qiymətli bazarda tələb artır, yuxarı qiymətli bazarda isə təklif yüksəlir. Nəticədə qiymətlər bir-birinə yaxınlaşır və uyğunsuzluq aradan qalxır.

Nəticə olaraq, arbitraj bazarların daha effektiv işləməsinə töhfə verir və qiymətlərin düzgün formalaşmasına yardım edir. Bununla yanaşı, müasir bazarlarda texnologiyanın inkişafı və sürətli məlumat axını arbitraj imkanlarını məhdudlaşdırır, çünki qiymət fərqləri çox sürətlə aradan qaldırılır. Buna baxmayaraq, arbitraj bazarlarda hələ də mühüm rol oynayır və investorlar üçün cəlbedici imkanlar yaradır.

61. Xarici valyuta əməliyyatları hansılardır? Spot, forvard əməliyyatlar, xarici valyuta svopları, fyuçers və opsionları izah edin və bir- birindən fərqləndirin.

Xarici valyuta əməliyyatları hər hansı iki valyuta arasında olur. *Bu hətta bir bankın məqsədinin bir qeyri-dollar valyutasını almaq və satmaq niyyəti olduqda belə, doğrudur. Əksər əməliyyatlar xarici valyutaların ABŞ dollarına mübadiləsi olur. Çoxsaylı xarici valyuta əməliyyatlarındakı əhəmiyyətli roluna görə ABŞ dolları bəzən vasitəçi valyuta adlandırılır.

İki tərəf bank əmanətlərini mübadilə etmək barədə razılıq əldə edir və bu razılaşmanı dərhal icra edirlər- spot məzənnə, spot əməliyyat.

Xarici valyuta razılaşmaları gələcək bir əməliyyat tarixini müəyyən edir – bu tarix 30, 90, 180 gün və ya hətta bir neçə il sonra belə ola bilər. Belə əməliyyatlarda istifadə edilən məzənnələr forvard məzənnələr adlanır.

Xarici valyuta svopları bir valyutanın spot satışı ilə onun forvard ilə yenidən alınmasının kombinasiyasına deyilir.

Fyuçers və opsionlar. Siz fyuçers müqaviləsi aldıqda müəyyən edilmiş bir xarici valyuta məbləğinin gələcəkdə müəyyən edilmiş bir tarixdə çatdırılacağına dair vədi almış olursunuz. Bir xarici valyuta opsionu öz sahibinə müəyyən edilmiş bir xarici valyuta məbləğinin, müəyyən edilmiş bir qiymətdə, müəyyən edilmiş bir son tarixədək, hər hansı bir vaxtda almaq və ya satmaq hüququ qazandırır.

Razılaşmanın digər tərəfindən opsion satıcısı öz haqqını icra etmək üçün heç bir məcburiyyəti olmayan opsion sahibinin istəyi ilə həmin xarici valyutanı satmaq və ya almaq öhdəliyi daşıyır. put" opsionu - xarici valyutanı satmaq hüququ verir.

"call" opsionu - xarici valyuta almaq hüququ verir.

Forvardlar, svoplar, fyuçers və opsionların hamısı törəmə maliyyə alətlərinin nümunələridir.

62. Aktivlərin gəlirliliyini müəyyənləşdirən amillər hansılardır? Real gəlirlilik dərəcəsi nədir? Aktiv seçimi edərkən gəlirliliklə yanaşı nəzərə alınmalı xüsisiyyətləri izah edin.

Əmanətlərin məqsədi gələcək istehlakı təmin etmək olduğu üçün biz bir aktivin arzu olunan olmasını, əsasən, onun gəlirlilik dərəcəsi ilə qiymətləndiririk. Gəlirlilik dərəcəsi, aktivin müəyyən zaman ərzində təklif etdiyi dəyərindəki faiz ilə artımı deməkdir. Məsələn, fərz edin ki, 2015-ci ilin əvvəlində siz Financial Soothsayers, Inc. şirkətinin buraxdığı bir səhm payı üçün $100 ödəmisiniz. Əgər bu səhm sizə 2016-cı ilin əvvəlində $1 divi¬dend ödəyirsə və səhmin qiyməti il ərzində bir səhm üçün $100-dan $109-a qalxırsa, onda siz 2015-ci il ərzində həmin səhmdən 10% gəlirlilik dərəcəsi qazanmış olur¬sunuz. Bu isə sizin ilkin $100 sərmayənizin dəyərinin $110-a qalxması deməkdir $1 divident və səhminizi sataraq qazana biləcəyiniz $109-ın cəmidir. Financial Sooth¬sayers şirkətinin səhmi yenə də $1 divident ödəsə, lakin qiyməti bir səhm üçün $89-a düşsə, sizin $100 sərmayəniz ilin sonunda sadəcə $90 olacaq – bu isə mənfi 10% gəlirlilik dərəcəsi olur.

Real gəlirlilik dərəcəsi Yığım edənlərin hansı aktivi almaq barədə qərar verərkən nəzərə aldıqları gözlənilən gəlirlilik dərəcəsi gözlənilən real gəlirlilik dərəcəsidir. Bu, yığım edənlərin müntəzəm olaraq istehlak etdikləri məhsulların bəzi geniş səbəi ifadəsində, aktivin dəyərini ölçməklə hesablanmış gəlirlilik dərəcəsidir. Yığımın ən önəmli məqsədi gələcək istehlak olduğu üçün vacib olan şey gözlənilən gəlirlilik dərəcəsidir. Sadəcə real gəlirlilik yığım edənin bu gün istehlak etməkdən imtina etməklə (bu, yığımdır) gələcəkdə ala biləcəyi əmtəə və xidmətləri hesablayır

Aktivlərin gəlirliliyini müəyyənləşdirən amillər

Aktivlərin gəlirliliyini (məsələn, bir şirkətin və ya sərmayənin gəlirlilik dərəcəsi) müəyyən edən əsas amillər bunlardır:

1. Gəlir və xərc balansı: Aktivin yaratdığı gəlirlər (məsələn, satış gəlirləri, dividendlər) və ona çəkilən xərclər (istismar xərcləri, təmir, vergilər) gəlirliliyə birbaşa təsir edir.

2. Bazar şərtləri: Tələb və təklif, bazar rəqabəti, iqtisadi vəziyyət gəlirliliyi artıran və ya azaldan amillərdir.

3. Risk səviyyəsi: Daha yüksək riskli aktivlər, adətən, daha yüksək gəlirlilik təklif edir. Bununla belə, bu gəlirin əldə edilməsi qeyri-müəyyən ola bilər.

Aktiv seçimi edərkən nəzərə alınmalı xüsusiyyətlər

Gəlirliliklə yanaşı, aktivlərin seçimində digər mühüm xüsusiyyətlər aşağıdakılardır:

1. Risk səviyyəsi: Aktivin bazar dəyişikliklərinə qarşı dayanıqlığı, mümkün itki riski

qiymətləndirilməlidir.

2. Likvidlik : Aktivin sürətlə nağda çevrilmə qabiliyyəti. Yüksək likvidlik, tez mövcud vəsait əldə etmək üçün vacibdir.

3. Diverfikasiya imkanı: Aktivlərin müxtəlifliyini artırmaq riskin azaldılması baxımından əhəmiyyətlidir. Tək növ aktivə fokuslanmaq riskli ola bilər.

63. "Ölkə üçün hesabın profisiti carisi hesabın kəsrinin olmasından daha yaxşıdır". Razısınız və ya razı deyilsiniz? izah edin. "Milli yığım həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə istifadə oluna bilər". Bu ifadənin əsasını, o cümlədən qənaətin hər istifadəsinin millətə faydalarını izah edin.

Büdcə artıqlığı (profisit) – büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləğidir. Büdcə kəsiri – dövlət büdcəsinin gəlir və xərclərinin mənfi saldosudur.

Heç də bütün iqtisadiyyatçılar büdcə profisitinin ölkə üçün faydalı olduğunu düşünmür.Bəzi iddialara görə, büdcə artıqlığı sərt iqtisadi siyasətin nəticəsidir. Bunun da nəticəsi olaraq iqtisadiyyatda azad kapital çatışmazlığı, xüsusilə kredit təşkilatlarının likvidliyinin azalması çıxış edir.

Digər tərəfdən isə, büdcə profisiti ümumiyyətlə yaxşı bir şey hesab olunur, çünki bu o deməkdir ki, hökumətdə yenidən investisiya edilə və ya borcları ödəmək üçün xərclənə bilən pul qalır. Bununla belə, bu, hökumətin pulu nə qədər ağıllı xərcləməsindən asılıdır: əgər hökumət yüksək vergilər və ya azaldılmış dövlət xidmətləri səbəbindən profisiti varsa, bu, bütövlükdə iqtisadiyyat üçün xalis itki ilə nəticələnə bilər. Büdcə kəsirinin əksi büdcə profisitidir. Büdcə kəsiri daha yüksək borclanma səviyyəsinə, yüksək faiz ödənişlərinə və aşağı təkrar investisiyaya səbəb ola bilər ki, bu da növbəti il ərzində gəlirlərin azalması ilə neticelenecek.Butun bunlari nezere aldiqda bu fikirle razilasiram

2) Milli yığım-özəl və dövlət sektorunun yığımlarının cəmi

Özəl sektorun yığımları istehlak edilən deyil, yığım edilən xalis gəlirin (vergidən sonrakı gəlir) bir hissəsi kimi müəyyənləşdirilir.

Dövlətin yığımlara dair qərarlarının açıq iqtisadiyyatlara təsirlərini təhlil etməyə əlverişli olan formada milli gəlirin bərabərliyini yenidən tərtib etmək üçün özəl və dövlət sektorlarının yığımlarının tərifləridən istifadə edə bilərik .

64. Qızıl standartı valyuta sisteminin əsas xüsusiyyətlərini izah edin. Bu sistemin dağılmasının əsas səbəbləri nələrdir?

İkinci Dünya müharibəsindən sonrakı dövr ilə müqayisədə 1870-1914-cu illərdə qızıl standartını tətbiq edən ölkələrdə qiymətlər o qədər kəskin qalxmasa da, ölkələr daxilində qiymətlər daha qısa vaxt müddətləri çərçivəsində inflyasiya və deflyasiyanı izləyərək proqnozlaşdırıla bilməyən dəyişikliklərə məruz qalırdı.1914-cü ildən əvvəlki qızıl standartı rejimində qısamüddətli daxili qeyrisabitliyin başlıca səbəbi iqtisadi siyasətin xarici yönümlü hədəflərə yönəlməsi olmuşdur. Birinci Dünya müharibəsindən əvvəlki illərdə dövlətlər İkinci Dünya müharibəsindən sonrakı dövrdəki qədər daxili balansı təmin etməyə görə öz üzərinə məsuliyyət götürmürdülər.Qarşıdakı

Keys araşdırmasında izah edildiyi kimi, ABŞ-da bundan qaynaqlanan iqtisadi təşvişlər qızıl standartına qarşı siyasi müxalifətlə nəticələndi.Yuxarıda müzakirə olunan siyasət trilemması baxımından qızıl standartı valyuta məzənnəsinin yüksək sabitliyi və maliyyə kapitalının beynəlxalq axıcılığını təmin etsə də, monetar siyasətin daxili siyasət məqsədlərinə ünvanlamasına şərait yaratmamışdır. Valyutaların dəyərini qızıl baxımından sabitləşdirərək qızıl standartı dünya iqtisadiyyatında pul kütləsinin artımını məhdudlaşdırmaq və beləliklə, dünya qiymətləri səviyyəsində stabillik təmin etməyə çalışırdı. İkinci Dünya müharibəsindən sonrakı dövr ilə müqayisədə 1870–1914-cu illərdə qızıl standartını tətbiq edən ölkələrdə qiymətlər o qədər kəskin qalxmasa da, ölkələr daxilində qiymətlər daha qısa vaxt müddətləri çərçivəsində inflyasiya və deflyasiyanı izləyərək proqnozlaşdırıla bilməyən dəyişikliklərə məruz qalırdı. 1914-cü ildən əvvəlki qızıl standartı rejimində qısamüddətli daxili qeyrisabitliyin başlıca səbəbi iqtisadi siyasətin xarici yönümlü hədəflərə yönəlməsi olmuşdur. Birinci Dünya müharibəsindən əvvəlki illərdə dövlətlər İkinci Dünya müharibəsindən sonrakı dövrdəki qədər daxili balansı təmin etməyə görə öz üzərinə məsuliyyət götürmürdülər. Qarşıdakı Keys araşdırmasında izah edildiyi kimi, ABŞ-da bundan qaynaqlanan iqtisadi təşvişlər qızıl standartına qarşı siyasi müxalifətlə nəticələndi. Yuxarıda müzakirə olunan siyasət trilemması baxımından qızıl standartı valyuta məzənnəsinin yüksək sabitliyi və maliyyə kapitalının beynəlxalq axıcılığını təmin etsə də, monetar siyasətin daxili siyasət məqsədlərinə ünvanlamasına şərait yaratmamışdır.

65. Bretton-Vuds valyuta sisteminin dağılma səbəbləri nə olmuşdur?

1929-1933-cü illər böhranı göstərdi ki, dünya valyuta sistemində dərin və köklü islahatların həyata keçirilməsinə ehtiyac vardır.1944-cü ildən etibarən dünya valyuta sisteminin təkamülündə üçüncü mərhələ başlanmışdır. Həmin il keçirilən Bretton-Vuds konfransında qızıla və iki —əsas valyuta‖ya ABŞ dollarına və ingilis funt-sterlinqinə əsaslanan qızıl-deviz standartı qəbul edildi ki, ona da çox zaman qızıl-valyuta standartı deyilir. Bu standart yalnız beynəlxalq valyuta sisteminə aid idi, daxili pul sistemi qızılla ölçülmıyın kredit pulları bazasında fəaliyyət göstərirdi.Bretton -Vuds valyuta sisteminin prinsiplərinin formalaşdığı müharibədən sonrakı dövrdə Böyük Britaniya kifayət qədər qızıl ehtiyatlarına malik deyildi və buna görə də funtsterlinqin qızıla dəyişdirilməsinin təmin edə bilmirdi. Bu isə praktiki olaraq funt- sterlinqin deviz valyutası funksiyasından imtina edilməsinə gətirib çıxarmışdı. Beləliklə, Bretton-Vuds valyuta sistemi dolları üstün mövqeyə çıxardı və ABŞ-a siyasi və iqtisadi üstünlük verdi. Dollar xarici ticarət hesablaşmalarını inhisarlaşdırdı. ABŞdan başqa istənilən ölkə tədiyə balansının kəsiri zamanı özünün qızıl-valyuta ehtiyatlarından istifadə etməli, daxili istehlakı azaltmalı, ixracı artırmalı idi. Yalnız ABŞ xarici kəsiri öz valyutası ilə ödəmək imkanına malik olduğundan bu barədə qayğılanmaya bilərdi. Bretton-Vuds valyuta sisteminin prinsiplərinin formalaşdığı müharibədən sonrakı dövrdə Böyük Britaniya kifayət qədər qızıl ehtiyatlarına malik deyildi və buna görə də funtsterlinqin qızıla dəyişdirilməsinin təmin edə bilmirdi. Bu isə praktiki olaraq funt-sterlinqin deviz valyutası funksiyasından imtina edilməsinə gətirib çıxarmışdı.İkinci dünya müharibəsi zamanı dağıntılara məruz qalmış Qərbi Avropa ölkələrinin milli iqtisadiyyatlarının bərpası tədricən dünya iqtisadiyyatında qüvvələr düzülüşünü dəyişdi. Avropa İqtisadi İttifaqının və Yaponiyanın iqtisadi mövqelərinin güclənməsi ilə dünya bazarlarında ABŞ-ın rəqabət qabiliyyətliliyi aşağı düşməyə başladı. Bununla yanaşı, daha çox ölkə müstəqil olaraq dünya bazarlarına çıxmağa başladılar. 1960-cı illərin ortalarında fiksə edilmiş valyuta məzənnələri artıq dünya təsərrüfatının tələblərinə cavab verməməyə başlamışdılar.Beləliklə , Bretton-Vuds valyuta sistemi dünya təsərrüfatının tələblərinə cavab verməməyə başladı. 1960-cı illərin sonu 1970-ci illərin əvvəllərində beynəlxalq iqtisadi sistemdə yeni böhran başverdi. 1971-ci ildə BVF

valyuta məzənnələrinin paritetdən fərqlənməsinənə yol verilən həddi ±2,25%-ə qədər artırdı, bir ildən sonra isə fiksə edilmiş məzənnələr sistemi tamamilə dağıldı.

66. Açıq iqtisadiyyatda makroiqtisadi siyasi hədəflər hansılardır?

Açıq iqtisadiyyatda makroiqtisadi siyasət hədəfləri

Açıq iqtisadiyyatda siyasətçiləri stimullaşdıran əsas məsələlər daxili və xarici balansın məqsədləridir. Sadə dildə desək, daxili balans ölkə resurslarının tam məşğulluğunu və daxili qiymət sabitliyini tələb edir. Xarici balansa o zaman nail olunur ki, nə ölkənin cari əməliyyatlar hesabı gələcəkdə xarici borcları ödəmək imkanının olmayacağı qədər dərin defisitdə olsun, nə də xarici ölkələri bu vəziyyətə salacaq dərəcədə yüksək profisitdə olsun.

Reallıqda bu tərifl ərin heç biri mümkün siyasət məsələlərini əks etdirmir. Misal üçün, tam məşğulluq və orta qiymət səviyyəsinin sabitliyi ilə yanaşı, siyasətçilərin əlavə daxili hədəf kimi gəlirin bölgüsündə müəyyənləşdirilmiş daxili bölgü strukturları ola bilər. Valyuta məzənnəsi tənzimləmələrindən və digər amillərdən asılı olaraq, siyasətçilər cari əməliyyatlar hesabından başqa, digər ödəniş hesablarının balansında olan dəyişikliklərdən narahat ola bilərlər. Xarici və daxili məqsədlərin arasındakı xəttin qeyri-müəyyən olması işləri daha da çətinləşdirə bilər. Misal üçün, ixrac artımının iqtisadiyyatın xarici borcları ödəmək qabiliyyətinə təsir etdiyini nəzərə alsaq, ixrac yönümlü sahələr üçün məşğulluq hədəfini necə təsnifləşdirmək lazımdır? Əvvəlki paraqraflarda verilmış daxili və xarici balansların sadə izahı müəyyən iqtisadi mühitdən asılı olmayaraq, siyasətçilərin bölüşdükləri məqsədləri də əhatə edir. Bu səbəbdən biz təhlilimizi bu tərifl ərin əsasında təşkil edirik və bununla yanaşı, daxili və xarici balansların mümkün əlavə cəhətlərini müzakirə edirik.

Daxili balans: tam məşğulluq və qiymət səviyyəsinin sabitliyi Əgər istehsal resursları tam məşğul və qiymətlər sabitdirsə, deməli, ölkə daxili balansa nail olmuşdur. Resursların tam məşğul olmadığı təqdirdə yaranan itki və çətinliklər danılmazdır. Bunun əksinə olaraq, ölkə iqtisadiyyatının “həddindən artıq qızması” və resursların həddindən artıq məşğul olduğu zamanda da digər (lakin az ziyanlı) növ itki baş verə bilər. Misal üçün, iş saatından əlavə çalışan işçilər az işləməyə və istirahət etməyə üstünlük verə bilərlər, halbuki onların müqavilələri yüksək tələb dövrlərində bir neçə saat əlavə işləmələrini tələb edir. Daha inten- siv işlədilən dəzgahlar daha tez sıradan çıxacaq və daha sürətlə amortizasiya ilə üzləşəcəklər.

Xarici balans: cari əməliyyatlar hesabındakı balansın optimal səviyyəsi: Daxili balansla müqayisədə xarici balans anlayışını müəyyənləşdirmək daha çətindir. Buna səbəb iqtisadiyyatın xarici əməliyyatlarına tətbiq oluna biləcək “tam məşğulluq” və “sabit qiymətlər” kimi birmənalı göstəricilərin olmamasıdır. Xarici ölkələr ilə aparılan ticarətin makroiqtisadi problemlər yaradıb-yaratmaması bir neçə amildən asılıdır. Bunların arasında iqtisadiyyatın xüsusi durumu, xarici ölkələrdə olan mühit və xarici ölkələrlə iqtisadi əlaqələri tənzimləyən institusional çərçivələr kimi amilləri sadalamaq olar. Misal üçün, valyutasının məzənnəsini xar- ici valyutalara qarşı təsbit etmək fikrində olan ölkə üzən məzənnəni tətbiq edən ölkə ilə müqayisədə xarici balansın fərqli anlayışını qəbul edə bilər.

67. Açıq iqtisadiyyatlar üçün əsas makroiqtisadi siyasət trilemmasını izah edin

Açıq iqtisadiyyatlarda siyasətçilər daxili və xarici balansların məqsədlərinə çatmaq üçün ən uyğun valyuta quruluşunu seçərkən qaçılmaz olaraq valyuta trilemması ilə üzləşirlər. Beynəlxalq valyuta sisteminin üç arzu olunan xüsusiyyəti kimi sxe- matik şəkildə üçbucağın uclarını göstərir. Yalnız ikisi eyni anda əldə edilə bilər.Üçbucağın hər bir tərəfi xüsusi valyuta siyasətini göstərir və həmin tərəfin hər iki sonunda mümkün olan xüsusiyyəti əks edir.

Təbii ki, trilemma ara rejimlərin mümkün olmadığını nəzərdə tutmur. Tri- lemma yalnız siyasətçilərin fərqli məqsədlər arasında seçim etmələrini tələb edir. Misal üçün, məzənnəni idarə etməyə yönəlmiş daha aqressiv valyuta müdaxiləsi valyuta məzənnəsinin dəyişkənliyini azalda bilər. Lakin, bu yalnız valyuta siyasətinin məzənnədən xaric digər hədəfləri izləməsi qabiliyyətinin azaldılması sayəsində əldə olunur. Eynilə maliyyə hesabının qismən açılması transsərhəd bor- calma və borcvermələrə imkan yaradacaq. Eyni zamanda yerli faiz dərəcələrinin dəyişiklikləri qarşısında məzənnənin təsbit edilməsi iri həcmli müdaxilə tələb edəcək və bundan əlavə, transsərhəd maliyyə əməliyyatlarının tamamilə qadağan olunduqları haldan fərqli olaraq, xarici məzənnə ehtiyatları üzrə daha iri vasitələrə möhtac olacaq. Bununla da, mərkəzi bankın məzənnəni sabit saxlamaq imkanı (devalvasiya və böhranlardan yayınaraq) azalacaq.

68. Ofşor bankcılıq və ofşor valyuta ticarəti- sürətli böyüməsinin əsas səbəbləri

Ofşor valyuta ticarətinin böyüməsi ofşor bankçılığı ilə yanaşı inkişaf edib. Ofşor əmanəti sadəcə olaraq bankın yerləşdiyi ölkənin valyutasından fərqli valyuta ilə ifadə olunan bank əmanətidir.Ofşor bankçılığın və valyuta ticarətinin sürətli böyüməsinin əsas səbəblərindən biri beynəlxalq ticarətin böyüməsi və korporativ fəaliyyətin getdikcə beynəlxalq xarakter daşıması olmuşdur. Beynəlxalq ticarətlə məşğul olan ABŞ şirkətlərində xaricdə maliyyə xidmətlərinə ehtiyac yaranır və təbii olaraq ABŞ bankları yerli fəaliyyətlərini bu şirkətlərlə bərabər xaricə doğru genişləndirmişlər. Ödənişlərin daha sürətli həyata keçirilməsini təmin edərək və daha əvvəlki sövdələşmələrdə ortaya qoyulmuş etibar və çeviklik əsasında ABŞ bankları ABŞ müştərilərinə xidmət göstərə biləcək xarici banklarla rəqabət aparır. Avrovalyuta ticarəti əmtəə və xidmətlər üzrə genişlənən dünya ticarətinin başqa bir nəticəsidir. Məsələn, ABŞ mallarının britaniyalı idxalçılarında tez-tez dollar əmanətləri saxlamaq ehtiyacı yaranır və Londonda yerləşən bankların idxalçıların fəaliyyətinə uyğunlaşmağa çalışması təbii bir haldır. Digər bir amil əməliyyatlarının bir hissəsini xaricə və xarici valyutalara keçirərək yerli dövlət nəzarətindən (və bəzən vergilərdən) yayınmaq istəməsidir.Daha başqa bir amil siyasi amildir: əmanətçilərin valyutaları onları tədavülə buraxan ölkənin yurisdiksiyasından kənarda saxlama istəyidir. Son illərdə ölkələrin maliyyə bazarlarını xaricilərə açmaq tendensiyası beynəlxalq bankların yeni biznes imkanları üçün qlobal rəqabət aparmasına yol açmışdır.

69. Beynəlxalq kapital bazarının strukturunu izah edin.

Beynəlxalq kapital bazarında əsas iştirakçılara kommersiya bankları, korporasiyalar, qeyri-bank maliyyə institutları (sığorta şirkətləri, pul bazarı fondları, hec fondları və təqaüd fondları), mərkəzi banklar və digər dövlət qurumları daxildir.

1. Kommersiya bankları. Kommersiya bankları sadəcə beynəlxalq ödəniş mexanizmini idarə etdikləri üçün deyil, həm də həyata keçirdikləri maliyyə fəaliyyətinin geniş çərçivəsi də onların

beynəlxalq kapital bazarının mərkəzində dayanmasının əsas səbəblərindən biridir. Bank öhdəlikləri, əsasən, müxtəlif vədəli əmanətlərdən, həmçinin digər maliyyə institutları qarşısında borc öhdəliyi və qısamüddətli borclanmadan ibarətdir, aktivlər isə, əsasən, verilmiş kreditlərdən (korporasiyalara və dövlətlərə), digər banklarda əmanətlərdən (banklararası əmanətlər) və istiqrazlar da daxil olmaqla, müxtəlif növ qiymətli kağızlardan ibarətdir. Beynəlxalq bankçılıqla bağlı vacib faktlardan biri bankların xaricdə öz ölkələrində icazə verilməyən fəaliyyətləri həyata keçirməkdə, adətən, sərbəst olmasıdır. Nəzarət mexanizmlərindəki bu asimmetriya ötən 50 il ərzində beynəlxalq bankçılığın böyüməsinə təkan vermişdir.

2. Korporasiyalar. Korporasiyalar, xüsusilə Coca-Cola, IBM, Toyota və Nike kimi transmilli əməliyyatları həyata keçirən şirkətlər, müntəzəm qaydada investisiyalarını xarici maliyyə fondları vasitəsilə maliyyələşdirirlər. Bu fondları əldə etmək üçün korporasiyalar səhm paylarını sataraq səhm sahiblərinə korporasiyanın səhmdar kapitalı üzrə iddia verə bilər və ya borcla maliyyələşdirmə apara bilərlər. Borcla maliyyələşdirmə, adətən, beynəlxalq banklar və digər borc verən institutlar tərəfindən və ya vasitəsilə borcalma şəklində baş tutur. Korporasiyalar, adətən, istiqrazların satışa çıxarıldığı maliyyə mərkəzinin valyutasında denominasiya olunmuş istiqrazlar buraxırlar.Ancaq korporasiyalar istiqrazlarının daha geniş potensial alıcı kütləsinin marağını qazanması üçün getdikcə daha çox yeni denominasiya strategiyalarını həyata keçirirlər.

3. Qeyri-bank maliyyə institutları. Sığorta şirkətləri, təqaüd fondları, birgə fondlar və hecinq fondları kimi qeyri-bank maliyyə institutları portfellərini şaxələndirmək üçün xarici aktivlərə yönəldikdən bəri beynəlxalq kapital bazarında önəmli oyunçulara çevriliblər. Tamamilə bank olmayan, ancaq digər funksiyaları ilə yanaşı, korporasiyalar və (bəzi hallarda) dövlətlər tərəfindən səhm və istiqrazların satışında anderrayter kimi çıxış edən, birləşmələr və satınalmalarla bağlı tövsiyə verən, müştəriləri üçün əməliyyatlar (tranzaksiyalar) həyata keçirən investisiya şirkətlərini xüsusi qeyd etmək lazımdır. İnvestisiya bankları müstəqil görünə bilər, ancaq bir çox hallarda kommersiya banklarını da əhatə edən iri maliyyə konqlomeratlarının tərkibinə daxildir. Məşhur nümunələr sırasına Goldman Sachs, Deutsche Bank, Citigroup və Barclays Capital daxildir.

70. Bank uğursuzluğu problemini izah edin.

Bank əmanətçilər və digər kreditorlar qarşısında öhdəliklərini qarşılaya bilmədiyi zaman uğursuz olmuş sayılır. Banklar kredit vermək və digər aktivləri almaq üçün borc götürülmüş vəsaitlərdən istifadə edə bilərlər, ancaq bankdan bəzi borcalanlar öz kreditlərini geri ödəyə bilməyə bilər və ya bankın aktivləri digər bir səbəbdən dəyər itirə bilər. Bu baş verdiyi zaman bank qısamüddətli öhdəliklərinin, o cümlədən çox hissəsi xəbərdarlıq edilmədən dərhal geri ödənilməli olan tələbli əmanətlərin geri qaytarılmasında çətinliklərlə qarşılaşa bilər.

Maliyyə panikası mühiti formalaşsa, onda bank uğursuzluğu aktivlərini düzgün idarə etməyən banklarla məhdudlaşmayacaq. Hər əmanətçinin marağındadır ki, digər bütün əmanətçilər bankdan pullarını çəkərsə, hətta müddətin sonuna qədər saxladıqları təqdirdə bankın aktivləri tam geri ödəmə üçün kifayət etsə belə, bankdan pulunu çəksin. Təəssüf ki, bir bank problem yaşadığı anda digər kredit verən banklar üzərində də şübhə yaranacaq. Əgər banklar kreditlərdən kifayət qədər pul itiriblərsə, öz öhdəliklərini qarşılamada çətinlik çəkəcəklər. Banklar birbiri ilə birgə fondlar və törəmə alətləri ilə bağlı olduğu zaman banka qaçışlar son dərəcə yoluxucu ola bilər. Əgər dövlət vaxtında panikanı təcrid etməsə, bir bankın problemlərinin domino effekti ümumiləşdirilmiş və sistematik bank böhranına gətirib çıxara

bilər.

Əgər dövlət vaxtında panikanı təcrid etməsə, bir bankın problemlərinin domino effekti ümumiləşdirilmiş və sistematik bank böhranına gətirib çıxara bilər. Bankın həssaslığını başa düşməyin ən asan yolu onun balans hesabatına baxmaqdır.

71. "Nə qədər ki, daha az ixtisaslı əmək tutumlu istehsal olunan məhsulların ixracının artması məşğulluğun artmasına və işçilərin real əmək haqqının artmasına gətirib çıxarır, inkişaf etməkdə olan ölkə təhsil sisteminin təkmilləşdirilməsində maraqlı deyil". Razısınız və ya razı deyilsiniz? Niyə?

Artan qloballaşma bir çox inkişaf etmiş iqtisadiyyatlarda narahatlıqla qarşılanır. Qloballaşmanın birbaşa immiqrasiya və ya dolayısı ilə ticarət və kapital hərəkətliliyi yolu ilə işçilərin, xüsusən də ixtisassız işçilərin maraqlarına zərər verdiyinə dair ümumi bir fikir var. Xüsusilə idxal rəqabəti ilə bağlı bu inanclar qloballaşmanın inkişaf etmiş iqtisadiyyatlarda əmək haqqı, məşğulluq və gəlir bərabərsizliyinə cüzi təsir göstərdiyinə dair empirik sübutlarla ziddiyyət təşkil edir. (Əksinə olaraq, texnologiyadakı dəyişikliklər daha az ixtisaslı işçilərin zərərinə daha çox ixtisaslı işçilərə doğru geniş yayılmış keçidə gətirib çıxardı.) Üstəlik,

Yenə də qloballaşmanın milli rifah üçün ümumi faydalarına baxmayaraq, bir millət daxilində müəyyən qruplar üçün uyğunlaşma xərcləri var: qloballaşma qalibləri və uduzanları yaradır. İdxal rəqabəti nəticəsində köçmüş işçi qruplarının uyğunlaşdırılması yavaş-yavaş baş verir və yeni imkanlar, yerdəyişmə və firma və ya sahəyə aid biliklərin itirilməsi haqqında məlumat əldə etmək ehtiyacı kimi əhəmiyyətli xərclərlə baş verir. Siyasətçilər potensial dislokasiyaları yadda saxlamalı və köçkünlərin marjinallaşmamasını təmin etməlidirlər.

İnkişaf etməkdə olan ölkələr təhsilə çıxışın artırılması və ya məhdudlaşdırılması ilə bağlı dilemma ilə üzləşirlər. Bir tərəfdən, onlar iqtisadi artımı təşviq etmək üçün təhsil səviyyələrini yüksəltməlidirlər. Lakin, digər tərəfdən, ali təhsil səviyyəsi məşğulluq və əmək haqqı üçün mənfi nəticələrə səbəb olur, çünki onların iqtisadi strukturu daha çox məzunu qəbul edə bilmir.

Şərtdə verilmiş bu fikirlə razı deyiləm , çünki inkişaf etməkdə olan bir çox ölkələr təhsil sistemini təkminləşdirməyə yönəlmişdir və ya yönəlməyə çalışır ,hər bir ölkə öz həyat səviyyəsini yaxşılaşdırmağa çalışır .Düzdür bir çox inkişaf etməkdə olan ölkələrin yüksək təhsilli şəxsləri daha çox xaricə , inkişaf etmiş ölkələrə meyllidir .Amma əgər ölkə daxilində də yüksək təhsil və iş səviyyəsi olsa niyə də xaricə təhsil və karyera məqsədi ilə getməli olsunlar . Buna görə də o fikirlə razı deyiləm ki "inkişaf etməkdə olan ölkə təhsil sisteminin təkmilləşdirilməsində maraqlı deyil " , təhsilin təkminləşdirməyə maraqlıdırlar ,sadəcə bunu etməyə güclər çatmaya bilər.

72. İnkişaf etməkdə olan dövlətlərin ticarət problemləri, eləcə də inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında gərginlikləri barədə danışın

Bu ölkələrin əksəriyyəti daxili sərmayələri maliyyələşdirmək üçün xaricdən maliyyə axınlarına çox bel bağlamışdı. I Dünya müharibəsindən əvvəl və Böyük Böhrana qədərki dövrlərdə, inkişaf etməkdə olan ölkələr (XIX əsrin bir hissəsi üçün Amerika Birləşmiş Ştatları da daxil olmaqla daha varlı ölkələrdən böyük maliyyə axınları qəbul edirdi. Britaniya ən böyük beynəlxalq borcverən idi, lakin Fransa, Almaniya və digər Avropa gücləri də ovaxtkı inkişaf etməkdə olan

ölkələrdə (Argentina, Avstraliya, Kanada və Amerika Birləşmiş Ştatları kimi) maliyyə sənayesinin inkişafına və digərlərində (Braziliya, Peru, Keniya və İndoneziya kimi) təbii resursların hasilatı və ya kənd təsərrüfatı plantasiyaları üçün töhfə vermişdi.

II Dünya müharibəsindən sonrakı onilliklərdə bir çox inkişaf etməkdə olan ölkələr yenidən daha varlı ölkələrin yığımları üçün onların qapılarını döydülər və dünyanın digər hissəsinə ciddi miqdarda borc topladılar (2013-cü ilin sonunda məcmu ifadə ilə təqribən 7 trilyon dollar). İnkişaf etməkdə olan ölkələrin borcu 1980- ci illərin əvvəllərindən başlayaraq dünya miqyasında iqtisadi siyasət qurucularını məşğul edən bir çox beynəlxalq borc böhranlarının mərkəzində olmuşdur.

Müflis olma problemi

Beynəlxalq borclanma və borcvermədən potensial qazanclar borcverənlərin geri ödənilmə ilə bağlı əminliyi olmadıqca reallaşdırılmayacaq. 21-ci fəsildə qeyd etdiy-imiz kimi, bir borcun borcverənin icazəsi olmadan, borcalanın borc müqaviləsində göstərilən cədvəl üzrə həmin borcu geri ödəyə bilməməsi baş verdikdə müflis (defolt) olduğu deyilə bilər. İnkişaf etməkdə olan ölkələrdəki sosial və siyasi qeyri-stabillik, eləcə də onların ictimai maliyyə və maliyyə institutlarındakı tez-tez rast gəlinən zəifliklərі onlara borc verməyi sənayeləşmiş ölkələrə borc verməkdən qat-qat daha riskli edir.

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ticarətdə çox vaxt çətin problemlər yaranır. Daha az inkişaf etmiş ölkələrin əksəriyyəti kənd təsərrüfatına əsaslanan iqtisadiyyatlara malikdir və bir çoxu tropikdir, bu da onların əsasən qəhvə, kakao və ya şəkər kimi bir və ya iki məhsulun ixracından əldə edilən gəlirlərə etibar etməsinə səbəb olur.

73. İEOÖ- in “Əzəli günah” problemini izah edin.

1980-ci illərin borc böhranı 1981 - 1983-cü illərdə dünya iqtisadiyyatı kəskin bir tənəzzüldən əziyyət çəkdi. Böyük Böhranın inkişaf etməkdə olan ölkələr üçün (sürətli şəkildə, demək olar ki, qlobal bir müflisləşmə ilə nəticələnən) öz xarici borclarını ödəməyi çətinləşdirməsi kimi, 1980-ci illərin əvvəlindəki böyük tənəzzül də inkişaf etməkdə olan ölkələrin borc məsələsində bir böhranı alovlandırdı.

Sənayeləşmiş ölkələrin məcmu tələbindəki azalmanın inkişaf etməkdə olan ölkələrə, əlbəttə, mənfi təsirləri oldu. Lakin üç digər mexanizm də əhəmiyyətli idi. İnkişaf etməkdə olan dünyanın dollar ilə ifadə olunmuş dəyişən faizli külli miqdarda borclarının olmasına (“əzəl günah” fəaliyyəti nümunəsi) görə borclu ölkələrin daşımalı olduğu faiz yükündə dərhal və kəskin artım var idi. Bu problem dollar ilə olan borcların real dəyər yükünü xeyli artıran dolların xarici valyuta bazarındakı kəskin bahalaşması ilə gücləndi. Nəhayət, xammal əmtəələrinin qiyməti çökdü və əksər kasıb ölkələrin ticarət şərtlərini pisləşdirdi. Böhran 1982-ci ilin avqustunda Meksikanın mərkəzi bankının xarici valyuta ehtiyatlarını tükətməsi və öz xarici borclarına görə ödənişləri artıq ödəyə bilməyəcəyini elan etməsi ilə başladı. Meksika və Argentina, Braziliya və Çili kimi digər böyük Latın Amerikasının borclanan ölkələri arasındakı bənzərlikləri görən, o dövrdə Latın Amerikasının ən böyük kreditorları olan sənayeləşmiş ölkələrin bankları yeni kreditləri dayandırmaq və daha əvvəlki ödənişləri tələb etməklə öz risklərini azaltmaq üçün tələsik hərəkətə keçdilər. Nəticələr isə inkişaf etməkdə olan ölkələrin genişmiqyaslı şəkildə öz əvvəlki borc öhdəliklərini yerinə yetirə bilməmələri və ümumi bir müflisləşmənin uçurumuna doğru sürətlə hərəkət etmələri oldu. Latın Amerikası ölkələri, bəlkə də, ən sərt zərbə aldılar. Lakin

zərbə həm də Avropa banklarından borc almış Polşa kimi sovet bloku ölkələrinə də dəydi. Borclarının çoxu BVF və Dünya Bankı kimi rəsmi agentliklərə olan Afrika ölkələri də öz borclarını ödəyə bilmədilər.

74. İEOÖ- in struktur xüsusiyyətləri hansılardır?

1. Beynəlxalq ticarətdə məhdudiyyətlər, böyük sənaye şirkətlərində dövlətin payı və ya nəzarəti, daxili maliyyə əməliyyatlarında birbaşa hökumət nəzarəti və ÜDM-də pay olaraq hökumətin yüksək istehlak səviyyəsi də daxil olmaqla iqtisadiyyata hökumətin birbaşa geniş nəzarətinin bir tarixçəsi var. İnkişaf etməkdə olan ölkələr, ötən onilliklər ərzində müxtəlif sahələr üzrə iqtisadiyyatda hökumətin rolunun azaldılması çərçivəsinə görə, öz aralarında xeyli fərqlənirlər.

2. Yüksək inflyasiyanın da bir tarixçəsi var. Əksər ölkələrdən hökumət öz ağır xərclərini və dövlətə məxsus müəssisələrin zərərlərini sadəcə vergilər vasitəsilə ödəyə bilmədi. Vergidən yayınma çox olurdu və bir çox iqtisadi fəaliyyətlər "gizli" aparılırdı və beləliklə, bu ən sadə yol kimi pul çapını önə çıxartdı. Senyoraj hökumətin əmtəə və xidmətlərə xərclədiyi pulu çap etdikdə qazandığı real resurslara iqtisadçıların verdiyi addır. İnkişaf etməkdə olan ölkələrin hökumətləri senyorajın yüksək səviyyələrinə çatmaq üçün davamlı olaraq pul təklifini genişləndirdikdə onlar inflyasiya, hətta hiperinflyasiya yaşamışlar.

3. Daxili maliyyə bazarlarının liberallaşdırıldığı yerlərdə, zəif kredit institutları, adətən, çoxalır. Banklar tez-tez borc aldıqları vəsaitləri zəif və ya çox riskli layihələri maliyyələşdirmək üçün borc verirlər. Kreditlər gələcək faydalara görə deyil, şəxsi tanışlıqlara görə verilə bilər və hökumətin banklara nəzarəti kimi maliyyə davamsızlığına qarşı müdafiəsi yarıtmazlıq, təcrübəsizlik və ya fırıldaqçılığa görə qeyri-effektiv olmağa meyllənir. Bir çox yeni inkişaf edən ölkələrdə səhmlərin açıq ticarəti inkişaf etmiş olsa da, səhmdarlar üçün bir şirkətin pulu necə xərcləyəcəyini öyrənmək və ya şirkət menecerlərinə nəzarət etmək inkişaf etməkdə olan ölkələrdə, adətən, daha çətin olur. İflas hallarında aktivlərə sahibliklərin həll edilməsi üçün hüquqi çərçivə də tipik olaraq zəifdir. İnkişaf etmiş ölkələrin maliyyə bazarlarındakı son qeyri-sabitliyə rəğmən müqayisədə inkişaf etməkdə olan ölkələrin maliyyə bazarlarının yığımlarını ən səmərəli sərmayə kimi istifadəsinə yönəldilməsində daha az effektiv olaraq qalması, hələ də bir həqiqətdir. Nəticədə inkişaf etməkdə olan ölkələr böhrana daha meyilli olaraq qalırlar.

4. Valyuta məzənnələri açıq olaraq sabitləşdirilmədiyi (Səudiyyə Ərəbistanı kimi) yerlərdə onlar daha ağır formada inkişaf etməkdə olan ölkələrin hökumətləri tərəfindən idarə olunmağa meyillidir. Hökumətin valyuta məzənnələrindəki sərbəstliyi məhdudlaşdırma tədbirləri həm inflyasiyanı nəzarətdə saxlamaq istəyini, həm də üzən məzənnələrin inkişaf etməkdə olan ölkələrin valyutaları üçün nisbətən həssas bazarlarda böyük dəyişkənliklərə alət ola biləcəyi qorxusunu əks etdirir. Xarici valyutaların bazar vasitəsilə deyil, hökumət qərarları vasitəsilə yerləşdirilməsi tarixçəsi var və bəzi inkişaf etməkdə olan ölkələrdə bir təcrübə (valyuta nəzarəti adlandırılır) kimi hələ də saxlanılır. Əksər inkişaf etməkdə olan ölkələr, xüsusilə, aktivlərin ticarəti ilə bağlı olan xarici valyuta əməliyyatlarını məhdudlaşdırmaqla, kapitalın hərəkətinə nəzarət etməyə çalışmışdır. Daha yaxın zamanda isə bəzi yeni inkişaf edən bazarlar öz kapital hesablarını açıblar.

75. "Bir ölkə üçün heç vaxt xarici borc verənlərdən borc almamaq ən yaxşısıdır". Razısınız və ya razı deyilsiniz? Niyə özəl kreditlər 1930-cu ildən 1974-cü ilə qədər az olmasına baxmayaraq, niyə

1974-cü ildən 1982-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə verilən özəl kreditlər xeyli yüksək idi?

İnkişaf etməkdə olan ölkələrin bir başqa özəlliyi onların makroiqtisadi problemlərini başa düşmək üçün əhəmiyyətlidir. Bu ölkələrin əksəriyyəti daxili sərmayələri maliyyələşdirmək üçün xaricdən maliyyə axınlarına çox bel bağlamışdı. I Dünya müharibəsindən əvvəl və Böyük Böhrana qədərki dövrlərdə, inkişaf etməkdə olan ölkələr (XIX əsrin bir hissəsi üçün Amerika Birləşmiş Ştatları da daxil olmaqla daha varlı ölkələrdən böyük maliyyə axınları qəbul edirdi. Britaniya ən böyük beynəlxalq borcverən idi, lakin Fransa, Almaniya və digər Avropa gücləri də ovaxtkı inkişaf etməkdə olan ölkələrdə (Argentina, Avstraliya, Kanada və Amerika Birləşmiş Ştatları kimi) maliyyə sənayesinin inkişafına və digərlərində (Braziliya, Peru, Keniya və İndoneziya kimi) təbii resursların hasilatı və ya kənd təsərrüfatı plantasiyaları üçün töhfə vermişdi. II Dünya müharibəsindən sonrakı onilliklərdə bir çox inkişaf etməkdə olan ölkələr yenidən daha varlı ölkələrin yığımları üçün onların qapılarını döydülər və dünyanın digər hissəsinə ciddi miqdarda borc topladılar (2013-cü ilin sonunda məcmu ifadə ilə təqribən 7 trilyon dollar). İnkişaf etməkdə olan ölkələrin borcu 1980- ci illərin əvvəllərindən başlayaraq dünya miqyasında iqtisadi siyasət qurucularını məşğul edən bir çox beynəlxalq borc böhranlarının mərkəzində olmuşdur.

Müflis olma problemi Beynəlxalq borclanma və borcvermədən potensial qazanclar borcverənlərin geri ödənilmə ilə bağlı əminliyi olmadıqca reallaşdırılmayacaq. bir borcun borcverənin icazəsi olmadan, borcalanın borc müqaviləsində göstərilən cədvəl üzrə həmin borcu geri ödəyə bilməməsi baş verdikdə müflis (defolt) Beynəlxalq makroiqtisadi siyasət olduğu deyilə bilər. İnkişaf etməkdə olan ölkələrdəki sosial və siyasi qeyri-stabillik, eləcə də onların ictimai maliyyə və maliyyə institutlarındakı tez-tez rast gəlinən zəifliklərı onlara borc verməyi sənayeləşmiş ölkələrə borc verməkdən qat-qat daha riskli edir. Əslində, inkişaf etməkdə olan ölkələrə maliyyə axınlarının tarixi maliyyə böhranlarının və müflis olmuş borc müqavilələrinin qalıqları ilə örtülmüşdür:

1. XIX əsrin əvvəlində bir neçə Amerika ştatı kanallar kimi infrastrukturların qurulmasını maliyyələşdirmək üçün Avropadan aldıqları borclar üzrə defolt yaşadı.

2. XIX əsr boyunca Latın Amerikası ölkələri geri ödəmə problemləri ilə qarşılaşdılar. Xüsusilə 1890-cı ildə (Barinq Böhranı) öz öhdəliklərini ödəyə bilməməsi ilə qlobal maliyyə böhranını alovlandırmış Argentina nümunəsini qeyd etmək olar.

3. 1917-ci ildə Rusiyanın yeni kommunist hökuməti əvvəlki hakimiyyətlər tərəfindən alınmış xarici borcları geri ödəməkdən imtina etdi. Kommunistlər sovet iqtisadiyyatını dünyanın digər hissələri üçün qapatdılar və adətən, qəddarcasına tətbiq olunan mərkəzi qaydada planlaşdırılmış iqtisadi inkişaf proqramına başladılar.

4. 1930-cu illərdəki Böyük Böhran ərzində dünya iqtisadi aktivliyi məhv olmuşdu və inkişaf etməkdə olan ölkələr sənayeləşmiş ölkələrdəki ixrac bazarlarına girişin proteksionizm divarları ilə bağlandığı mənzərə ilə qarşılaşdılar. Demək olar ki, bütün inkişaf etməkdə olan ölkələr nəticə etibarilə özlərinin xarici borclarına görə defolt oldular və inkişaf etməkdə olan ölkələrə olan özəl maliyyə axını dörd onillik üçün yox oldu. Bəzi Avropa ölkələri ittifaq hökumətlərinə, xüsusilə Amerika Birləşmiş Ştatlarına I Dünya müharibəsindəki borclarına görə defolt oldular.

5. Bir çox inkişaf etməkdə olan ölkələr yaxın onilliklərdə defolt oldular (və ya xarici borclarını yenidən strukturlaşdırdılar). Məsələn, 2005-ci ildə uzun müzakirələrdən sonra Argentinanın əksər özəl kreditorları bu ölkə üzərində olan iddialarının müqavilə dəyərinin sadəcə üçdə birində

qərarlaşmaq barədə razılığa gəldilər.

Həqiqətən, ölkələr üçün məsələlər hətta əvvəlki nümunənin göstərdiyindən daha pis ola bilər. Xarici borcverənlər müflisləşmə qorxusu yaşadıqda, sadəcə, yeni kreditləri dayandırmayacaq, həm də qısa qeydlə əsas məbləği tələb edilə biləcək (məsələn, qısamüddətli likvid bank əmanətləri) hər hansı borclar üzrə, təbii olaraq,

1980-ci illərin borc böhranı 1981 - 1983-cü illərdə dünya iqtisadiyyatı kəskin bir tənəzzüldən əziyyət çəkdi. Böyük Böhranın inkişaf etməkdə olan ölkələr üçün (sürətli şəkildə, demək olar ki, qlobal bir müflisləşmə ilə nəticələnən) öz xarici borclarını ödəməyi çətinləşdirməsi kimi, 1980-ci illərin əvvəlindəki böyük tənəzzül də inkişaf etməkdə olan ölkələrin borc məsələsində bir böhranı alovlandırdı.

Sənayeləşmiş ölkələrin məcmu tələbindəki azalmanın inkişaf etməkdə olan ölkələrə, əlbəttə, mənfi təsirləri oldu. Lakin üç digər mexanizm də əhəmiyyətli idi. İnkişaf etməkdə olan dünyanın dollar ilə ifadə olunmuş dəyişən faizli külli miqdarda borclarının olmasına ("əzəl günah" fəaliyyəti nümunəsi) görə borclu ölkələrin daşımalı olduğu faiz yükündə dərhal və kəskin artım var idi. Bu problem dollar ilə olan borcların real dəyər yükünü xeyli artıran dolların xarici valyuta bazarındakı kəskin bahalaşması ilə gücləndi. Nəhayət, xammal əmtəələrinin qiyməti çökdü və əksər kasıb ölkələrin ticarət şərtlərini pisləşdirdi. Böhran 1982-ci ilin avqustunda Meksikanın mərkəzi bankının xarici valyuta ehtiyatlarını tükətməsi və öz xarici borclarına görə ödənişləri artıq ödəyə bilməyəcəyini elan etməsi ilə başladı. Meksika və Argentina, Braziliya və Çili kimi digər böyük Latın Amerikasının borclanan ölkələri arasındakı bənzərlikləri görən, o dövrdə Latın Amerikasının ən böyük kreditorları olan sənayeləşmiş ölkələrin bankları yeni kreditləri dayandırmaq və daha əvvəlki ödənişləri tələb etməklə öz risklərini azaltmaq üçün tələsik hərəkətə keçdilər. Nəticələr isə inkişaf etməkdə olan ölkələrin genişmiqyaslı şəkildə öz əvvəlki borc öhdəliklərini yerinə yetirə bilməmələri və ümumi bir müflisləşmənin uçurumuna doğru sürətlə hərəkət etmələri oldu. Latın Amerikası ölkələri, bəlkə də, ən sərt zərbə aldılar. Lakin zərbə həm də Avropa banklarından borc almış Polşa kimi sovet bloku ölkələrinə də dəydi. Borclarının çoxu BVF və Dünya Bankı kimi rəsmi agentliklərə olan Afrika ölkələri də öz borclarını ödəyə bilmədilər.